# XANƏNDƏLƏRİN ŞEİRLƏRİ



# XANƏNDƏLƏRİN
# ŞEİRLƏRİ

Bakı – 2026

**Tərtibçi və naşir:** **Turan İbrahimov**
texnika üzrə fəlsəfə doktoru

**Redaktor və əruz işləmələri:** **Ömər Bayram**
Dosent, Dr.

**Məsləhətçilər:** **Ağakərim Nafiz,**
xanəndə, qəzəlxan

**Qəzənfər Abbasov,**
Əməkdar müəllim, xanəndə

**XANƏNDƏLƏRİN ŞEİRLƏRİ / tərt. ed. T.İbrahimov, red. Ö.Bayram, Bakı: UniPrint, 2026. – 330 s.**

Kitabda XIX əsrdən günümüzə qədər fəaliyyət göstərən 14 xanəndənin şeirləri toplanmışdır. Topluya əruz vəznində xanəndə-şairlərin 276 şeiri daxil edilib. Şeirlərin ən böyük hissəsi qəzəllərdir. Bununla yanaşı kitabda müxəmməs:, müsəddəs, nəzirə, təxmis, məsnəvi və b. formalarda da şeirlər vardır. Kitaba az sayda heca vəznində yazılmış gəraylı, qoşmalar daxil edilib.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN 978-9952-440-37-4**

**@Turan İbrahimov, 2026.**

## TƏRTİBÇİ-NAŞİRDƏN ÖN SÖZ

Muğam, Azərbaycan xalqının zəngin mədəniyyətini, hisslərini və ruhunu əks etdirən bir sənət nümunəsidir. Muğam – sözsüz yazılmış musiqidir. Muğamda oxunan sözlər də əruz vəzninin qəliblərində yazılmış qəzəllər və başqa şeir janrlarıdır. Muğamımızı yeniləyərək onu daima xalqa sevdirən də sözdür – qəzəllərdir. Daha doğrusu söz, musiqi və səsin vəhdəti, harmoniyasıdır. Muğamımız mütəmadi olaraq yeni təsnif və mahnılarla yenilənir. Gənc ifaçılar muğamı yeni səslərlə oxumağa başlayırlar. Əlbəttə ki, bu söz-musiqi-səs zəncirindən söz , yəni yeni şeirlərin də əmələ gəlməsi vacibdir. Klassiklərimizdən tutmuş bu günə kimi şairlərimiz də bu işin öhdəsindən can-başla gəlirlər. Bu çox sevindiricidir haldır ki, gənc şairlərimiz də hal-hazırda əruzda şeirlər yazmağa geniş yer verirlər.

Son illərdə mən də bir çox əruzda yazılmış şeir kitablarını dərc etdirməyə çalışmışam. Məqsədim xanəndələrimizə muğamlarda oxumaq üçün yeni mənbələr verməkdir. Bu kitablar içərisində anam Əzizə Cəfərzadənin hazırladığı "Təzkireyi-Əzizə" (2023), qocaman xanəndə, qəzəlxan Ağakərim Nafizin "Divan"ı (2017) və tərtib etdiyi "Təzkireyi-Nafiz" (2023), Fəxrəddin Salimin "Divan"ı (2024), dayılarım Əhməd və Məmməd Cəfərzadələrin şeirləri (2017-2020), Raqub Kərimovun tərtib etdiyi "XIX əsr Qarabağ şairlərinin şeir antologiyası" (2024), Qasım bəy Zakir "Əsərləri" (2025), Baba bəy Şakir "Əsərləri" (2025), şair-qəzəlxan Rüstəmin "Təcəlli" (2024) və sairlərdir. Bu

kitabların çoxunda əruz qəliblərini təyin edib yazmağa çalışırıq ki, xanəndələrimiz bu şeirləri asanlıqla muğamlarımızda uyğun yerlərdə oxuya bilsinlər.

Bunlarla yanaşı məni çox maraqlandıran cəhətlərdən biri də xanəndələrimizin şeir yazmaqlarıdır. Görünür ki, xanəndələrimiz oxumaq üçün istədikləri şeirləri tapa bilmədikdə və ya ilhamları öz fikir, hiss və duyğularını bildirməyi tələb edəndə şeirlər yazmağa başlayıblar. Təəssüf hissilə qeyd etməliyəm ki, xanəndələrimizin bu şeirləri sadəcə öz ifalarında, yaddaşlarda qalır ancaq çox vaxt toplanıb dərc edilməyir. Bu boşluğu sizə təqdim etdiyimiz bu toplu ilə doldurmaq qərarına gəldim. Düzü, sonda bu cür böyük həcmli kitab alınacağını gözləmirdim.

Bu kitabda XIX əsrdən bu günə kimi 14 xanəndəmizin şeirlərini toplamağa müvəffəq olmuşam. Əlbəttə, bu şairlərdən ilk və əsərlərini mükəmməl tanıyıb, tədqiq etdiyim qocaman xanəndə, qəzəlxan Ağakərim Nafizdir. Yuxarıda qeyd etdiyim kimi, onun 630 səhifəlik mükəmməl "Divan"ını 2017-ci ildə tərtib etdirib nəşr etdirmişəm. Ağakərim Nafizin 75 illik yubileyi münasibəti ilə haqqında "Qaf dağından gələn səs" adlı kitabı da tərtib etmişəm.

Ağakərim Nafiz "Divan"ından sonra da şeirlər yazmağa davam etmiş və xeyli şeirləri bilavasitə bu kitaba daxil etmək üçün yazmışdır. Bu şeirlər ilk dəfə bu kitabda işıq üzü görür.

Ağakərim özünə ustad saydığı, XIX əsrin ikinci yarısında Şamaxıda Mahmud ağa məclislərində fəaliyyət göstərmiş Mirzə Məhəmmədhəsən haqqında 2010-cu ildə "Ustadi-Ə'zəm Mirzə Məhəmməd Həsən Fələkzadə Şirvani" adlı kitab yazmış və orada xanəndə-şairin şeirlərini nəşr

etdirmişdir. Həmin kitabdakı şeirlər bu kitaba da daxil edilmişdir.

Ağakərim Salik XIX əsrdə Bakıda məşhur xanəndə, musiqişünas və şair olmuşdur. Şeirlərindən sadəcə 4 nümunə tapmaq mümkün olmuşdur.

Qəribə də olsa "Xanəndə Məşədi Qafar Qaryağdı" kitabı üzərində işləyəndə Şuşamızın Qaryağdılar nəslinin iki nümayəndəsinin də şeirlər yazdığı məlum oldu. Bunlardan birincisi Qaryağdıların böyük qardaşı, əvvəllər xanəndəlik etmiş, sonra ancaq qəzəlxan kimi fəaliyyətini davam etdirən Məşədi Məhəmməd Bülbüldür. Onun böyük həcmli kitabı professor Raqub Kərimov tərəfindən nəşr etdirilib. İkinci qardaş, məşhur xanəndə Cabbar Qaryağdıoğlu da gənclik dövründən başlayaraq şeirlər yazmışdır. Təəssüflər olsun ki, bu şeirlərin çoxu itirilmişdir. Tapdığımız bir neçə nümunəni kitaba daxil etmişik.

Mərhum Xalq artisti Hacıbaba Hüseynov həm xanəndəliyi, həm yeni nəsil xanəndələrə dərs deməyi ilə yanaşı həm də şeirləri ilə xalqın rəğbətini qazanmışdır. Çox üzücüdür ki, onun çoxsaylı şeirləri hələ ayrıca kitab şəklində nəşr edilməmişdir. Bu kitaba xanəndə-şairin əruz vəznində yazdığı 25 şeiri daxil edilib. Bu şeirlər onun ifalarından, tələbələrinin qeydlərindən toplandığı üçün burada ola biləcək qüsurlara görə Hacıbaba Hüseynovun ruhundan üzrlər diləyirik.

Xanəndə, aktyor və şair Məmmədəli Sailin şeirlərinin aqibəti Hacıbaba Hüseynovdan daha uğurlu olub. Onun şeirləri "Qiymətli olur söz həmişə kamil olanda" adlı kitabında vəfatından 10 il sonra 1993-cü ildə Sevda Əliyeva tərəfindən tərtib edilərək, tərtibatçının hesabına nəşr

edilmişdir. Məmmədəli Sailin şeirləri latın qrafikasına keçirilib dərc edilmədiyindən onu qəzəllərinin böyük hissəsini bura daxil etmişik.

Mərhum xanəndə, Xalq artisti Əlibaba Məmmədovun da az sayda da olsa yazdığı şeirləri toplayıb kitaba əlavə etmişik.

Əməkdar İncəsənət xadimi Hacı Aqil Məlikov şair xanəndələrimizdəndir. O da öz müəllimi Hacıbaba Hüseynov kimi əruz vəznində çoxlu sayda şeirlər yazmışdır. Sevindirici haldır ki, onun "Qəzəllər toplusu" adlı 494 səhifəlik kitabı 2025-ci ildə işıq üzü görüb. Müəllif öz şeirlərindən 13-nü bu kitaba salmaq üçün bizə təqdim etmişdir.

Rəhmətlik xanəndə-şair Hacı Yaşar Cahidin də xeyli şeirləri olduğu deyilir. Lakin əsərləri dərc edilmədiyindən onları tapmaqda çətinlik çəkdik. Bura daxil etmək üçün şeirləri ifalarının video yazılışlarından toplamalı olduq.

Əli Nəcəfzadə Tənha da Asəf Zeynallı adına Musiqi məktəbində Hacıbaba Hüseynov sinfində təhsil almışdır və ustadının təsiri ilə qəzəllər yazmağa başlamışdır. İndi Bərdədə yaşayan xanəndə-şairin özünün bizə təqdim etdiyi şeirləri bu topluya daxil etmişik.

Bu kitabda Əməkdar müəllim, xanəndə Qəzənfər Abbasov özünün və 4 tələbəsinin şeirləri ilə birgə iştirak edir. Bu tələbələrdən Nasir Ətapur və Həmidrıza Rızayi Güney Azərbaycanındandır. Səlim Nəsirli və Murad Kərimli Quzey Azərbaycanındandır. Qəzənfər müəllimin tələbələri onların şeir yazmaqlarında müəllimlərinin rolu olduğunu vurğulayırlar. Bu tələbələrdən biri Murad Kərimli 24 yaşındadır və o xanəndə şairlərin bu kitaba daxil

olan ən gənc nümayəndəsidir.

Bu kitab üçün şeirlərin toplanılmasında Ağakərim Nafiz və Qəzənfər Abbasov mənə yaxından kömək etmişlər. Şair-qəzəlxan Rüstəm də bu kitabda xətaları olan bir sıra şeirlərin redaktəsinə yardım görmüşdür. Türkiyəli alim, dosent Ömər Bayram kitabın redaktəsini və əruz işləmələrini etməyi öhdəsinə götürüb, kitabdakı şeirləri analiz edib gözəl ön sözü də yazmışdır. Mənə bu kitabın işıq görməsi prosesində yardım edən yuxarıda adlarını sadaladığım bu insanlara dərin minnətdarlığımı bildirirəm.

**Turan İbrahimov**

## REDAKTORDAN ÖN SÖZ

"Xanəndə" sözü farsca "xan" (oxumaq) sözündən yaranmış olub "oxuyan, ifaçı" mənasını verir. Xanəndələr başqa bir şairin yazdığı şeiri musiqi müşayiəti ilə, gözəl səs və avaz ilə oxuyurlar. Ancaq elə xanəndələr də vardır ki, onlar eyni zamanda şairlik qabiliyyətinə də malikdirlər. Bu kitabda XIX əsrdən bu günə qədər yetişmiş bir çox azərbaycanlı xanəndə yazdıqları şeirlərlə eyni zamanda bir şair kimi də təqdim olunmuşdur. Bu şair-xanəndələr həm musiqi biliyinə, həm də klassik üslubda şeir biliyinə sahibdirlər.

Türkiyədə də xanəndəlik ənənəsi uzun illərdir davam etməkdədir. Hacı Arif Bəy (İstanbul 1831–1885), Hafız Burhan (Burhanəddin Sesyılmaz, İstanbul 1897–Ankara 1943), Münir Nureddin Selçuk (İstanbul 1900–1981) kimi insanlar həm bəstəkar, həm də məşhur xanəndələrdəndir. Bundan əlavə, xalq arasında yetişmiş Kazancı Bedih (Bedih Yoluk, Şanlıurfa 1929–2004) Anadolu məclislərində "sıra gecələri" adlanan məclislərdə oxuduğu qəzəllərlə tanınmış bir xanəndədir.

Xanəndələrdə fitri musiqi qabiliyyəti olur. Şair-xanəndələrin şeirlərində də xüsusi bir ahəng dərhal hiss edilir. Onların şeirlərində musiqi ilə bağlı sözlər, nəğmə ilə bağlı poetik ifadələr daha çox yer tutur. Biz burada xanəndələrin şeirlərindən seçdiyimiz bəzi beytləri bu baxımdan izah etməyə çalışacağıq.

Mirzə təxəllüsü ilə şeirlər yazan xanəndə Məhəmmədhəsən özünü xüsusilə bülbülə (əndəlibə) bənzətmişdir. Bir

bülbül gözəl səsi ilə gül bağçasına rövnəq verdiyi kimi xanəndə də ifası ilə məclisə gözəllik qatır.

Bu tövr baxmağımı görcək ol pəriçöhrə,
Dedi: – Nəzarə üçün gəlmədim bu ərsayə.

Dedim: – Eyibdi məgər gül cəmalüvə baxmaq?
Gülə çəməndə gələr əndəlib təmaşayə.

*(Bu pəriçöhrəli dilbər mənim ona belə baxdığımı görüncə dedi: "Mən bu meydana tamaşa üçün gəlməmişəm." Mən də ona dedim: "Sənin gül kimi gözəl üzünə baxmaq məgər ayıbdır? Əlbəttə, bu gül bağçasına sənin kimi bir gülü mənim kimi bir bülbül tamaşa üçün gələr.")*

Bu iki beytdə şair çoxsaylı **təşbeh (bənzətmə) ədəbi sənətindən** istifadə etmişdir. Sevgilinin çöhrəsi pəriyə, gözəl üzü gülə bənzədilmiş, eyni zamanda **istiarə sənəti** ilə məclis çəmənə, aşiq isə bülbülə bənzədilmişdir. Klassik şeirdə "dedim-dedi" formasında olan qəzəllərə "**müraciə qəzəl**" deyilir. Bu şeir də buna nümunədir. Şair "eyibdi məgər" ifadəsində **istifham sənətindən** istifadə etmişdir. Bu sənətdə mənanı gücləndirmək üçün sual verilir, lakin cavab gözlənilmir. Beytlərdə "baxmaq, görmək, nəzarə, tamaşa" sözləri arasında məna uyğunluğu **tənasüb sənəti** vardır.

Mirzənin başqa bir beytində "Nəva" muğamının adı çəkilir.

Cismimin taqəti yoxdur ki, "Nəva" həngi çəkib,
Nalə ilə qulağın dəng eləyim mehmanın.

*(Vücudumun taqəti yox ki, "Nəva" muğamında nəğmə oxuyam və nalə ilə qonaqların qulağına səs çatdırım.)*

Bu beytdə şair "Nəva" muğamını xatırladaraq **təlmih sənətindən** istifadə etmişdir. "Nəva" sözünün həm bir muğam adı, həm də "nəğmə, ahəng, səs" mənaları vardır. Şair beytdə kəlməni hər iki mənada nəzərdə tutduğu üçün burada iham sənəti vardır.

Bülbül təxəllüslü Məşədi Məhəmməd çox gözəl qəzəllər yazmışdır. Onun bir qəzəlinin məqta beyti belədir:

Etməyün eyb, etsə Bülbül hicri-güldə ahü zar,
Vəchi var, gər ruzü şəb fəryadü əfğan eyləsə.

*(Bülbül gülündən ayrı düşəndə ah-zar edərsə, onu qınamayın. Əgər gecə-gündüz fəryad edərsə, bunun bir səbəbi vardır.)*

Şair bu beytdə öz təxəllüsü olan "bülbül" sözünü iki mənada işlətmişdir ki, buna **hüsn-i təxəllüs** deyilir. "Vəch" sözünün ilk mənası üz, çöhrədir. Sevgilidən bəhs edən beytdə sözün demək olar ki, hərfi mənasında işlənməsi gözlənilir. Ancaq şair burada sözün səbəb mənasında işlədilməsini nəzərdə tutur. Kəlmənin uzaq mənasının işlədilməsi **təvriyə (ikiqat məna) sənəti** adlanır.

Hacı təxəllüsü ilə yazan məşhur xanəndə Hacıbaba Hüseynovun beytləri də diqqətəlayiqdir.

Xəyalim var açaq canan ilə sərraf dükanı,
Gümüş tək ağ camal ondan, qızıl tək rəngi zərd məndən.

*(Mənim sevgilim ilə zərgər dükanı açmaq xəyalım var. Gümüş kimi ağ üz ondan, qızıl kimi sarıbəniz məndən olsun.)*

Şair burada sevgilinin və aşiqin üz rənglərindən ilham alaraq gözəl bir xəyal qurmuşdur. Sevgilinin ağ cəmalı gümüşə, aşiqin dərddən saralmış üzü isə qızıla bənzədilmiş, **təşbeh sənətindən** istifadə edilmişdir. "Zərgər", "gümüş" və "qızıl" sözləri arasında **tənasüb sənəti** vardır.

Üzündə nəqş olunub qaşı, çeşmi, xalı, xəti,
Nə ali zövqlə gör ağə qarə yazmışlar.

*(O sevgilinin üzündə qaşı, gözü, xalı və cizgiləri nəqş edilmişdir. Bu nə gözəl bir estetik anlayışı ki, ağ üzərində qara rənglə yazıblar.)*

Beytdə **leffü nəşri-mürəttəb sənəti** vardır. Birinci misradakı üz ilə ikinci misradakıağ ağ, birinci qaş, çeşm (göz), xal, xət ilə ikinci misradakı qara kəlməsi arasında gözəl bir uyğunluq mövcuddur.

Sail təxəllüslü Məmmədəli Əliyevin şeirlərində orijinal ifadə tərzi vardır.

Sağ ikən hörmət edin siz mənə, ey dustlərim,
İstəsəz, lap çəkiniz darə, öləndən sonra.

Zahida cənnəti ver sən mənə, bu dünyada,
Atınız sonra məni narə, öləndən sonra.

*(Ey dostlarım, sağ ikən, həyatda ikən mənə siz mənə hörmət edin. Öləndən sonra istəsəniz məni darağacına belə çəkin. Ey zahid, mənə bu dünyada cənnət ver, amma öləndən sonra istəsəniz məni oda, cəhənnəmə ata bilərsiniz.)*

Beytlərdə sağ və ölü, hörmət etmək və dara çəkmək

sözləri arasında **təzad sənəti** vardır. “Ey dostlarım”, “ey zahid” ifadələrində **nida sənətini** vardır. İkinci beytdəki “Nar”, “atəş” sözü ilə cəhənnəm nəzərdə tutulmuşdur. Burada **məcazi-mürsəl sənəti** vardır.

Məclisi meyxanəyə rövnəq verən sorsan nədir?
Musiqidir söylərəm, bir də gül üzlü badədir.

Saila, beş günlük ömrü, keyf ilə vur başə sən,
Sərhesab ol, dayimi durmuş əcəl, amadədir.

*(Meyxanadakı məclisə gözəllik verən şey nədir deyə soruşsanız, deyərdim ki, bu, musiqidir, həm də gül üzlü şərabdır. Ey Sail, bu beş günlük ömrünü zövqlə keçir. Hesablarını diqqətlə apar, çünki əcəl hazır gözləməkdədir.)*

“Gül üzlü badə” ifadəsində şərab həm rənginə, həm də qədəhin şəklinə görə gülə bənzədilmişdir. “Beş günlük ömür” ifadəsində ömrün illərinin sayca az olması kinayə sənəti ilə şərh edilmişdir.

Nafiz təxəllüslü Ağakərim Nafizin şeirlərində yüksək bir ədəbi zövq vardır. O, həm muğam sənətini, həm də klassik üslubda şeirlər yazmağı uğurla icra edən görkəmli bir Azərbaycan sənətkarıdır.

Gündə yüz yol səcdə qılsam kimsə eyb etməz mana,
Səhvdir ummaq yıxılmaqdan səva məstanədən.

*(Gündə yüz dəfə səcdə etsəm belə, heç kim məni günahlandırmaz. Bir sərxoşdan, yıxılmaqdan başqa bir şey gözləmək xətadır.)*

Aşiq eşqdən sərxoşdur. Sərxoş olan şəxs ayaq üstə dura bilməz; yerə yıxılır. Bu yerə yıxılma halı namazda səcdə etməyə bənzədilmişdir. **Təşbeh sənətləri** vardır. Bu aşiqin gündə yüz dəfə səcdə etməsi onun eşqdən sərxoş olmasından irəli gəlir. Burada bir şeyi gözəl bir səbəbə bağlama **hüsni-tə'lil sənəti** vardır. Namazda səhv səcdəsi deyə bir vəziyyət var. Namaz qılan şəxs bir şeyi namazda səhv etdiyini düşünürsə, namazın sonunda səhv səcdəsi edir. Beytdəki "səhv" sözü bunu xatırladır. Burada **təlmih sənəti** vardır.

Gül yanağindən utandi, geydi əlvan lalələr,
Ay buluddan pərdə dutdi, gün cəmalin görcəyin.

*(Ey sevgilim, gül yanağından utandı. Lalələr rəngarəng paltar geyinmişdi. Sənin günəş kimi üzünü görəndə ay üzərinə buluddan pərdə çəkdi.)*

Bu beytdəki ən gözəl sənət **təşbih sənətidir**. Beytdəki müxtəlif varlıqlara insanda olan xüsusiyyətlər verilərək onlara aid etməklə təcəssüm olunur – canlandırılır, insaniləşdirilir. Gülün utanması ilə, lalələr paltar geyməsi ilə və ay pərdə örtməsi ilə insana bənzər hesab olunur. Gül ilə yanaq, bulud ilə pərdə, günəş ilə sevgilinin üzü arasında bir bənzətmə – **təşbeh sənəti** vardır. Gülün yanaqdan utanması və ayın sevgilinin günəş kimi üzünü görəndə öz üzərinə buluddan pərdə tutması halında gözəl bir **mübaliğə sənəti** vardır. Ay, günəş və bulud sözləri arasında bir **tənasüb sənəti** vardır.

Qəm olmaseydi əgər mən də Nafiz olmaz idim,
Xəlayiq içrə qılıb bunca nəğməkar məni.

*(Əgər bu kədər məndə olmasaydı, Nafiz olmazdım. Bu kədər məni bütün yaradılış arasında nəğməkar etdi.)*

Şair bu beytdə, bir növ, müğənni olmasının səbəbini izah edir. Nafizin oxumasının səbəbi, onun eşq dərdi ilə dilə gəlməsidir.

Bir vəfalı dustikən, təb'i-rəvanım son zaman,
Gahi gəlmir, neyləyim, ol bivəfa hərdən gəlir.

*(Mənim şairlik təbiətim, vəfalı bir dost ikən, son vaxtlar neynəyim ki, o vəfasız bəzən gəlmir, bəzən isə yalnız ara-sıra gəlir.)*

Nafiz bu beytdə, poetik təbiəti ilə bağlı bir məsələyə toxunur. O, bunu bir vaxtlar sadiq olan, indi isə vəfasızlıq edən və yalnız ara-sıra ziyarət edən bir dostla müqayisə edir. Şair özünəməxsus bir xüsusiyyəti ayrı bir varlıq kimi düşünərək **təcrid sənətindən** istifadə etmişdir. Bir dosta bənzədərək **təşbeh sənətindən** istifadə etmişdir. "Vəfalı" və "vəfasız" sözləri **təzad, təkrir və iştiqaq (törəmə) sənətini** özünə daxil edir.

Xatirim gəh zülfünün, gah xalinin fikrin çəkər.
Qorxudur gəh marilən, bidar edir gəh murilən.

*(Xatirəm bəzən onun saçlarının bəzən də xalının düşüncələrinə dalar. O sevgili məni bəzən ilanla qorxudur, bəzən qarışqa ilə oyadır.)*

Sevgilinin gözəllik ünsürlərindən saçları – zülfü ilana bənzəyir. Yanağındakı xal rəngi və formasına görə qarışqaya bənzəyir. Aşiq sevgilisinin bu gözəlliklərini düşünür. Sevgili isə bəzən qorxudur, bəzən ona ümid verir. Beytdəki ən gözəl ədəbi sənət **ləffü nəşri-müretteb sənətidir**. Birinci

misradakı "zülf" (saçlar) və ikinci misradakı "mar" (ilan), birinci misradakı "xal" ilə ikinci misradakı "mur" (qarışqa) sözləri arasında arasında semantik əlaqə var. Və bu sözlər nizamlı şəkildə düzülmüşdür. Bu sözlər arasında bir **təşbeh sənəti** var. Birinci misradakı xatir və xal sözləri, ikinci sətirdəki tez-tez təkrarlanan "r" səsi ilə gözəl bir ahəngdarlıq yaradılmışdır; **alliterasiya sənəti** var.

Aqil təxəllüslü Hacı Aqil Məlikov şeirlərində xanəndəlik ilə bəzi məqamlara toxunmuşdur.

Xanəndə gərək sözdə olan mətləbi bilsin,
Bilməzsə, düşər hörməti toyxanalar içrə.

*(Xanəndə oxuduğu sözün mənasını gərək bilsin. Əgər bilməsə, toyxanalar içində hörməti azalar.)*

Şair bu beytdə xanəndə olmağın tələblərini bildirir. Xanəndə oxuduğu mətndəki sözlərin mənasını yaxşı bilməlidir.

Olma Aqil kimi sən bu qədər səhlənkar,
Yazmağa şe'r yazıb, amma kitab eləməyib.

*(Aqil kimi məsuliyyətsiz olma. O, şeirlər yazıb, amma onları kitab halına gətirməyib.)*

Şair burada özünə müraciət edir və özünü məsuliyyətsiz davranmaqda günahlandırır. O, çoxlu şeir yazsa da, onları kitab halına gətirmədiyinə görə təəssüflənir.

Nasir təxəllüslü şair beytlərindən birində dünyaya baxışı haqqında məlumat verir.

Nasira aləmə bax qəlbi gözilə yoxsa,
Batacaq zülmətə bu nurla yaranmış xilqət.

*(Ey Nasir, bu dünyaya qəlb gözü ilə bax, əks halda işıqla yaradılmış bu dünya qaranlığa qərq olar.)*

Beytdə təsəvvüf baxışı vardır. İnsan gözü həqiqəti görə bilmədikdə, hər şey ona qaranlıq görünür. Lakin, varlığa yalnız qəlb gözü ilə baxanlar dünyadakı işığı görə bilərlər. "Qaranlıq" və "işıq" sözləri arasında **təzad (ziddiyyət) sənəti** vardır.

Səlim təxəllüsü ilə yazan Səlim Nəsirli poetik baxışlarını misralarında belə dilə gətirmişdir.

Şair o deyil qafiyəli söz yaza bilsin,
Sözdən gərək öz şe'rinə inci düzə şair.

*(Şair o kimsə deyildir ki, o sadəcə qafiyəli sözlər yaza bilsin. Şair öz şeirinə sözlərlə incilər düzməlidir.)*

Bu beytdə şeir nədir, necə olmalıdır sualına cavab axtarmışdır. Poetika adlandırdığımız elm bu mövzu ilə məşğul olur. Burada da sadəcə qafiyəli sözlərlə şeir yaradıla bilməz, sözlər inci, mirvarı kimi sapa düzülməsinin gərəkliyini söyləişdir. İstirdiyyənin çəkdiyi əzablar nəticəsində qabığın içində mirvari əmələ gəlir. Şeir həm də şairin hissləri güclənib sözlərdə formalaşdıqda ortaya çıxır. Bu baxımdan, şeirin sözləri sapa düzülmüş mirvarilərə bənzəyir. Burada **təşbeh sənəti** var.

Başqa bir beytdə Səlim şərab haqqında belə deyir:

Əlin dəyib o üzdən gəlibdi dadə badə,
Gözün görübdü məxmur olub ziyadə badə.

*(Əlin dəyib bu səbəbdən badə aşığın dadına, imdadına yetişdi. Badə, sənin gözünü gördü buna görə də həddən artıq sərxoş oldu.)*

Beytin ən gözəl sənəti iki yerdə gördüyümüz **hüsni-təlil sənətidir**. Birinci misrada şərabın aşığın köməyinə yetişməsini səbəb olaraq sevgilinin əlinin ona toxunması kimi göstərilir. İkinci misrada şərabın həddindən artıq sərxoşluğa səbəb olmasının səbəbi sevgilinin məst gözlərini görmək kimi göstərilir. Şərabın imdada çatdığı və aşiqin onun gözlərini gördüyünü deməklə təşbih sənətindən istifadə olunub. "Məhmur" (yuxulu) və "badə" (şərab) sözləri arasında **tənasüb sənəti** vardır.

Rızayi təxəllüsü ilə Həmidrza Rızayi Leyla və Məcnunu xatırladır.

Leyli-Leyli səsləyib Məcnun tək aşiqsən əyər,
Çöldə gəzmə, qəlbidə axtar məqami Leylini.

*("Leyla Leyla" deyə səsləyənib əgər Məcnun kimi aşiqsənsə səhralarda dolaşma Leylanın məskənini qəlbində axtar.)*

Bu beytdə Leyla və Məcnunun eşq hekayəsinə işarə edilir və **təlmih (işarə) sənətindən** istifadə olunur. Burada həm məcazi sevgi, həm də ilahi sevgi ifadə olunur. Şair: "Eşqi səhrada deyil, ürəkdə axtarın"– deyir. Məcazi olaraq Leylanın təmsil etdiyi və əslində isə ilahi olan eşq insan qəlbindədir. İnsan qəlbində yaşadığı eşq səyahəti ilə Allah eşqinə çata bilər.

Murad təxəllüsü ilə şeirlər yazan gənc şair Murad Kərimli bəzi şeirlərində təsəvvüf mövzularına toxunub.

Zərrədən küllə qovuşmaq da özü bir eşqdir,
Çün yağış da eşq ilən yağmaqdadir dəryalərə.

*(Zərrədən bütövə çatmaq da əslində bir eşqdir. Əslində yağış da dənizlərə eşq ilə yağır.)*

Bu beytdə varlığın çoxluğunun ilahi eşqə düşərək vəhdətə çatmaq istəyi ifadə olunur. Birinci sətirdə "zərrə" və "bütöv" sözləri arasında **təzad** vardır yəni burada təzad sənətindən istifadə edilmişdir. Bu misra tamamilə təsəvvüf mənasını daşıyır. İkinci misrada dənizlərə yağışın yağması hadisəsi gözəl bir səbəbə aid edilir və bunun səbəbi ilahi eşq kimi göstərilir. **Hüsni-təlil sənəti** vardır. Birinci misradakı zərrə ilə ikinci misradakı isə yağış; Birinci misradakı "küll" (bütöv) və ikinci misradakı "dərya" (dəniz) sözləri arasında **leffü neşri-mürəttəb sənəti** var.

Bu beyt XVI əsr Anadolu şairi Hayali bəyin aşağıdakı beytini xatırladır:

Hakk'ı biz bulduk deyü zannetmesin ashab-ı kal
Cuylar çün erdiler deryaya hamuş oldular.

(*Söz əhli, işi-gücü danışmaq olan zahidlər biz Allaha çatdıq deyə zənn etməsinlər. Çaylar dənizə çatdılar, artıq səssiz olublar.* Yəni, bol suyu ilə güclü səs-küy salan çay dənizə qovuşub vəhdətə çatanda daha səs çıxara bilmir.)

Nəticə olaraq, bu kitabda əsasən qəzəl formasında yazılmış xanəndələrin şeirləri yer alır. Xanəndələr güclü bir

musiqi biliyə sahib olduqları və oxuyarkən musiqini hiss etdikləri üçün bu bacarıq onların şeirlərində də diqqətə çarpır. Xanəndələrin şeirləri daha çox musiqiyə yaxındır. Əhməd Haşim (Bağdad 1887-İstanbul 1933) "Şeir haqqında bəzi mülahizələr" adlı yazısında bildirir: "Şairin dili "nəsr" kimi başa düşülmək üçün deyil, lakin hiss olunmaq üçün nəzərdə tutulub; bu, musiqi ilə söz arasında yerləşən, sözlərdən daha çox musiqiyə daha yaxın bir dildir, vasitəçi bir dildir." Ümid edirəm ki, bu kitab oxuculara poeziyadan zövq almaqla yanaşı, musiqi melodiyasına bənzər bir zövq də bəxş edəcək.

**Dos. Dr. Ömər BAYRAM**
18 mart 2026, Antalya

## MİRZƏ MƏHƏMMƏDHƏSƏN (1850– 1917)

Mirzə Məhəmmədhəsən İsmayıl oğlu Fələkzadə Şirvani (1850, Şamaxı – 1917, Şamaxı) – Azərbaycan xanəndəsi və şairi. Şirvanın tanınmış el sənətkarlarından biri olan xanəndə Mirzə Məhəmmədhəsən Şamaxıda yaşayıb-yaratmışdır. O, şamaxılı mesenat Mahmud ağanın sarayında təşkil olunan muğam məclislərində püxtələşmiş, dövrünün məşhur xanəndələrindən biri kimi tanınmışdır. 1916-cı ildə "Nalə" adlı şeirlər kitabı nəşr olunmuşdur. Mirzə Məhəmmədhəsən "Sarıtorpaq şikəstəsi"nin və bir çox təsniflərin müəllifidir. "Hümayun", "Şur", "Şüştər" və "Rast" muğamlarını, xüsusilə "Mənsuriyyə" zərbi muğamını el şənliklərində, məclislərində böyük ustalıqla oxuyan xanəndənin ifa tərzinin özünəməxsus gözəlliyi var idi. Mirzə Məhəmmədhəsənin həyatı və sənəti barədə Ağakərim Nafizin müəllifi olduğu "Ustadi-ə'zəm Mirzə Məhəmmədhəsən Fələkzadə Şirvani" (2010) adlı kitab nəşr olunmuş və şeirləri "Təzkireyi-Nafiz"ə daxil edilmişdir.

****

**Müctəs-2:**
**MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**
**• — • — / • • — — / • — • — / • • —**

Bu gün nə türfə gözəllər gəlib kəlisayə,
Ki nazü qəmzə edər abü tab ilən ayə.

Belə gözəlləri Xaliq nə gündə xəlq eləmiş?
Nə kimsədir bulara süd verib, olub dayə?

Nəzər salanda biri ixtiyarimi aldı,
Bu dəmdə mürği-dilim düşdü dami-tərsayə.

Dübarə bir də baxanda cünuni-eşq oldum,
Necə ki Yusifi-Kən'an baxar Züleyxayə.

Bu tövr baxmağımı görcək ol pəriçöhrə,
Dedi: – Nəzarə üçün gəlmədim bu ərsayə.

Dedim: – Eyibdi məgər gül cəmalüvə baxmaq?
Gülə çəməndə gələr əndəlib təmaşayə.

Tərəhhüm eylə ki, cövründən, ey büti-tərsa,
Şikayət eyləyərəm Məryəm oğlu İsayə.

Salıbdı Mirzəni bir halə ki, əyyami-qəmin
Yetər cəfa elədün aşiqi-qəmfərsayə.

****

**Müctəs-2:**
**MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**
**• — • — / • • — — / • — • — / • • —**

Açıldı həlqeyi-zülfi-nigardən mulər,
Dolaşdı bir-birinə şahmarı-gisulər.

Görüb yüzündə qara xalların güman elədim,
Riyazi-həşt behişti tutubdu hindulər.

Qəza qılıb nəzər etdim o çeşmi-şəhlayə,
Odur ki qətlimə fərman yazıbdı əbrulər.

Yadunda varmı dünən qıyğacı baxıb getdün,
Dedim ki qaidədür kəc baxallar ahulər.

Nə yarim inciməz idi, nə mən nigarimdən,
Arada gəzdi dolandı rəqibi-bədgulər.

Təlxkam eylədi bu Mirzəni məlamətlər,
Şərbət ağzımda necə döndü oldu ağulər.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • /• — — • / • — —**

Heyhat, ola bu gərdişi viran, ölürəm mən,
Bir ləhzə könül olmadı xəndan, ölürəm mən.

Qaldı vətənin həsrəti, ya Rəb, ürəyimdə,
Ta görmədim axir üzün əl'an, ölürəm mən.

Ya Babi-həvayic, bu vilayətdə qəribəm,
İmdad elə, ya Şahi-Xorasan, ölürəm mən.

Bimar gözüm gülşəni-didarına həsrət,
Bəs kimdən umum dərdimə dərman, ölürəm mən.

Təqdiri-qəza yazdı məlamətli hekayət,
Verdi təzədən qətlimə fərman, ölürəm mən.

Zülmatə düşüb Mirzə fəqət zülfün ucundan,
Tədbirin elə, ey məhi-taban, ölürəm mən.

**Həzəc-11:**
**Məf'Ulü / məfA'ilün / fə'Ulün**
**— — • / • — • — / •— —**

Bir bülbül idim çəmənlər içrə,
Gülzardə yasəmənlər içrə.
Əfğan edübən budağə düşdüm,
Dağlari görüb bu dağə düşdüm.
Gül qönçəligində xarə baxdı,
Bülbül ğəmü hicri-yarə baxdı.
Bülbülləri bən ziyarət etdim,
Könlüm evini də qarət etdim.
Bülbül oxuyurdu bəndə düşdüm,
Bir dəstə gülə kəməndə düşdüm.
Səyyadlərə düçar oldum,
Gül xatirinə şikar oldum.
Səyyad oxunu kəmanə qoydu,
İki gözümü nişanə qoydu.
Səyyadin oxu dəgəndə bildim,
Səyyad özü bildi, bən də bildim.
Seyd etdi qəza bu halə saldı,
İki gözümü əlimdən aldı.
Gün qarə geyindi etdim ehya,
Nə sirrdi gündüz oldu yelda.
Qəddim xəm olundu, rəngi soldu,
Gecəm-günüzüm qaranlıq oldu.
Dil lalələnirdi, dağlı qaldı,
Ruhim qəfəsində bağlı qaldı.
Göz mərdüməgi xərab oldu,
Yandı cigərim kəbab oldu.

Az doğra yarani, yarə bəsdi,
Nazik könülə işarə bəsdi.
Nə tab qalıb, nə taqətim var,
Dil qarət olub, əzamətim var.
Bağlatdı gözüm qəza, dayandım,
Etdi günümi qara boyandım.
Heyran-heyran qərayə baxdım,
Göz yaşı töküb qərayə batdım.
İki gözümün qərasi getdi,
Ömrüm qutarıb vəfası getdi.
Qəm dərsi mənimçün açdı məktəb,
Hər yan baxıram olub mürəkkəb.
Bən bəxti qəra qəra götürdüm,
Öz başimə min bəla gətirdüm.
Ləxtə-ləxtə cigərim qan oldu,
Bu haldə dərdim ümman oldu.
Könlüm, bu nə qəmdi bir qan ağla,
Zülmatin evində pünhan ağla.
Viranə könül olundu qarət,
Qan ağlamağım olundu adət.
Xunabə olub bənimlə həmdəm,
Zənciri-qəmə çəkür dəmadəm.
Kəcrov fələyin əlində zarəm,
Könlüm qəm alıbdı biqərarəm.
Nə var bir işim, nə bir məcalim,
Dərdü qəmü qüssədir xəyalim.
Bəd çeşmlərə nişanə oldum,
Dərbəstə nişini-xanə oldum.
Qəm naməsini fələk gətirdi,
Bu başimə min kələk gətirdi.

Zülmü sitəmə düçar oldum,
Azürdəvü dilfikar oldum.
Tifl ikən əcəb məni oyatdı
Bəxtim oyanırdı, baxdı, yatdı,
Bu dərdə necə dəvam edim mən?
Dünyadə qalıb nə kam edim mən?
Qəz(z)a məni gör nə halə saldı,
Pişəng yoruldu, dalda qaldı.
Hər şey əriyir könül ərimәz,
On beş sözümün biri yerimәz.
Aşna, aşina yalan söz imiş,
Qədim kişilər deyən düz imiş.
Aşnam çoxdur qaçan tapılmur,
Qıcqırdı xəmir yapan tapılmur.
Viranə evimdə qalmışam tək,
Bəxtim bilürəm urubdu pərsəng.
İnsanə inanma, bivəfadur,
Dünya qəm otağıdur, fənadur.
Hər xahişin olsa xasın istə,
İnsanın əzəl vəfasın istə.
Dünya bənə çox sitəmlər etdi,
Ruhim sıxılıb gileyli getdi.
Dərdim birisi soruşdu, bildi,
Çox şad oluban doyunca güldi.
Tuti qəminə dolaş sevindi,
Əlmas sınıbdı, daş sevindi.
Hər söylədiyi təmam əziyyət,
Təkrar bənə edir zərafət.
Qanmazla qanan zərafət olmaz,
Səng ilə səbudə söhbət olmaz.

Pərvanə yananda ağlayar şəm,
Qəmgin könülə gülərmi adəm?
Kağızdı qələm götür yaz üstə,
Beş-altı beytdi qanmaz üstə.
İnsanda gərək qanan baş olsun,
Hər elmə səvar nəqqaş olsun.
Naəhl oxuyan hayıf qazetdən,
Qanmaz qananı düşürdər atdən.
Bir dürri-yetimdir qanan kəs,
Qanmaz həmişə söyləyir nəs.
Hər kəs qana onda ömr olmaz,
Qanmaz fitini verər, qocalmaz.
Qanmaz ilə ləngimək çətindir,
Başdan ayağa dügin-dügindir.
Dəf'i yola sal, mürəxxəs olsun,
On turpu yeyir deyir səs olsun.
Yüz annamazı dəyişmərəm bən,
Bir tə'lim alan urus itiylən.
Qanmazın əlində dil yaradı,
Ağ göstərisən deyir qəradı.
Hər nə danışır deyir lələm bən,
Bu işlərə çox məəttələm bən.
Nə xan tanıyır, nə bəg, nə nökər,
Qıyğacı baxır əlində neştər.
Bir başda əgər ola səfahət,
İzhar eləmək onu nə hacət.
Hər annamazın sözün cəm etmə,
Bu qəmlərə bax, dəxi qəm etmə.
Gün getdi, könül, həva olub çən,
Nə dust baxır bənə, nə düşmən.

Şad günlərim indi yol gedirlər,
Bu haldə dərdimə gülürlər.
Həq bir kəsi rusiyəh edərmi?
Sadiq olan iltica edərmi?
Karlıq, korluq göründü bəndə,
Təqsiri nədür düşüb kəməndə?
Bu qədri fələkdə naz olurmu?!
Bir başə iki qapaz olurmu?
Ya Rəbbi, qutar məni bu bəstən,
Dəydi cigərimə ox, ox üstən.
Dil yarələnib, gözüm tökür yaş,
Saldı başıma fələk iki daş.
Ruhim qəfəsində dutmur aram,
Bir dildə sönüb iki-iki şam.
İki qulağım, iki gözüm yox,
Bu mərhəmətə bənim sözüm yox.
Dərd əhli ola bənimlə həmdəm,
Bu iki qəmə dözərmi Rüstəm?
Harda yazılıb belə rəvayət,
Bir evdə ola iki müsibət.
Lağər dəvədə göründü buynuz,
Bir əldə olurmu iki qarpuz?!
Ruhə bu qədər cəfa olurmu?
Bir dildə iki əza olurmu?
Hər ixtiyarım əlimdən aldı,
Yıxdı birə iki balta çaldı.
Nə hökmidi bunca, o buyurdu?
Bir urmuş idi, birin də urdu.
Soydu bəni getdi şahsevən tək,
Əgnimdə qalıbdı bircə köynək.

Aram degil gözümdə yaşim,
Varım talan oldu, yox məaşim.
Öz dərdim özümə oldu əzbər,
Yan narə, könül, olunca məşhər.
Zülmin fələgin görüb inandım,
Bən öz payımi buradə yandım.
Dağlu cigərim əzabın istər,
Öz dəftərinin hesabın istər.
Dünya nə törətdi bən də dözdüm,
Ağlatdı gözümi, çatdı müzdüm.
Axirdə vəfası sancım oldu,
Çox sancı bənim qazancım oldu.
Nə ömr idi bu, nədir bu sağlıq?
Bən istəmirəm belə qonaqlıq.
Dünya hamıya fəna göründü,
Hər surəti bivəfa göründü.
Adəm babamız gəlib nə etdi,
Manduxdi dayandı, baxdı, getdi.
Dil xahiş edir ki, burda qallam,
Dərsim oxuyub, gedib çin allam.
Könlüm, sənə bir nəsihətim var,
Ömrüm qutarıb, vəsiyyətim var.
Hər nə oxusan, qəra görərsən,
Çin-Maçin alıb xəta görərsən.
Baxdıqca qərayə qəmgin oldum,
Zülmatə düşüb didərgin oldum.
Təqdiri-qəza bulan çəkibdir,
Nazik yürəgə nişan çəkibdir.
Dağlarda görünsə lalə, getmə,
Dil dağı görüb zəvalə getmə.

Cismim əriyib çıxıbdı səfdən,
Sinəmdə qalıbdı dad əlifdən.
Dərsim oxudum, verildi mətləb,
Bu zülmləri qəza qoyub dəb.
Nazik yürəgimdə zəxm çoxdur,
Bir zərrə fələkdə rəhm yoxdur.
Hər xahişimi əlimdən aldı,
Zülm ilə bəni bu halə saldı.
Dünya işığına oldum həsrət,
Vəl-leyldə qaldım oldu zülmət.
Göstərdi bənə qəza bəlani,
Verdi əlimə fələk əsani.
Qəm qəddimi əgdi, pir oldum,
Axir günümü fəqir oldum.
Dünyanın evində görmədim kam,
Yəman yerdə gün oldu axşam.
Mirzə, çəmənə turac gəlməz,
Yüz dad edəsən, itən düzəlməz.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Pərvanə kibi yandı könül narə desünlər, [1]
Bülbül qəmini güldən ötür xarə desünlər.

Göz yaşı töküb sübhə kimi eylərəm əfğan,
Dil yarələnib, yarələrim yarə desünlər.

Çeşmi-siyəhim yarələri yarə görünməz.
Müjgan oxunun yarəsinə çarə desünlər.

Gəl etmə cəfa, eylə vəfa, ey qədi rə'na,
İnsaf degil dərdimi əğyarə desünlər.

Dil yarə, günüm qarə, qəmü dərdə nə çarə,
Dərd əhli bilər, dərdi xəbərdarə desünlər.

Məcnunluğu ögrəndi, gözüm Leylidə qaldı,
Mənsur kibi çəkdi bəni darə desünlər.

Həsrətdi gözüm sübhü görə sübh açılmur,
Şəb zəhmətini ah ilə biçarə desünlər.

Təqdiri-qəza sağ əlimə verdi əsanı,
Neylim bəni-biçarə, güni qarə desünlər.

Söndü gözümün şəm'i, günüm qarə geyindi,
Mirzə, cigərin aləmə sədparə desünlər.

---

[1] Bu qəzəl Mirzənin "Nalə" kitabında dərc olunan yeganə qəzəlidir. Qalan qəzəllər sonradan tapılmışdır.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Yoxdu bir şirinsüxən lə'li-şəkərbarın kimi,
Handa gördü tuti bir ayinə rüxsarın kimi.

Gər təkəllüm eylər isən saçulur şəhdi-zülal,
Gəlməyibdür bu cəhanə çeşm, xunxarın kimi.

Sehr edəllər aləmə hər dəmdə min əfsun ilə,
Hiç marı görmədim ol zülfi- şahmarın kimi.

Hüsnüni gördükdə soldi göydə nurli aftab,
Hiç nari görmədim qoynundakı narın kimi.

Mirzəyəm, çox seyr qıldım bu cəhani sərbəsər,
Hiç kafər görmədim qapunda əğyarın kimi.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Bir xəbər ver, ey səba, sərvi-rəvanım handadur?
Canımın arami yox, arami-canım handadur?

Neylədün məndən, fələk, xurşidi-aləmtabımı,
Ol rüxi-fərxündə mahi-mehribanım handadur?

Ayırub saldın məni dildardən sən dərbədər,
Könlümün əgləncəsi çeşmi-xumarım handadur?

Əsdirib badi-səba ol canibi-dildardən,
Tez yetir buyin mənə, mişki-tatarım handadur?

Qalmışam firqət əlində çeşmi giryan dəmbədəm,
Dəf'ətən çatdur mənə ol gül'üzarım handadur?

Ruzü şəb həsrət çəkər çeşmim anın didarinə,
Nagahan görsəm nolur, feyzi-şüarım handadur?

Həsrətinlə çıxdı canı Mirzənin, ey qönçələb,
Ya Əhəd, lütf et, ana göstər məzarım handadur?

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
• — — — / • — — — / • — — — / • — — —

Bu gün ol şahi-xubanım gözümdən çün nihan olmuş,
Çıxıbdır ərşə əfğanım, əcəb halim yaman olmuş.

Əcəb sərgəşteyi-zarəm, zəlili-xarü bimarəm,
Bilin bihuşü biarəm, solub rəngim xəzan olmuş.

Sanasan misli-pərvanə yanarəm nari-hicranə,
Fərağın qıldı divanə, görün qəddim kəman olmuş.

Xudaya, cinsi-əğyarə qəzəblə eylə nəzzarə,
Yaxılsın dəmbədəm narə, bu dəm məkri əyan olmuş.

Gözündür, Mirzə, zindanın, tökər yüzə cigər qanın,
Aşıbdur həddən üsyanın, bu dəm sövdan ziyan olmuş.

****

**Müctəs-2:**
**MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**
**• — • — / • • — — / • — • — / • • —**

Gəl, ey qoyan gözümi hər dəm intizar, ölürəm,
Tökür sirişkini bu dideyi-xunbar, ölürəm.

Yadunda varmı dünən qıyğacı baxıb keçdün,
Yarası tiri-nigahun sinəmdə var, ölürəm.

Qəribə halətə saldun ötüb-keçəndə məni,
Qərar qalmadı sinəmdə, biqərar ölürəm.

Bu hüsn səndə ikən cövrü cəfadən əl çək,
Etmə hicrinlə məni dərdə giriftar, ölürəm.

Axtararsan, sənəma, gül yüzün solanda məni,
Yar hicrin çəkübən mən dəxi naçar ölürəm.

Cahanda görmədi Mirzə vəfalı bir həmdəm,
Bu dərdü qüssədən, ey çərxi-sitəmkar, ölürəm.

****

**Müzare-1:**
**Məf′Ulü / fA′ilAtü / məfA′İlü / fA′ilün**
**— — • / — • — • / • — — • / — • —**

Eşqin olubdu aşiqə bir can yaraşığı,
Əlbəttə, eşqdir gözəl insan yaraşığı.

Yusif fəraqətində könüllər şikəst olub,
Misrin olubdu ol məhi-Kən′an yaraşığı.

Leyla bu yanda qüssəvü qəm dəftərin açıb,
Məcnun o yanda kuhi-biyaban yaraşığı.

Fərhad qanına boyanıb Bisütun hənuz,
Şirinşəkərdi Xosrovi-xuban yaraşığı.

Ağlar qəmində sübhü məsa dideyi-Üqab,
Çün ağlamaqdı aşiqi-nalan yaraşığı.

Sübhün zəmanı əgləşübən qiblə səmtinə,
Aldi Xudadən ol Şəhi-mərdan yaraşığı.

Gördi fələk sitəmlərini Mirzə, ağladı,
Neylər cəhanda gözləri giryan, yaraşığı?

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / • — — —**

Bu rövşəndür yüzi dildarımın bir mahi-ənvərdür,
Mənəm bir vird edən tuti, ləbi filcümlə şəkkərdür.

Saçı sünbül, gözi şəhla, dəhani lə'li-mərcandur,
Qədi rə'na, yerişi müntəzəm, əndamı zivərdür.

Cəhani şuri-eşq içrə çün ol ahunəzər salmış,
Onun zülfi-xəyalinə düşən könlüm süxənvərdür.

Mühəndislər qəzadən bu könüldə qəm bina qoydi,
Bəni-Adəm vücudim tə'miratından mükəddərdür.

Məşami-canimə badi-səbalər aşina olmuş,
Dolub zülfün gülabilə quru cismim, müənbərdür.

Fələk eyvaninə, Mirzə, toxunsa sərsəri ahim,
Mələklər seyr edəllər kim, bu eyvan xeyli çənbərdür.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / • — — —**

Nigara, zülfüvə tapşur üzündən bir kənar olsun,
Tökülsün gərdənə çin-çin yerində bərqərar olsun.

Götür zülfün üzündən ta görünsün ğəbğəbi-xalin,
Görənlər söyləsin, – əhsən, – rəqibim şərmsar olsun.

Əgər zülfün duta ruyin, pərişanhal olar halim,
Rəva görmə sınıq könlüm dağılsın tar-mar olsun.

Səni məndən cüda qılmaqdı virdi naşı əğyarın,
Dolansın qoy o bədxahə, qəsəm həştü çəhar olsun.

Fələk cövrilə sən Yusifliqadən mən cüda düşdüm,
İnanma Yə'qubun qəlbində mən tək intizar olsun.

Məni dəfn eylə Məhmudun yanında, ölsəm, ey Naseh,
Fəqət bu Mirzənin də mədfəni qoy Laləzar olsun.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Dərdi verdi, nə üçün vermədi bəs dərmanın,
Qaldım həsrət yüzünə sübhü məsa cananın.

Olmuşam ruzi-əzəl gözlərinin bimarı,
Çeşmimi kur elədi məsləhəti Loğmanın.

Gül yüzün, al yavağun, sərv boyun ər-ərdir,
Səbrini qarət edir, huşun alır insanın.

Zülmə adət edibən eyləmisən sultanlıq,
Axiri oldu fəna zalım olan sultanın.

Cismimin taqəti yoxdur ki, “Nəva” həngi çəkib,
Nalə ilə qulağın dəng eləyim mehmanın.

Eyham ilə danışıb, Mirzə, süxənsənc olma,
Deyib əfsanələri tul eləmə dastanın.

****

**Həzəc-1:**
**MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün**
**• — — — / • — — — / • — — — / •— — —**

Olurmu böylə Məcnun zülfi-Leyladən təmənnasız
Ki, meydani-məhəbbətdə nə mümkündür təmaşasız.

Mənim dustaq olan könlüm, oyan bu xabi-qəflətdən,
Səfa bəzmin dutub bir dəm “həsar” eylə nəğamətdən.

Sənəmlər rəqsə gəlməzlər pərilər nə edər xəndə,
Qəmindən qəmli bülbüllər fəğan eylər bu gülşəndə.

Gülündən ayrılan bülbül, pərişansan bu sövdadə,
Dili suzan olan bülbül bezən cəh-cəh bu dünyadə.

Ələmdən döndü göz yaşim əyağə ta rəvan oldu,
Ələm tabü təvanim aldi Mirzə natəvan oldu.

****

**Xəfif-1:**
**Fə’ilAtün / məfA’ilün / fə’ilün**
**• • — — / • — • — / • • —**

Tabi-hüsn ilə bulmusan şöhrət,
Ey pəriçöhrəvü qəmərtəl‘ət.
Ey şəbistanımın çirağı olan,
İşrəti-bəzmimin füruği olan.
Ey qəmərçöhrəvü məhi-pürfən,
Ta deməzsən götürməm əl səndən.
Güldü gül tək o məhi-zöhrəcəbin,
Sanki güldi təmam ruyi-zəmin.

## GƏRAYLI

Gülüm, sənsiz gözüm görməz,
Uzaq düşdüm, əlim yetməz,
Olan arif, bilər qədrin,
Ki, nadan qədrini bilməz.

Gözəllər içrə sən məğrur,
Qapında şəmsdür məşhur,
Dəhanın tünd şəkkərdir
Tükənməz olsa gər məşrur.

Alıban dəstüvə şanə,
Dara zülfün, töküb yanə,
Fərağınnan qamu aləm
Düşübdür sanki zindanə.

Belə ruhi-rəvan olmaz,
Yanağın həşrədək solmaz,
Gəzər Mirzə fərağında
Sənin tək nazlı yar bulmaz.

## AĞAKƏRİM SALİK (1849-1910)

Ağakərim Zeynal oğlu 1849-cu ildə Bakıda doğulmuşdur. O həm şair, həm də məşhur xanəndə və musiqişünas imiş. Musiqi təhsilini Mirzə Səttar Ərdəbilidən almış, özü də bir çoxlarına ustad olmuşdur. Arxivlərdə və ədəbiyyat həvəskarlarında xeyli şeiri vardır. 1910-cu ildə vəfat etmişdir.[1]

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Qaşın belimi bükdü, kəman eylədi, getdi,
Eşqin məni rüsvayi-cahan eylədi, getdi.

Bir busə təmənna elədim lə'l ləbindən,
Lütf eyləmədi, bağrımı qan eylədi, getdi.

Bilmişdi ki, bir dəm üzünü görməsəm, ölləm.
Rüxsarını qəhr ilə nihan eylədi, getdi.

Bir dəm dedim ol yar mənimlə ola həmdəm,
Bilməm bu sözümdə nə güman eylədi, getdi.

---

[1] Poetik məclislər: XIX əsr Azərbaycan ədəbi məclisləri nümayəndələrinin yaradıcılığından seçmələr / topl. və tərt. ed. N. Qarayev; red. H. Məmmədzadə. Bakı: Yazıçı, 1987. S. 373-374.

Salik rəhi-eşqində vəfa sağərin içdi,
Eşqində vidai-dilü can eylədi, getdi.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / •— — —**

Olur əşkim rəvan daim bu çeşmi-dərdnakimdən,
Vücudum qərqdir seylabə, qorxum yox həlakimdən.

Mənə hər dərd versə qaşların, lə'lin dəva eylər,
Əcəb həngamədir, gör, dərd kimdəndir, dəva kimdən?

Əgər avazxanlıq rastxanlıqdırsa, ey mütrib,
Əraqü Kabilin mədhuş əlu dəstgahi-rakimdən.

Tənuri-dildə gərm olsa vücudun atəşi cana,
Cahan əhlini yandırram bu şe'ri-suznakimdən.

Açıb qəm süfrəsin hatəmlik etdin dəhrdə, Salik,
Odur hər kəs yesə əl çəkməyir bir qürsə xakimdən.

****

**Müzare-1:**
**Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**
**— — • / — • — • / • — — • / — • —**

Hər dəm ki, xatirə o ləbi-lə'li-tər gəlir,
Göz yaşı qan olur, üzə xuni-ciyər gəlir.

Dəymə, səba, o mahvəşin zülfi-mişkinə,
Qorxum budur ki, ahuyi-Çinə xətər gəlir.

Gah qaşların qılınca, gəhi kirpiyin oxa
Təşbih edincə xatirə bilməm nələr gəlir.

Vermiş o nazənin mənə dün və'dəyi-vüsal,
Can çıxmamış güman ki, yenə bir xəbər gəlir.

Can nəqdini nisarə mühəyya qıl, ey könül,
Derlər əyadətə o büti-simbər gəlir.

Zülfi-hədisini, şəbi-hicran əzabını
Qılsam nə qədr tul, yenə müxtəsər gəlir.

Salik, yetişdi möhnət ilə ömr axıra,
Bir dəm təqafül etmə ki, vəxti-səfər gəlir.

****

**Müzare-1:**
**Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**
**— — • / — • — • / • — — • / — • —**

Dilbər cəfası aşiqinə çun müdamdır,
Qoymuş kənara aşiqin, əğyarə ramdır.

Saldım xəyalıma o məhin sərv qamətin,
Gördüm qiyamətimdi, qiyamət qiyamdır.

Ey zülf, əsir edib məni səhrayə salmısan,
Ol tirə mulərin məgər orduyi-Şamdır.

Almam piyalə mən dəxi kim dəsti-saqidən,
Çun gərdəni bəyaz o məhin çeşmi camdır.

Vaiz deyirdi məscid ara badəni həram,
Qanmibdi "əlmənafiü linnas"i xamdır.

Bəzmi-vüsaldə o məhin ləblərinə kim
Çox səhvlər edib demişəm lə'li-famdır.

Salik! Əgərçi vəsfini bu xubruların
Ta həşr olunca səbt edəsən natəmamdır.

## MƏŞƏDİ MƏHƏMMƏD BÜLBÜL (1858 – 1918)

Məşədi Məhəmməd Bülbül İsmayıl oğlu 1858-ci ildə Şuşada anadan olmuşdur. O, mədəniyyətimizə böyük xidmətləri olmuş Qaryağdılar nəslinin nümayəndəsidir[1]. Təhsilini Şuşada Molla İbrahimin məktəbində alaraq burada ərəb, fars dillərini öyrənmiş, Quranın təcvidlə oxunması və hüsnxət təlimi almışdır. Məktəbdə oxuduğu vaxtlarda Şərq ədəbiyyatını dərindən mənimsəmiş, el ədəbiyyatı və aşıq qoşmalarına maraq göstərmişdir.

Məşədi Məhəmməd gözəl səsə və təbə malik olduğuna görə bəzi məclislərdə xanəndə kimi iştirak etmişdir, lakin müəyyən səbəblərdən o, xanəndəlik sənətini buraxır və ədəbi məclislərin fəal aktiv iştirakçısına çevrilərək daha çox ədəbi yaradıcılıqla məşğul olmağa başlayır. Belə ki, Məşədi Məhəmməd Bülbülü yaxından tanıyan dövrün tədqiqatçısı Salman Mümtaz Bülbülün xanəndəlik sənətini tərk etməsi haqqında belə yazır: "Mən şəxsən Bülbül ilə görüşmüşəm və gözəl səsindən, ləhnindən zövq almışam. O heç də mövhumatçı deyildi. Niyə oxumağı tərk etdin? – deyə verdiyim suala – nadan adamların təhəkkümünə mütəhəmmil ola bilmədim. – deyə cavab verdi". Məşədi Məhəmmədin "Bülbül" təxəllüsünü seçməsi haqqında mənbələrdə heç bir məlumat verilmir. O da məlumdur ki, təkcə "XIX əsrin II yarısında bir neçə şair "Bülbül" təxəllüsü ilə şeir yazmışdır.

---

[1] Kazımlı G., İbrahimov T. Xanəndə Məşədi Qafar Qaryağdı. / Red. A. Nəcəfzadə, Bakı:"Azərbaycan Nəşriyyatı" MMC, 2023, - 160 s.

Özü xanəndəlikdən əl çəksə də qardaşları Xalq artisti Cabbar Qaryağdıoğlu və Məşədi Qafar Qaryağdının xanəndə kimi yetişməsində böyük xidmət göstərmişdir. Həm də Məşədi Məhəmməd Bülbül qardaşı Cabbarla quda da olmuşdur. Məhəmmədin oğlu İsmayıl Cabbarın qızı Nigarla evlənmişdir.

Məşədi Məhəmməd irsini tədqiq edən araşdırmaçı Firuzə Həsənova bu sahədə apardığı ciddi araşdırmalardan sonra belə bir nəticəyə gəlmişdir ki, XIX əsrin ikinci yarısında "Bülbül" təxəllüsü ilə beş şair şeir yazmışdır. Məşədi Məhəmməd Bülbül irsinin araşdırmaçılarından Nəsrəddin Qarayev onu "Məclisi-Fəramuşan" ədəbi məclisinin üzvü kimi qeyd edir və bildirir ki, onun şeirlərinin dili rəvan, sadə və obrazlıdır. Bundan başqa Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab" əsərində də Bülbül haqqında məlumatlara rast gəlinir. Burada Nəvvab Bülbül haqda qısa məlumat verir və onun yeddi şeirini təzkirəyə daxil etdiyini yazır. Bu təzkirə yazılan vaxt Məşədi Məhəmmədin 28 yaşı var idi.

Şairin ədəbi irsinin cüzi bir hissəsi əlimizə gəlib çatmışdır. Əldə olunan əlyazmada Bülbül ədəbi irsinin Azərbaycan və fars dillərində yazdığı şeirlərdən ibarət olduğunu görürük. Məşədi Məhəmməd yaradıcılığı üçün janr rəngarəngliyi xarakterikdir. Klassik ədəbiyyatın şah şeiri qəzəl sayıldığına görə, Bülbülün daha çox qəzəl janrına üstünlük verdiyini görürük. Bu janra meyl etməsi həm də Bülbülün xanəndəlik sənəti ilə məşğul olması ilə bağlı əlaqədardır, lakin buna baxmayaraq, o, qəsidə, mənzum məktub, rübai, növhə janrlarında da qələmini ustalıqla sınamışdır. Onun şeirlərində Füzuli ənənələrindən təsirləndiyi hiss edilir.

XIX əsr Azərbaycan ədəbiyyatında yazıb yaratmış şair və sənətkarların yaradıcılığında dini motivlərin də xüsusi yeri vardı ki, Bülbül də bu motivlərdən istifadə etmişdir.

Professor Raqub Kərimov Məşədi Məhəmməd Bülbülün "Əsərləri"ni[1] kitab halında 2008-ci ildə nəşr etdirmişdir.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Niyə ya Rəb, belə mən aləm ara xar oldum,
Aşiqi-məstü qəmü dərdə giriftar oldum.

Qüsseyi-möhnətü qəmdür mənə daim ruzi,
Naleyi-zar ilə öz canıma bizar oldum.

Badeyi-eşq ilə sərməstü-pərişanəhval,
Səhl bildim ki gedüb talibi-didar oldum.

Mehri-canan ilə guya olunub təxmirim.
Məsti-eşqəm ki, ədəmdən o güni var oldum.

Eşqilən şəhreyi-afaq olalı Məcnuntək,
Möhnəti-qüssəyi-hicranə səzavar oldum.

---

[1] Məşədi Məhəmməd Bülbül. Əsərləri / AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu; ön söz, tərt. ed. və tərc. ed. R.Kərimov. Bakı: Şuşa, 2008. – 360 s.

Sün'i-xəllaqi görüb arizi-cananimdə,
Xabi-qəflətdən açub göz, necə bidar oldum.

Mey içən kimsənün əqli dağulur başından,
Bu nə meydür ki, içib aqilü huşyar oldum.

Dilü can qeydini bundan sora, Bülbül, çəkmə,
Aldı dildar dilü cani, səbükbar oldum.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / • — — —**

Gözüm nuri, gözümdən ayrılub bir dəm kənar olma,
Vəfadar aşiqün gözdən salub, əğyarə yar olma.

Alubsan ixtiyarim, hər nə qılsan ixtiyarun var,
Qüruri-hüsn olub, üftadələrlə kəcmədar olma.

Deyirlər, ləkkədar almas olur xərmöhrədən[11] kəmtər,
Cəvahirsən, gözün qurbanı, gözlə, ləkkədar olma.

Təmaşa istəsən, bax hüsnüvə, getmə təmaşayə,
Ki, səndən yaxşı yoxdur bir təmaşa, biqərar olma.

Vəfa kim gördi, Bülbül, bu cəhanda mahrulərdən,
Gözəllərdən vəfavü mehrə sən ümmidvar olma.

---

[1] Göy muncuq

**Müctəs-2:**
**MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**
**• — • — / • • — — / • — • — / • • —**

O sərvqaməti gördüm bu gün, xüram eylər,
Dedüm cahanda qiyamət məgər qiyam eylər.

Dutubdi gözləri məstana tiği-əbrusin,
Belə xəyal eylədüm, xəlqi qətli-am eylər.

Nigahi-naz ilə aldı qərarü taqətü huş,
Dübarə baxsa, alur canımi, təmam eylər.

Qüruri-hüsndən etməz nəzzarə üşşaqə,
Ki, xaki-payin səcdə edüb, səlam eylər.

Edər vüsal təmənnası Bülbüli-məhzun,
Əbəs-əbəs oturub arzuyi-xam eylər.

****

**Müctəs-2:**
**MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**
**• — • — / • • — — / • — • — / • • —**

Dedüm görəndə yüzin, dərdimi nigarə deyüm,
Edə bu dərdi-dili-zarə bəlkə çarə, deyüm.

Bu könlimi qəmi-pünhani döndərüb qanə,
Gərək yetişə əlim yarə, aşikara deyüm.

Yüzini görməklə əğyaridən degil mümkün,
Dutam gərək ətəgindən, çəküb kənarə deyüm.

Gözümdən əşki-rəvan olmağı fəraqində,
Fəğanü ah ilə ol gözləri xümarə deyüm.

Əgərçi yoxdi gözəllərdə rəhm asari,
Genə əlac edə bəlkə bu ahü zarə, deyüm.

Ala bu canimi bir yol, xilas edə qəmdən,
Günimi etməyə qara, o zülfi-qarə deyüm.

Qərarü taqəti-Bülbül vüsali-dilbərdür,
Neçün nəzər eyləməz bəs bu biqərara, deyüm.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Yox bu şəhr içrə sənə bir kəs, giriftar olmayan,
Nəqdi-can ilən sənə kimdür xiridar olmayan.

Hansı aşiqdür sənün eşqündə etməz ahü zar,
Hansı heyrandur sənün hicründə bimar olmayan.

Payibəndi-tari-zülfündür hamı məhparələr,
Kimdi görcək məhcamalun nəqşi-divar olmayan.

Səngdilsən bu lətafət, bu vəcahət hüsn ilən,
Yoxdi səntək, hali-aşiqdən xəbərdar olmayan.

Salmusan gözdən sirişki-didətək, öz aşiqün,
Ey olan əğyarə yar, öz yarinə yar olmayan.

İllərin hicrində yanmaqdansa ölmək yaxşıdur,
Bu qəmi-bimüntəhadan kimdi bizar olmayan.

Bülbüli künci-qəfəsdən, bağiban, eylə xilas,
Qalibi-biruhdur, gül fəsli bidar olmayan.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Qoyma düşsün gülcəmalə gün təravətdən düşər,
İsti pəjmürdə edər, hüsnün məlahətdən düşər.

Qönçəyi-lə'Ii-ləbün qoyma əmə əğyari-dun,
Getsə ətri qönçənin, gülşən ləyaqətdən düşər.

İncimə, gər şərhi-hali-zarim irsal eyləsəm,
Aşiqə mə'şuq ram olmaq kitabətdən düşər.

Gahü gahi halpürsan olsan, ey arami-can.
Aşiqə cəbr eyləməkdən təb'ün adətdən düşər.

Gər gədayi-küyüvə, lütf eyləsən, ey nuşləb,
Belə bilmə, mahrüxsarun şərafətdən düşər.

Olma çox birəhm, əsər bu gülşənə badi xəzan,
Bu güli-hüsnün solar, həm istitaətdən düşər.

Zülməti-şəbtək dutar xət, dövrü rüxsarın sənün,
Vəsfi-rüxsarunda Bülbül bu fəsahətdən düşər.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Neyləyim gər dərdi-eşqün canda tüğyan eyləsə,
Mehri-rüxsarun əgər bu könlimi qan eyləsə.

Gər gözüm yaşi gələ hicründə cuşə, neyləyim,
Qorxaram qərq olsun aləm, belə tufan eyləsə.

Yoxdi çarə, bu kəmanəbrulərün müjgan ilə,
Bu dili-sədparəni gər tiri-baran eyləsə.

Həsrəti-rüxsarüvəm, ey məh, kim olmaz rüfətə,
Beytül-əhzanim əgər bir dəm çirağan eyləsə.

Səndən ayrı meyli-əzmi-seyri-gülzar etmərəm,
Arizün bir dəm nolur, bəzmim gülüstan eyləsə.

Başi üstə, xəsteyi-hicranuvun qoysan qədəm,
Çox mühəqqər pişkəşdür, canı qurban eyləsə.

Etməyün eyb, etsə Bülbül hicri-güldə ahü zar,
Vəchi var, gər ruzü şəb fəryadü əfğan eyləsə.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Atəşi-hicründə halimdən xəbərdar olmadun,
Qəm günündə könlimə bir ləhzə qəmxar olmadun.

Qanə döndərdün fəraqündə dili-sədparəmi,
Bir nəfəs sən məhrəmi-sirri-zar olmadun.

Aşiqün gözdən salub, tərk eylədün mehrü vəfa,
Əl çəküb cövrü cəfadan, bir vəfadar olmadun.

Munisi-əğyar olub, ey gül, oturdun xar ilən,
Bu bəlakəş aşiqünlə yari gülzar olmadun.

Sinəmi tiri-bəlayə nazilən etdün hədəf,
Bir dəm, ey siminbədən, öz yaruva yar olmadun.

Aldun aramü qərarü taqətim, ey səngdil,
Çarəyi-dərdimdə, ey zalim, səbəbkar olmadun.

Bülbül, etmə qeyridən sən şikvə, bəxtün şumdur,
Hansı dildarə könül verdün, giriftar olmadun?

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Aldı aramımı naz ilə, nigarim keçdi,
Əql başımdan uçub, səbrü qərarim keçdi.

Mövsümi-gül yetüşüb, gəldi bəhar əyyami,
Gülşəni-ömr xəzan oldi ki, yarim keçdi.

Eylədi badi-bəhari tək, o məhparə güzar,
Yüz qəmü möhnət ilən leylü nəharim keçdi.

Aşiqindən nəzəri-mərhəmətin etdi diriğ,
Bəs ki tikdim yoluna göz, dili-zarim keçdi.

Gün kimi etdi qürub, etdi günim tar mənim,
Günimi qarə qılub, laləüzarım keçdi.

Qanə döndi ürəgim, hicridə yandı cismim,
Eşqi-cananidə axır belə karim keçdi.

Ey deyən Bülbülə, gəl eyləgilən seyri-bəhar,
Seyri-gül istəmərəm, ruyi-bəharim keçdi.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / •— — —**

Xətayə düşdim axırda bir ahuyi-xəta üstə,
Bəlavü möhnətə tuş olmuşam bir bivəfa üstə.

Qüruri-hüsnidən bu aşiqi-zarə nəzər qılmaz,
Həmişə artur min qəm, qəmi-bimüntəha üstə.

Qəmi-pünhan ilən könlim fəraqində dönüb qanə,
Xəyali-vəsl ilən artar bəla hər dəm bəla üstə.

Başım sevdayi-eşq ilən dolub, könlim məlal ilən,
Ki, bir Məcnuni-əsrəm indi yari-məhliqa üstə.

Nə seyri-bağə meylim, nə gülü şümşadə zövqüm var,
Verübdür üz qəmü möhnət, məni-bəxtiqəra üstə.

Dolub cismi-zəifim bəs, nəva ilən quri ney tək,
Müğənni yadə saldı yarimi, gəldim nəva üstə.

Sən etdükcə cəfavü cövr Bülbül nuşi-can eylər.
Çəkə əl damənündən, haşəllah, gər cəfa üstə.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / •— — —**

Dolub, mehrünlə könlim, sənsiz aramü qərarim yox,
Gecə-gündüz qəmi-hicründə yarü qəmgüsarim yox.

Edən yox səndən özgə dərdi-bidərmanimə çarə,
Səri-küyindən özgə, getməgə özgə diyarim yox.

Əlaci-tərki-eşqün etməgə bir çarə napeyda,
Könüldən kəsməgə mehrün, əlimdə ixtiyarim yox.

Gedüb eşqündə əqlü huş, aramü qərar əldən,
Nisari-payüvə bu nəqdi-candan qeyri varim yox.

Güli-rüxsarüvi görməkdən özgə yoxdi bir şövqim,
Ki, sənsiz meyli-seyri-bağ, gülzarü bəharim yox.

Mənə münis qəmi-hicründə yoxdur nalədən qeyri,
Fəraqündə dili-suzandən bir özgə yarim yox.

Yol üstündə durub Bülbül, gözindən xuni-dil cari,
Güli-rüxsarüvi görməkdən ayrı intizarim yox.

****

**Rəməl-6:**
**Fə′ilAtün / fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Ola gər navəki-müjgan ilə sədparə könül,
Tərki-canan eləməz, gər yesə min yarə könül.

Çün dolub mehri-nigar ilə degül talibi-qeyr,
Yox əlaci, genə maildür o rüxsarə könül.

Bu könül zəxminə vəsl ilə dəva eyləməsə,
Çarə hardan tapacaq zəxminə biçarə könül.

Xuni-dil, sübhü məsa əşkilə gözdən cari,
Bəstəri-qəmdə qalub xəsteyi-avarə könül.

Alub ətrafimi qəm, hicridə dönmüş qanə,
Həsrəti-mahcəmalunda güni qara könül.

Yana hicründə genə mehrdən olmaz xali
Eşqi var, yanmağa pərvanə kimi nara könül.

Bülbülü həsrəti-rüxsarün ilən müddətdür,
Vadiyi-eşqdə qoymuş belə avara könül.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / • — — —**

O gündən kim, gözəl nəqşin qəza nəqqaşı çəkmişlər,
Səni ol cümlədən, ey məh, gözəllər başı çəkmişlər.

Vüsali xalı-gəmduminə yetmişmiş nakəs adəmlər,
Tənurı-hicrdə yanmağa məni-külbaşı çəkmişlər.

Gözəllər gözlərin gözlər həmişə çün yaman gözdən,
Anınçün Zülfıqarasa göz üstə qaşı çəkmişlər.

Məni bu ağlamaqdan mən' edəllər xəlq, bilməzlər,
Şərari-sinəni dəf etməyə göz yaşı çəkmişlər.

Xətadır nisbət etmək Yusifə sən tək dilaramı,
Anın vəchin sənə nisbət, əzizim, çaşı çəkmişlər.

Oğurlar qəmzə can nəqdin, qara zülfün edər pünhan,
Qara oğru yatağına qara sirdaşı çəkmişlər.

## CABBAR QARYAĞDIOĞLU (1862 – 1944)

Cabbar İsmayıl oğlu Qaryağdıoğlu 31 mart 1861-ci ildə Şuşada anadan olub. Qalan ailənin soy adı Qaryağdı kimi olsa da Cabbar lap uşaqlıqdan özünə "Qaryağdıoğlu" ləqəbini götürmüşdür. O, Azərbaycan xanəndəlik sənətinin ən görkəmli nümayəndələrindən biri olmaqla yanaşı bəstəkar, musiqi xadimi və Azərbaycan SSR xalq artisti (1935) olmuşdur.

Firidun Şuşinski öz əsərlərində Cabbar Qaryağdıoğlunun həyatını təsvir etmiş və yaradıcılığını araşdırmışdır:

"Cabbar 10 yaşında ikən şəhərdəki məktəbə daxil olur. Onun ilk müəllimi Şuşada "Sağəri" təxəllüsü ilə tanınan şair Mirzəli Zeynalabdinin oğlu olmuşdur.

Mirzəli fars və türk dillərini mükəmməl bilən, hərtərəfli biliyə malik musiqişünas idi. Mirzəli kiçik Cabbarın nadir səsə malik olduğunu eşidib, ona musiqi elmini öyrədir. Cabbar 15 yaşına qədər Mirzəlinin məktəbində oxumuş və öz müəllimindən musiqi elmini və fars dilini öyrənmişdi. Cabbar məktəbdə oxuduğu illərdə şeir yazmağa və hətta yoldaşları ilə beytləşməyə başlayır."[1]

Cabbar Qaryağdıoğlu bütün müğamları ustalıqla oxumuşdur. O, bir çox mahnıların müəllifi, həm də bəstəkarıdır. O, həmçinin böyük qardaşı Məşədi Məhəmməd Bülbülün yolu ilə gedərək qəzəllər də yazmışdır.

---

[1] Firidun Şuşinski. Azərbaycan xalq musiqiçiləri / red. T. Əhmədov. Bakı: Yazıçı, 1985. - 133 s.

Azərbaycanda opera sənətinin meydana gəlməsində də Cabbar Qaryağdıoğlunun rolu böyükdür. Böyük bəstakarımız Üzeyir Hacıbəylinin ""Leyli və Məcnun" operasının ilk tamaşasından öncə – 1897-ci ilin avqustunda Şuşada gənc dramaturq Əbdürrəhim bəy Haqverdiyevin hazırladığı "Məcnun Leylinin qəbri üstündə" adlı musiqili səhnəciyi oynanılıb. Şuşanın məşhur Xandəmirov teatrında səhnələşdirilmiş bu məhəbbət dastanında Məcnunun qiyafəsində səhnəyə çıxan unudulmaz Cabbar Qaryağdıoğlu olub. Kiçik bir xor dəstəsinin tərkibində 12 yaşlı Üzeyir Hacıbəyli də öz şirin avazı ilə yoldaşlarına kömək edirmiş. Xatirələrdən bəlli olur ki, məhz bu hadisə uzun müddət Üzeyirin yadından çıxmayıb. Elə uşaqlıqdan da nə vaxtsa bu səhnəciyə bənzər bir əsər yazmaq arzusunda olub. Əgər opera səhnəsində bizim ilk Məcnunumuz Hüseynqulu Sarabski sayılırsa, bütövlükdə teatr mədəniyyəti tarixində ilk Məcnun Cabbar Qaryağdıoğludur." [1]

"Cabbar Qaryağdıoğlu xalq musiqisinin ən gözəl nümunələri olan təsnif və mahnıların toplanmasına xüsusi həssaslıqla yanaşmışdır. O, 1934-cü ildə altı ay müddətində professor Bülbülün rəhbərlik etdiyi "Azərbaycan musiqisini öyrənən elmi kabinet"ə 220 xalq mahnısı, təsnif və 70-ə qədər xalq musiqi parçası vermişdir. Qaryağdıoğlu həmin mahnı və təsnifləri köhnə dostu tarzən Qurban Pirimovun müşayiətilə oxumuşdur. Cabbar Qaryağdıoğlunun ifa etdiyi 300-ə qədər mahnı və təsnifi professor Bülbül fonovalikə yazmış, bəstəkar Səid Rüstəmov isə nota köçürmüşdür.

---

[1] Flora Xəlilzadə. Opera səhnəmizin Məcnunları. // Azərbaycan.- 2010.- 16 sentyabr.- S.7.

Cabbar Qaryağdı oğlu tərəfindən fonovalikə köçürülmüş 50 xalq mahnısı 1938-ci ildə Azərbaycan musiqisini öyrənən elmi kabinet tərəfindən "Azərbaycan xalq nəğmələri" başlığı altında ayrıca kitab şəklində çap edilmişdir."[1]

"Cabbar Qaryağdıoğlu mahnıların musiqisiylə yanaşı, sözlərini də özü yazırmış.

... Şəhla xanımın (kiçik qızı – Red.) 1997-ci ildə mənə danışdıqlarını sizə çatdırmağı daha dəyərli sayıram: "Cabbar əmi (Şəhla xanım atasına "Cabbar əmi" deyərdi) bizi çox istəyirdi. Amma anama olan məhəbbəti o qədər güclüydü ki, biz kölgədə qalmışdıq. O, həmişə anamı mahnı, şeirlə oyadardı. Bir dəfə Cabbar əmi səfərdən qayıdır, evə girir, görür ki, heç kəs yoxdu. Hamımız bağdaydıq. Anamın yoxluğu ona bərk təsir edir. Elə ordaca bir şeir qoşur:

Sən orda eylə seyr-səfa, bağ arasında,
Mən burda yanım piltə kimi yağ arasında.
Rəngim saralıb, Səlimə xanım, ayrılığından
Necə ki saralıb şamama tağ arasında...

Cabbar əminin çoxlu şeirləri olub. Həmişə şeirlərini yastığının altına qoyardı. Yadıma gəlir ki, Cabbar əmi rəhmətə gedəndə Əbdülbaği Fevzi adlı bir şair onun şeirlərini oxudu. Dedi ki, bu kişi əməlli-başlı şair imiş ki! Bacım Nigarın dediyinə görə, sonralar həmin şeirlər elə o kişidə qalıb..." "Həyat yoldaşı Səlimə xanım 1937-ci ildə 42

---

[1] Firidun Şuşinski. Azərbaycan xalq musiqiçiləri / red. T. Əhmədov. Bakı: Yazıçı, 1985. S. 146.

yaşında dünyasını dəyişmişdi. O vaxtlar C.Qaryağdıoğlu demişdir:

Simovar almışam, silənim yoxdur,
Bir dərdə düşmüşəm, bilənim yoxdur.

Şəhla xanım xatırlayır ki, atası evdən gedəndə Səlimə xanımı narahat edib oyatmamaq üçün aşağıdakı misraları deyirmiş:

Qıyğacı baxmaqla aldın canımı
Uşaqlar, oyadın Səlimə xanımı!"[1]

Cabbar Qaryağdıoğlu 28 aprel 1944-cü ildə Bakıda vəfat və Yasamal qəbristanlığında dəfn edilmişdir.

Yuxarıda qeyd edildiyi kimi, Cabbar Qaryağdıoğlu gənc yaşlarından şeir yazmışdır, çox təəssüf ki, onun şeirləri itirilmişdir. Bu kitaba yalnız onun məlum olan bir neçə şeiri daxil edilmişdir.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Saldı yarım üzünə zülfün, əcəb pürçəmi var,
Bu nə işvə, bu nə qəmzə, necə gör çəm-xəmi var.

---

[1] Milli.az, 29 İyun 2019, https://news.milli.az/culture/766943.html

Gah gülür, gah danışır, qaş göz atır məxluqə,
Dili üşsaqi yığıb dəstəsinə, cami-cəmi var.

Çətri-tavusu kimi çətri vurur hər yanə,
Hər sürahinə baxanda deyəsən bir kəmi var.

Üzü güldür, dodağı püstə, dili badam içi,
Görəsən, bir belə yarı olanın nə qəmi var.

Öldürür, gahi düldürür, yenə bihuş edir,
Bunu Məryəmdi doğan, yoxsa ki, İsa dəmi var.

Salasan ağzına lumu kimi pustanlarını,
Bir doyunca əməsən, ah, nə yaxşı təmi var.

Ey gözəl, rəhm elə Cabbara qoca vaxtında,
Qaşların tağı əyibdir demə qəddi-xəmi var.

****

## Bağçada güllər

Ay, dərya kənarında bir ev tikmişəm,
Ay, hasarın çəkmişəm, üstün örtmüşəm,
Ay, bu gələn gözələ gözüm dikmişəm.

Nəqərat:
Bağçada güllər, oxur bülbüllər,
Belə deyirlər, yenə yaz gəlir.

Ay, uca dağ başında ceyran yol eylər,
Ay, ürəyim başında peykan yol eylər,
Ay, sevən sevgisinə can qurban eylər.

Ay, əlinə al çalıb dindir sazını,
(Yar söhbətində olar, istər sazını, )
Ay, mən çəkərəm hər dəm sənin nazını,
Ay, şəmsi qəmər kimi göstər üzünü.

Yar (Ay), fikri xəyalındır gönlüm ziynəti,
Ay, şirin sözlərindir ağzım ləzzəti,
Ay, sənsən mənim ömrüm-günüm vəhdəti.

****

**Ay ana, bu yarım niyə gəlməz oldu?**

Samovar almışam, silənim yoxdur,
Bir dərdə düşmüşəm, bilənim yoxdur,
Gedənim gedibdir, gələnim yoxdur.

Nəqərat:
Ay ana, bu yarım niyə gəlməz oldu?
Aşdı uca dağları, görünməz oldu…

Faytonla gəlirdim, göz eylədilər,
Əqlimi başımdan tez eylədilər,
Bir söz deməmiş söz eylədilər…

Evlərinə getdim, aldım, gətirdim,
Sazını sinəmdə çaldım, gətirdim,
Eşitdim, yar gəlir, – durdum, gətirdim,

Yarıma demişəm, mənə saz alsın,
Sazı çalım, dərdi-qəmim azalsın.
Məgər mən ölmüşəm, yarım qız alsın?

Mənim yarım xanımların xasıdır,
Əyninə geydiyi toy libasıdır,
Qulağıma gələn yarın səsidir.

Narınca bax, narınca,
Yar gedibdir, gözüm qalıb dalınca,
Ölüm xoşdur, yara həsrət qalınca.

Lənkəran yolları üstü qovaqdır,
Çiçəklər hamısı
Bir gözəl sevmişəm, məndən iraqdır.

***

## HACIBABA HÜSEYNOV (1919– 1993)

Hacıbaba Hüseynəli oğlu Hüseynov (15.03.1919, Bakı, Çəmbərəkənd – 24.10.1993, Bakı) – Azərbaycan xanəndəsi, şair. Azərbaycan Respublikasının xalq artisti (1990). Ruhani ailəsində anadan olmuşdur. Erkən yaşlarında məscidlərdə, yas məclislərində növhə və mərsiyə söyləmişdir. Eyni zamanda klassik poeziyaya ciddi maraq göstərmişdir ki, bu da onun xanəndə kimi yetişməsində mühüm rol oynamışdır. Müharibə illərindən sonra tarzən Əhməd Bakıxanovla tanış olmuş, onun ansamblında ifa etməyə başlamışdır. 1950-ci illərdən müxtəlif ansambllarda çıxış etmişdir. Zülfi Adıgözəlovun davamçısı olmuşdur. 1963-cü ildə Z.Adıgözəlovun vəfatından sonra H.Hüseynov Ə.Bakıxanovun dəvəti ilə A.Zeynallı ad. Musiqi texnikumunda (indiki Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci) muğam dərsi deməyə başlamışdır. Ömrünün sonunadək, 30 il ərzində həmin məktəbdə dərs demiş, bir çox xanəndələrin yetişməsində böyük rol oynamışdır.

H.Hüseynovun repertuarında muğamlar ("Çahargah", "Rast", "Bayatı-Şiraz", "Şahnaz", "Qatar", "Mahur", "Şur"), təsnif və xalq mahnıları başlıca yer tuturdu. Onun yaratdığı təsniflər musiqi irsinə daxil olmuş və muğam ifaçılığında geniş yayılmışdır. Haqqında "Ocaq başı" (1990) sənədli televiziya filmi çəkilmişdir.

H.Hüseynovun çoxlu sayda şeirləri yazmışdır. O, bu şeirləri özü oxumuş və ifa etmişdir. Təəssüf hissi ilə qeyd etməliyəm ki, onun şeirləri vəfatından 30 ildən çox keçsə də hələ də ayrıca kitab halında dərc edilməyib.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Hanı bir yarı-vəfadar ki bizə yar olsun,
Dili-məcrühimizə dil veribən zar olsun.

Vermə nadana könül sirrini agah eləmə,
Demə eşq əhli gərək dəhrdə biar olsun.

Arizumdur vətənimdə yaşayan hər bir kəs
Musiqiyə, qəzələ, şe'rə həvəskar olsun.

Ey cavanlar, sizi tanrı, sizə canım qurban,
Qoymayın siz bu muğamatımızı xar olsun.

Hər kəsin hər nə gəlir ağlına ifa eləyir,
Nəğməni zay eləsək, bizlərə qoy ar olsun.

Qəzəlim sadələşib, azdı Füzuli eşidən,
Amma eşq əhli gərək əsl xiridar olsun.

Vahidin incə qəzəl, sadə gözəl şe'rləri,
Xəlq arasında görüm daim onu var olsun.

Can fədadır sənə, ey Seyyid Əzim Şirvani,
Nə rəvadır ki sənə hər oxuyan yar olsun.

Demə Zülfiylə Seyid getdi bilənlər yoxdur,
İstəyirsənsə eşit, söyləyim aşkar olsun.

Hacı, az söylə deyərlər bizi təbliğ eləyir,
Çarə yox gəlsə Ələsgər, ya da Cabbar olsun.

****

**Rəməl-6:**
**Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Nə batıbsan yenə, ey dil, belə dərdü kədərə?
Gül, danış ömrümüzü qoyma ki getsin hədərə.

Mən səni sinəm arasında nihan saxlamışam,
Odu ki, məqsədimiz indi veribdür səmərə.

Çıx çəmən seyrinə bax arizi-cananımıza,
Bənzər əbrusi hilalə, üzü şəmsü qəmərə.

Lə’li innabı könül, çarədi biçarələrə,
Danışırkən elə bil bal qatıbdur şəkərə.

Görüb eşq əhli onun gəndümü-xalın dedilər
Çaşırıb Adəmi bu qismət edibdür bəşərə.

Naümid olma könül dilbərin insafa gələr
Olar əlbət elə bir gün ki gələrlər xəbərə.

Təb’i şe’rində, Hacı, bəlkə də nöqsanın var,
Yaz apar, göstər Əli Fəhmiyə, Əkrəm Cəfərə.

****

**Həzəc-9:**
**Məf'Ulü / məfA'İlün / məf'Ulü / məfA'İlün**
**— — •/ • — • — /— — •/• — • —**

Ey dil, bu gözəl kimdir? Kim bu lətafətdə?
Ağ üzdə qəra xalı, bəh-bəh nə məlahətdə.

Bu hüsnü lətafətdə görseydi saçun Leyla,
Billahi çəkib qüssə, qalmışdı xəcalətdə.

Qafildi Züleyxa kim, məhbubinə fəxr eylə,
Yusif buna ...[1] bilsin ki, vəcahətdə.

Şirini çağır gəlsin görsün bu tamaşani,
Dünyada gözəl çoxdur, yoxdur bu şərafətdə.

Sən sevgili yarımsan, həm şəhri cəmalımsan,
Canım sənə qurbandır bil əsli həqiqətdə.

Mən bikəsü biyarəm, yox bircə həvadarım,
Əl məndən ətək səndən, ...[2] bu xəyalətdə.

Bir gün oxunar şe'rin bil əhli kəmal içrə,
Hal əhli yəqin çoxdur, Hacı, bu vilayətdə
****

---

[1, 2] Misradan sözü düşmüş (Red.)

**Rəməl-8:**
**Fə’ilAtün / fə’ilAtün / fə’ilün**
**• • — — / • • — — / • • —**

İstədim dəhridə bir cam tutum,
Qoymadı çarx ki aram tutum.

Yar yanımdadı ama qoymaz
Ki visalindan onun kam tutum.

Məndən ahu kimi ülkür nə edim,
Mən bu ahunu necə ram tutum.

Ey cavanlar qocalıq vaxtı gəlir
Nə gülüm dəxi nə bayram tutum.

****

**Həzəc-1:**
**MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün**
**• — — — / • — — — / • — — — / • — — —**

Dəyirsən baxəbər, ey nazənin yarım, əgər məndən,
Nədəndir baş verir hər bir sər muyun xəbər məndən.

Məhəbbət məclisin gəl giş günü eyləyək gülşən,
Güli gül qönçə səndən ah üçün badı səhər məndən.

Təbibim qəm bəstərində gəl dərdimə müdəva qıl,
Dəvayı-nabi-ləb səndən, qəza xunı ciyər məndən.

Baş istərsən bu baş, gəl al bu əmri xeyri sal başdan,
Görüm baş getsə axır əl çəkər bu dərdi-sər məndən.

Gəl al ver eyləyək yainki mənzurun ticarətdi,
Mükərər busə səndən nəqdi-can bir müxtəsər məndən.

Rəşadət xərcə verməkdir xəyalın gəl edək dava,
Vəli səndən ox atmaq, sinəni etmək sipər məndən.

Xəyalim var açaq canan ilə sərraf dükanı
Gümüş tək ağ camal ondan, qızıl tək rəngi zərd məndən.

****

**Rəməl-11:**
**Fə′ilAtü / fA′ilAtün / fə′ilAtü / fA′ilAtün**
**• • — • / — • — — / • • — • / — • — —**

Yoxu var edən o varlıq, yeri laməkandır, ey dil,
Qocalıb gedir xəlayiq, özü növcavandır, ey dil.

Odu hökmüdari-aləm, ona quldu padişalər,
Buna şəkk edənlər olsa, oları inandır, ey dil.

Nə idik, nə yerdə idik, necə gəlmişik cahanə,
Bunu dərk qıl fikirləş, sən özün amandır, ey dil.

Neçə günki ömr edərsən Xudadan əlün götürmə,
Necə müşkül olsa karın ona çox asandır, ey dil.

Ürəyində dərdin olsa o edər əlacın ancaq,
Nə təbib nə türkəçarə, hamı nagümandır, ey dil.

Tapılarmı bir imansız, dana həzrəti-Xudanı,
Əgər olsa lə’nət olsun, o özün danandır, ey dil.

Dur ayağa saqi, mey ver, əlüvün fədası ollam,
Qəmü qüssələr əsiri məni natəvandır, ey dil.

Aduvun fədası ollam, sənin, ey Rəsuli-Əkrəm,
Özü xətmi-ənbiyadur, ləbi dürr saçandır, ey dil.

Mən Əliyyi Mürtəzadən dilədim nə mətləbim var,
O gözəl məzar olan yer necə xoş məkandır, ey dil.

Sifətində hüsni-Yusif, nəfəsində ləhni-Davud,
Əli oğlu Müctəbanın üzü nur saçandır, ey dil.

Şəhi-Kərbəla məzarın mənə qismət etdi tanrı,
O imam Hüseynə billah başım ərmağandır, ey dil.

Hacı yetdin arzu kamə, öp Əbülfəzin məzarın,
Fərəhin, ümidin, arzun həmən asitandır, ey dil.

****

**Rəməl-6:**
**Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Qəzələ, musiqiyə kim ki həvəskar deyil,
Bütün ömrün yatıb aləmdə o bidar deyil.

Nə bilər çəngü dəfü taru neyin naləsini,
Nə də ol ləhni-muğamata xiridar deyil.

Əcəb ol şəxsdi ruhində qida musiqidir,
Nə qəmə, qüssəyə, nə dərdə giriftar deyil.

Gətirər sövti-müğənni dili-uşşaqi dilə,
Bunu dərk etməyən əğyardır ol yar deyil.

Bizim əcdadımızındır bu gözəl musiqimiz,
Bunları bilməyən əlbəttə xəbərdar deyil.

Deyiniz Hacıya siz böylədir adətlərimiz,
Qoymarıq məclisə kim əsl sənətkar deyil.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Əgər olsaydı mənim siz təki bir dadrəsim,
Daşa təsir eləyərdi sözüm ahım nəfəsim.

Kimsə bilməz hələ də eşqdə şeydalığımı,
Qorxuram faş ola bir gün tuta dünyanı səsim.

Sevirəm mən sizi, ey pirü cavanlar, eşidin
Günü gündən sizə artır yenə zövqüm, həvəsim.

Gül açan vaxtı çəməndə salınız yada məni,
Sizə qurban özüməm, ta sizə qurban nə kəsim?

Dili biçarəmə təskinlik edənlər sizsiz,
Gedib ustadlarım, yoxdu nə yarım nə kəsim.

Ey könül, sübh zamanında nəzər sal çəmənə,
Şanəni gör nə çəkir yasəmənə sübhi-nəsim.

Sən də gülzarı-vətəndə Hacı mindən birisən,
Xatürün cəm' elə de, yoxdu nə xarım nə xəsim.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / • — — —**

Tamaşa eylə, ey könlüm, bu aləm gör nə aləmdür,
Bahar əyyamı gəlmişdir, səfası cana məlhəmdür.

Gecə gündüzlə tənləşmiş, bu gündən eydi-novruzdur,
Sular toprağa can vermiş, vüsalı abi-zəmzəmdür.

Açılmış qönçələr bir-bir, çəmənlər laləzar olmuş,
Nəvayi-şurişi-bülbül, mənim şurimlə töv'əmdür.

Şərabi biqəşin camin mənə lütf eylə, ey saqi,
Bütün istəklərim səndən o camın içrə bir cəmdür.

Mənim dil verdiyim dilbər, dilaralar dilarası,
Deyərsən bəs mələkdür bu, deməzsən nəsli-adəmdür.

Olaydı qismətim, ya Rəbb, tutaydım damənin yarın,
Deyəydim dilbərə səndə  bu nə nazü nə çəmxəmdür.

Cəfayi-hicri-yar ilə mənim də qəmlərim vardur,
Xəlayiq bilməyir ancaq deyir Hacı nə biqəmdür.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Müjdə, ey dil, yenə də gəldi bahar əyyamı,
Gətirir badi-səba bülbül üçün peyğami.

Açılıb qönçəvü gül, ətri dutubdur çəməni,
Vəcdə gəlmiş bu könül, yoxdur daha arami.

Bir tərəf pirü cavandur, bu tərəfdə məni-zar,
Nə gözəl bəzmidi bu, saqi, dolandır cami.

Qarışıbdır tarın ahənginə ləhni neyü nay,
Nəşeyi musiqidən məsti düşübdü hami.

Xəbər aldım neçə kəsdən ki, nə həngamədi bu?
Dedilər bir nəzər et, gördüm o gül əndami.

Bir əlində meyi gülrəng, bir əlində gülü tər,
Matı mahbut eləyər görsə Ömər Xəyyami.

Qamətün, xali xatun zikrilərin etdikcə,
Günü-gündən Hacının xaşğılaşır ilhami.

***

**Rəməl-2:**
**FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Hər kimin ki eşqidə bir dilbəri rənası yox,
Ömr edər aləmdə amma ömrünün mənası yox.

Hansı gül üz qönçələr dilbər sevməz özgəni,
Bir xəzan olmuş çiçəkdir bülbülü şeydası yox.

Ey kaman əbru gözəl mən göz çeşminin heyranıyam,
Heç gözəllər mülkünün sən tək gözü şəhlası yox.

Bir məsəl var söylənib hər bir gözəldə eyb olur,
Sən üzü xurşudin zərrəcə əmması yox.

Qamətin xalın xətin getməz xəyalımdan mənim,
Hər iki dünyada sənsiz Hacının dünyası yox.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Oldu könlüm yenə də qamətinin heyranı,
Can fədadır sənə, ey gözlərinin qurbanı.

Əhsən, əhsən, yenə əhsən, o gözəl Xaliqə kim,
Necə gönçə cavanı yaradıb nuranı.

Biri göz qönçəsidir, hiss eləməz badi xəzan,
O biri bülbül olub təmsil edər şeydanı.

Bir sözüm var ürəyimdə yeri gəlmişdi deyəm,
Neçə vaxtır onu mən saxlamışam pünhanı.

Bir zamanlar bəy atası bəy idi məclisdə,
Bəy anasıydı onun sevgilisi, cananı.

İndisə də onların oğlunu təbrik eləyək,
Şurə gəl piri-könül tərif elə bu oğlanı.

Hacı bu şe'ri yaz tazə bəyə itihaf et,
Əfv edər əhli qələm, olsa sözün nöqsanı.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / • — — —**

Nigara zülfüvə tapşır üzündən bir kənar olsun,
Tökülsün gərdənə çin çin yerində bərqərar olsun.

Götür üzündən ta görünsün qəbqəbi halın,
Görənlər söyləsin əhsən rəqibilər şərmisal olsun.

Əgər zülfün tutarsa ruyin pərişan hal olar halın,
Rəva görmə sınıq könlüm dagılsın tarimar olsun.

Mənim səndən səva dilbər ayrı bir həmdəmim yoxdu,
Dili naşadına dil ver ki qoyma intizar olsun.

Əgər istərsən sənə bəxş eylərəm canı,
Gərəkdir aşiqi yarın səninçün canmisal olsun.

Mənə vəd eyləmə Zahid cahanda huri qılmanın,
Özün getki cəhd eylə o huri yüz qatar olsun.

Cəmali yarə üç beyti yazıbdır ayrı bir şair,
Qalan dörd beyti yaz o üç beyit aşikar olsun.

****

**Rəməl-6:**
**Fə′ilAtün / fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Mayili sərvi-qədin olmasam hərgah sənin,
Necə sirrindən olardım bu gün agah sənin.

Ayeyi müshəf olub hüsnüvə nazil həqdən,
Belə məlum ki, olub aşiqin Allah sənin.

Qabü qövseyn qaşun, leylətül əsra zülfün,
Zərbi əngüştərivə mail olub mah sənin.

Aləmi eşqdə Yusif sənə aşiqdi vəli,
Bütün alilər olub sailün, ey şah, sənin.

Görməyənlər ki görüb arizi alın dəhənin,
Düşdülər eşqivə birdən hamı nagah sənin.

İsmi pakın ki düşüb dillərə, ey munisi can,
Zikr edir aduvu hər dərvişi – məddah sənin,

Leylətül qədridə nur oldu camalında əyan,
Dedilər Haciyə əsraruvu billah sənin.

****

**Rəməl-6:**
**Fə′ilAtün / fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Hanı bir yar, vəfadar bizə yar olsun,
Dili-məcruhimizə dil veribən zar olsun.

Vermə nadana, könül, sirrini agah eləmə,
Demə eşq əhli gərək dəhridə biar olsun.

Arizumdur vətənimdə yaşayan hər bir kəs,
Qəzələ, musiqiyə, şerə həvəskar olsun.

Ey cavanlar, sizi Tanrı, sizə canım qurban,
Qoymayın siz bu muğamatımızı xar olsun.

Hər kəsin hər nə gəlir əqlinə ifa eləyir,
Musiqin zay eləsək, bizlər üçün ar olsun.

Şerlər sadələşib, azdı Füzuli eşidən,
Məncə eşq əhli gərək əsli xiridar olsun.

Vahidin incə qəzəl, sadə gözəl şerləri,
Xəlq arasında görüm daim onu var olsun.

Can fədadır sənə, ey Seyyid Əzim Şirvani,
Nə rəvadırki sənə hər nakəsi əğyar olsun.

Demə Zülfüylə Seyid getdi, bilənlər yoxdur,
İstəyirsənsə buyur, söyləyim aşkar olsun.

Hacı, az söylə, deyərlər bizi təbliğ eləyir,
Çarə yox gəlsə Ələsgər, yada Cabbar olsun.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Eşq mülkündə nigarım özünü şah bilir,
Mən-i dərvişi də həm hüsnünə məddah bilir.

Etmişəm çah-i zənəxdanına gizlincə nəzər,
Nə bəlalar gələcək başıma, Allah bilir.

Dedim, eşq əhlinə, aşiqlərə bəs çarə nədir?
Dedilər: "Eşqin əlacın Əsədullah bilir".

Çeşm-i cadusu könül mürğünü əfsuna salıb,
Gahi bilmir özün ol vahimədən, gah bilir.

Pir-i meyxanə verər sağər-i səhbanı mənə,
Hansı mey sağəridür, zahid-i gümrah bilir.

Kimdir ol kəs ki, demiş: "Musiqi şeytan işidir"?
Hansı nakəsdi o kəs, qoy desin hərgah bilir.

Musiqi sövti çəkib, ruhu gətirmiş bədənə,
Deyilib Hacıya bu söz, onu, billah, bilir.
****

**Müctəs-2:**
**MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**
**• — • —  / • • — — / • — • —  / • • —**

"Ləbin ki, ol sənəmin dərdə çarə yazmışlar",
Mənim də yarəm üçün çarə yarə yazmışlar.

Kənari-kuyinə kim, mən kənardən baxıram,
Nə çarə, məskənimi çox kənarə yazmışlar.

Məhəbbət aləminin kim vəfalı aşiqidir,
Diyari-eşqə onu bağrı parə yazmışlar.

Üzündə nəqş olunub qaşı, çeşmi, xalı, xəti,
Nə ali zövqlə gör ağə qarə yazmışlar.

O lövhi-eşqdə kim, hər bəlakeşin adı var,
Mənim də adım ora aşikarə yazmışlar.

Deyillə "səbr elə sən vəsli-yarə yetməkçinə,
Səbirli olmağı gər səbri varə yazmışlar.

Sevin ki, Haci, sənin mətləbin qəbulə yetər,
Gədanın istəyini tacidarə yazmışlar.

****

**Rəməl-1:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilAtün**
**— •— — / — •— — / — •— — / — •— —**

Sanmiyun, əhvalımız eşq içrə nasaz olsa da,
Rindilər bəzmindənik, var zövqümüz az olsa da.

Əhli-halın halını naəhlə izhar etmərik,
Qafilu-naqabilə təklifi eş'ar etmərik.
Aləmi-eşq içrə hər biganəni yar etmərik,
Xoşdur öz məşuqəmiz qəlbində min naz olsa da.
Rindilər bəzmindənik, var zövqümüz az olsa da.

Rövnəqi meyxanəmiz çəngü, dəfü, tar ilədür,
Dərdi, məndi-firqəti kəm, fikrimiz yar ilədür.
Sanmiyun ariflərin şöhrətləri var ilədür,
Xoş keçər əyyamimiz, bəsdir kiçik saz olsa da.
Rindilər bəzmindənik, var zövqümüz az olsa da.

Fəxrdir, olmuş Füzulilər bizim əcdadımız,
Aləmi şe'r içrə onlardir böyük ustadımız.
Vəchi vardır, çixmayır əflakə çün fəryadımız,
Gülməz əğyarın üzü, gül gülsə, həm yaz olsa da.
Rindilər bəzmindənik, var zövqümüz az olsa da.

Dinləsən cahilləri, cahil bilərlər Hacını,
Fəhmi yox qafillərin, qafil bilərlər Hacını.
əhsən ol aqillərə aqil bilərlər Hacını,
Biqərəz bir kəsdür o, hər gün sərəfraz olsa da.
Rindilər bəzmindənik, var zövqümüz az olsa da.

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / •— — —**

Camalın istədim görəm, dedin ki, olmaz olmasın,
Nolar ki, səndə dilbəra, bu olmaz, olmaz olmasın.

Fəraqin aldı əldən bəs nədin ki, ixtiyarımı,
Xəyalın eylədikcə bil, itirmişəm vüqarimi.
Görüncə bir də hüsnüvü verəm də hər nə varımi,
Dedim, dedin ki, olarmı bəs gözəldə heç naz olmasın,
Nolar ki, səndə dilbəra, bu olmaz, olmaz olmasın.

Çəməndə bərgi-güldəki tərindi inci jalələr,
Odur ki, könlümün quşi edər çox ahi nalələr.
Tərəhhüm eylə qaşlarun, açıb sinəmdə lalələr.
Dedim dedin ki, aşiqim gərək sərfraz olmasın,
Nolar ki, səndə dilbəra, bu olmaz, olmaz olmasın.

Bahar fəslisən özün, çəmən-çiçək bəhanədür,
Bütün sevənlərin gözü, ümidi gül dəhanədür.
Üzündür gül, lalədür mənə, cahanda gül bəhanədür.
Dedim dedin ki, sevən gərək bu qədri sözbaz olmasın,
Nolar ki, səndə dilbəra, bu olmaz, olmaz olmasın.

Təbiət hər nə istəsən verib öz ixtiyarüvə,
Yəqin ki, xoş gəlir gözün görünməyən o Tanrüvə,
Nədəndür sirrin açmasın bu dərdli, gizli yarüvə,
Dedim dedin ki, hər yetən mənimlə həmraz olmasın,
Nolar ki, səndə dilbəra, bu olmaz, olmaz olmasın.

Yanıqlı könlümün, gözəl, ləbündən ehtiyacı var,
Bu dərdi naəlac üçün bilibdü, bəs əlacı var?
Sızıldayanlar içrə bir nəvazə gəlmiş Hacı var,
Dedim dedin ki, Hacıya deyin bədavaz olmasın,
Nolar ki, səndə dilbəra, bu olmaz, olmaz olmasın.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Dil mürğini seyd etmisən, ey gözləri şəhbaz,
Mən səndən uzaqlaşmaram, ey dilbəri tənnaz.

Hicr atəşinə yaxmaginən aşiqi-zari,
Məndən sora çox axtaracaqsan bu diyari.
Rəhm et məni biçarəyə dilbər səni Tanri,
Olmaz ki, olmaq biz sən ilə eşqidə həmraz.
Mən səndən uzaqlaşmaram, ey dilbəri tənnaz.

Vermiş sənə Tanrım bu gözəl hüsni, camali,
Həm qaməti-rənanı, həm ol əqli-kəmali,
Qismət ola mən də görəm o cahü cəlali.
Aşiqlər içində məni sən eylə sərəfraz,
Mən səndən uzaqlaşmaram, ey dilbəri tənnaz.

Min ahu nəvalər dolaşır ovci səmadə,
Hər aşiq edib nalə qalıb dari-fənadə,

Bir nalə də var səndə ötrü bir ayrı sədadə,
Ahımdı olan çəngi-dəfü tar ilə həmsaz,
Mən səndən uzaqlaşmaram, ey dilbəri tənnaz.

Sənsən bütün aləmdə yəqindir ki, pənahım,
Sənsiz gecə-gündüz ucalır göylərə ahım,
Öldür məni qurtar əgər olmuşsa günahım,
Axır ola səri-kuyində ola Hacı pəyandaz,
Mən səndən uzaqlaşmaram, ey dilbəri tənnaz.

****

**Hafiz Şirazinin qəzəlinə təxmis**

**Rəməl-6**:
**Fə′ilAtün / fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Gərçi bu dəhrdə hicr ilə dili bərbadəm,
Leyk pərvanə kimi şəmidə bifəryadəm.
Sanmayın aləmi-nasutdə biimdadəm,
"Faş miguyəmü əz göfteyi-xod dilşadəm,
Bəndeyi-eşqəm-ü əz hər dü cəhan azadəmə."

Dil ki, asudə idi düşdü o aləmdən iraq.
Zərrə bilməzdi qəmi-eşqi, nə etməzdi maraq,
Zahida, yarımı sən qılma bu aləmdə soraq,
"Tayeri-golşəni-qodsəm, çe de həm şərhi-fəraq,
Ki, dər in damgəhi-hadesə çün of tadəmə."
Bildi əhvalımı suz ilə bu gün bərbətü ud,
Ləhni-Davud ilə eyləllə həqiranə sücud,

Kunci-viranədə könlüm ola bilməz xoşnud,
“Mən mələk budəm-o ferdovs bər in cayəm bud,
Adəm avərd dər in deyri-xərababadəmə.”

Gəldi əyyamı gülün, güldü bu gün bağü bahar,
Düşdü həm yadə dəxi ləli-ləbi-laləüzar.
Yoxdu canım ki, edəm canımı cananə nisar,
“Nist bər lövhi-deləm coz əlefi-qaməti-yar,
Çekonəm, hərfi-degər yad nədad ostadəmə.”

Görməmişdim, nə bilirdim nədi qəmxaneyi-eşq,
Olmamışdım nə də Məcnun kimi divaneyi-eşq,
Piri-meyxanə ki, verdi mənə peymaneyi-eşq,
“Ta şodəm həlqebeguşi-dəri-meyxaneyi-eşq,
Hər dəm ayəd qəmi əz nov be mobarəkbadəmə.”

Quracaqdırmı bu sevdadə nigarım mənə taxt?
Görəcəkdirmi könül mürğü vüsalın de nə vaxt?
Olacaqdırmı görən halıma həm yar ola baxt?
“Kövkəbi-bəxt məra hiç monəccem nəşenaxt,
Yarəb, əz madəri-giti be çe tale zadəm?”

Nola təsir edə ol yari-pərizülfə bu əşk,
Taqi-əbruyə düşə, taci-səri-zülfə bu əşk,
Sən kimi yarə dəyər, Haci, səri-zülfə bu əşk,
“Pak kon çehreyi-Hafiz be səri-zolf zi əşk,
V-ər nə in seyi dəmadəm bebərəd bonyadəm”.

****

**Məhəmməd Füzuli qəzəllərinə təxmislər**

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Hansı bir məşuqədir, öz yarına imdadı var,
Vəslə ümmid etməgin öz ləzzəti, öz dadı var,
Dilbəra! Kimdir o kim, mən tək dili-bərbadı var,
"Məndə Məcnundan füzun aşiqlik istedadı var,
Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var."

Gül üzün tək bərgi-gül gülzar içində tərdimi?
Ləblərin ki, bəxş edir can, qönçeyi-əhmərdimi?
Sən Məsihasan məgər Məryəm sənə madərdimi?
"Nola qan tökməkdə mahir olsa çeşmim mərdümi,
Nütfeyi-qabildürür, ğəmzən kimi ustadı var."

Olmasan həmdəm mənə bəs neyləyər tək aşiqin,
Seyli-qəmdən bir kənarə dutgilən, çək aşiqin,
Fəxr edər aləm səninlə mən sənin tək aşiqin,
"Qıl təfaxür kim, həm var mən tək aşiqin,
Leylinin, Məcnunu, Şirinin əgər Fərhadı var."

Həsrəti-vəslinlə cismim yansa, dil gəlməz dilə,
İstəməm kim, sən mənə yar olduğun bir kəs bilə,
Mən nə Məcnunam, nə Fərhadəm mənə aləm gülə,
"Əhli-təmkinəm, məni bənzətmə, ey gül, bülbülə.
Dərdə yox səbri onun, hər ləhzə min fəryadı var."

Can ki, cananında tək olsun o salehdan, qəbul,
Məncə minnətdir bu həm olseydi taledən qəbul,.
Şövqi-eşqin Hacı, etmişdir o fatehdən qəbul,
“Ey Füzuli, eşq mənin qılma nasehdan qəbul,
Əqli tədbiridir ol sanma ki, bir bünyadı var.”

****

**Həzəc-8:**
**Məf’Ulü / məfA’İlü / məfA’İlü / fə’Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Eşq aləmi bir aşiq üçün sirri-nihandır,
Zənn etmə ki, gülşəndi və ya baği-cinandır,
Sən rahi-bəla tutma, çəkil, ey dil, amandır,
“Can vermə qəmi-eşqə ki, eşq afəti-candır,
Eşq afəti-can olduğu məşhuri-cahandır.”

Qır tövqi-cünun dairəsini, durma, dayanma,
Pərvanə kimi şəmi-rüxi-ayridə yanma,
Hər çeşmi qəra, zülfi siyəh mara inanma,
“Yaxşı görünür surəti məhvəşlərin, amma,
Yaxşı nəzər etdikdə sərəncamı yamandır.”

Sövq etmə könül, zülfi-ruxi-yarə təhərsiz,
Çünki bu bəla məxfidi, var dərdi qədərsiz,
Var qaç ki, bu rah içrə degil kimsə kədərsiz,
“Sud istəmə sevdayi-qəmi-eşqidə hərgiz
Kim, hasili-sevdayi-qəmi-eşq ziyandır.”

Hər kim edə dil mülkinə bir dilbəri hakim,
Yüz göz desə yox rahi-qəmi-eşqidə bakim,
Qəm mülkinə biçar olur axırı təhkim,
"Eşq içrə əzab olduğun ondan bilirəm kim,
Hər kimsə ki, aşiqdir, işi ahü fəğandır."

Hərçənd ləbi-yaridə derlər ki, şəfa var,
Yox zövqi, o gülzaridə çox cövrü cəfa var,
Mən söyləmərəm Hacı, bu sevdada səfa var,
"Gər dersə Füzuli ki, gözəllərdə vəfa var,
Aldanma ki, şair sözü, əlbəttə, yalandır."

****

**Rəməl-11:**
**Fə'ilAtü / fA'ilAtün / fə'ilAtü / fA'ilAtün**
**— •— • / — •— — / — •—• / — •— —**

Gözəlim, o tiri-qəmzən məni-mübtəlayə gəlsin,
Əgər istəmirsə könlüm, onu min bəlayə gəlsin.

Dağılıbdı əbri-zülfün yenə məh cəmalə, xoşdur,
Məni-bikəmalı zülfün gətirər kəmalə, xoşdur,
Qəmi-hicri-eşqin içrə gələ dil zəvalə, xoşdur,
Təki sərvi-qamətindən başım üzrə sayə gəlsin,
Əgər istəmirsə könlüm, onu min bəlayə gəlsin.

Çəmən içrə güldə vardır gül üzarının səfası,
Belin əydi nərgizin, gör, necə qəddinin cəfası,

Hamı qönçələr dodağı ola ləblərin fədası,
Güləsən, həvəslə bülbül dil açıb sədayə gəlsin,
Əgər istəmirsə könlüm, onu min bəlayə gəlsin.

Verərəmmi, cüt hilalın fələk üzrə tək hilalə?
Deyərəmmi, damə bənzər ağ üzündə qarə xalə?
Dinərəmmi, kimsə bilsin niyə dil düşüb bu halə?
O gözün xətası dilbər bu günü qarayə gəlsin,
Əgər istəmirsə könlüm, onu min bəlayə gəlsin.

Yeriyəndə istəyər ki, quru yer ayağın öpsün,
Nə rəvadı, sübh açılsın, yel əsib yanağın öpsün?!
Niyə gül budağı şehdən əyilib buxağın öpsün?!
Sənə bəd nəzərlə hər kim baxa, çox qadayə gəlsin,
Əgər istəmirsə könlüm, onu min bəlayə gəlsin.

Nə bilir, nə çarə qılsın deginən bu Hacı, dilbər,
Boyunun bəlasın allam, Hacının əlacı dilbər,
Həvəsi, kəmalu əqli, sözünün rəvacı dilbər,
Qərəzin nədir bəyan et dili-binəvayə gəlsin,
Əgər istəmirsə könlüm, onu min bəlayə gəlsin.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / • — — —**

Yaranmışdır muğamatım əcəbdir şux qəzəllərdən,
Qəzəllər ixtilat eylər qara gözlü gözəllərdən,
Gözələr imtina etməz bu sevdaya dözənlərdən,
Həmişə şad olar dillər kamança, tar olan yerdə.
Sədayi müsiqi xoşdur mənimlə yar olan yerdə,
Xüsusən zövq alar arif muğamat var olan yerdə.

Muğamat olmasa rövnəq gələrmi bəzmi irfanə,
Məqami eşqdə şəmdir, mən ol şəmə pərvanə,
Əyər rişxəndilər etsə bizə hər naşi biganə,
Yəqindir qoymadığ gəzsin çəmən gülzar olan yerdə.
Sədayi müsiqi xoşdur mənimlə yar olan yerdə,
Xüsusən zövq alar arif muğamat var olan yerdə.

Bütün xalq musiqisində bu dəsgahdan əlamət var,
Tamamən mahnı təsnifdə bu babətdən şərafət var,
Bunu dərk etməyənlərdə yəqin, ey dil, qəbahət var,
Amandır qoymayın bülbülü ötsün xar olan yerdə.
Sədayi müsiqi xoşdur mənimlə yar olan yerdə,
Xüsusən zövq alar arif muğamat var olan yerdə.

Gərəkdir xalq arasında muğamatım sədalansın,
Muğamatın sədasından sevən dostlar səfalansın,
Nəvası şuri şəhnazın deşur ilə nəvalansın,
Qəmin olmaz sənin Hacı qəm, qəmxar olan yerdə,
Sədayi müsiqi xoşdur mənimlə yar olan yerdə,
Xüsusən zövq alar arif muğamat var olan yerdə...

**Həzəc-11:**
**Məf'Ulü / məfA'ilün / fə'Ulün**
**— — • / • — • — / •— —**

Hər kim ki ola gözəl sənətkar,
Nadanlar onu edərlər inkar.
İbrət götür o Nəimilərdən,
Ya inki böyük Nəsimilərdən.
Mənsuru nə üçün çəkiblər dara,
Bəsdir səninçün bu işarə.
Hal əhlidir Hacı, vardır kəmalı,
Arifsən könül eşit bu halı.

****

### Vəsiyyətnamə

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Bir gün gələcək, cismim olur xak ilə yeksan,
Əlbəttə ki, dünyada deyil baqi hər insan.
Qanuni-təbiətdi ki, dünyaya gələnlər gedəcəklər,
Bizdən sora bu əmri gələnlər biləcəklər.
Hər kəs ki, gələn nəslinə iz qoymuş özündən,
Alimsə, ya rəssam isə, şairsə sözündən.

Xoş halına ol şəxsin, onu yad eləyərlər,
Qəbr içrə, yəqin, ruhunu həm şad eləyərlər.
Şeir aləminin kim ki, həvəskarı olubdur,
Mən bikəsi-biarın o kəs yarı olubdur.
Nafəhmlər, əlbəttə, bu aləmdən uzaqdır,
Yoxdur oların zövqü, olar bizdən iraqdır.
Gör bir nə yaratmış qəzəl ustadı Füzuli,
Seyid Əzimin, Sabirin əcdadı Füzuli.
Qeyrətli olanlar qəzəliyyatı unutmaz,
Hərgah qəzəliyyatı sevibdirsə, muğamatı unutmaz.
Şair qəzəliyyat ilə məşhuri-cahandır,
Eşq əhlinə hər bir qəzəli afəti-candır.
Seyyid Əzimin, Hacı, sözü dürri-dəhandır,
Ölmüb, hələ də dəhridədir, tazə cavandır.

****

**"Qarğa və bülbül" (təmsil)**

**Həzəc-11:**
**Məf'Ulü / məfA'ilün / fə'Ulün**
**— — • / • — • — / • — —**

Bir gün yenə bir bahar zamanı,
Sübhün mehi aldı hər məkanı.
Xoş ətrlə gül açıb çəmənlər,
Laləylə nərgiz, yasəmənlər.
Bülbülkü görüb bu xoş səfanı,
Cənnət kimi sandı ol cahanı.

Gülşəndən olubdu könlü razi,
Şövq ilə oxurdu şahnazi.
Amma gülün üstdə görüb şəbnəm,
Cananı olubdu xarə həmdəm.
Bilmirdi ki, gül xətasız olmaz,
Eşq aləmi heç cəfasız olmaz.
Bülbül oxuyurdu qüssəsindən,
Quşlar oyanırdı xoş səsindən.
Bir qarğa qonub həmən budağa,
Səs saldı da o ətirli bağa.
Bülbül səsi incə, səsdə pəstə,
Qarğa səsi çox kobud nəfəsdə.
Bülbül dedi: qarğa, sus amandur,
Mən şövqə gələndə sən dayan, dur.
Xoş bəzmdə[1] heç qarıldamazlar,
Yersiz belə bəd zarıldamazlar.
Maneçilik eylədin səbəbsiz,
Əhvalımı korladın ədəbsiz.
Şeydalıq üçün səbəb gərəkdür,
Nəğmə oxuyanda təb gərəkdür.
Şairlər içində hörmətim var,
Aşiqlər ara, şöhrətim var.
Tərk eyləyim bu bağı, uç get,
Dəng eyləmə baş qulağı, uç get.
Qarğa dedi: çox öyünmə, bülbül,
Xoş ləhcənə çox sevinmə, bülbül.
Bir qaarr eləsəm əgər pəsimdən,
Aləm oyanar bu gül səsimdən.

---

[1] Bəzm – Məclis.

Gəl mərc eləyək nədən deyirsən,
Kim yaxşıdır səsdə sən, və ya mən?
Gülzarı vuruq çıxaq kənarə,
Bir canlıya söyləyək dübarə.
Hər nə eləyərsə ol sərəncam,
Biz bir-birimizdən istəyək kam.
Hər kəs uduzarsa bu mərci,
Bir göz verəcək bu danə xərci.
Bülbül ürəyi sevincin aşdı,
Bu məsləhət ilə razılaşdı.
Çün arxayındı öz-özündən,
Heç qorxusu yoxdur bir gözündən.
Pərvaz elədi hər ikisi birdən,
Ayrıldılar ol səfalı yerdən.
Bir otluğu gördülər çox tər,
Otlağıda otluyurdu bir xər.
Qarğa dedi: gəl deyək bu çağa,
Bundan daha getməyək uzağa.
Bülbül dedi: münsif olmaz eşşək,
Anqırmaq işin o bilər bişək.
Şərt üzrə bülbül oldu naçar,
Eşşək əlinə verdi daçar.
Nəql eylədilər o bikəmalə,
Münsiflik eyləyə bu müşkül halə.
Eşşək dedi: başla, bülbül, əzəl,
Ta ki, mən etməyin məəttəl.
Bülbül nə qədər ki, nalə çəkdi,
Can riştəsin ol zavalə çəkdi.
Min ləhçəni vurdu bir damağə,
Kar etmədi ləhçələr ulağə.

Novbət yedişəndə gəldi qarğa,
San otlağ arasında seçildi darğa.
Qarr eylədi çox qaralı rəngi,
Bülbül utanıb saraldı rəngi.
Eşşək dedi: qarğa, əhsən, əhsən,
Mən tək sən özün də xoşnəfəssən.
Vur bir gözün çıxat hərifin,
Sən qalibisən çün ol zəifin.
Bir zərbə alırkən didəsindən,
Çıxdı göyə ahı sinəsindən.
Bülbül yıxılıb gedib özündən,
Qan-yaş tökülürdü bir gözündən.
Qarğa dedi: bəs sızıldayırsan?
Gizlində nədir mızıldayırsan?
Bülbül dedi ki, heyf ki, fəc oldum,
Qanmazlar içində bikəs oldum.
Bir insan olaydı sən görərdün,
Kim qalib olardı bəs bilərdün.
Hər kəs ki, çəkib bu xoş misalı,
Hal əhli olur bu halı halı.
Bülbül deməyin ki, xəstə qaldı,
Yox, o gözəl nəfəsdə qaldı.
Daim ona hörmət eylər aqil,
Hörmət nə bilir cahanda cahil.
Nafəhmlə etmə ülfət, Hacı,
Bəsdir sənin üçün bu ibrət, Hacı.

31.07.1989

****

## MƏMMƏDƏLİ SAİL (1919— 1983)

Məmmədəli Əliqulu oğlu Əliyev 8 mart 1919-cü ildə Bakı şəhərində anadan olmuşdur. Atası Mirzə Əliqulu dərviş olmuşdir. Məmmədəlinin uşaqlıqdan gözəl səsi vardı. Bundan əlavə, Məmmədəli "Sail" (dərdli avara) təxəllüsü ilə şeir, qəzəl də yazırdı.

1940-1941-ci illərdə Əhməd Bakıxanov Məmmədəlini və bacısı Töhfəni öz ansamblına gətirib. Məmmədəli 1941-46-cı illərdə ordu sıralarında xidmət etmiş, 1945-də yaralanaraq geri qayıtmışdır. Ordudan qayıtdıqdan sonra o, Dövlət Dram teatrında xanəndə və aktyor kimi fəaliyyət göstərmiş, "Kor ərəbin mahnısı"nın ilk ifaçısı olmuşdur. Məmmədəli Əliyev 22 il teatrda çalışmış və əksər tamaşalarda oxumuşdur.

O, ömrünün sonlarına yaxın teatrdan uzaqlaşıb və 1968-ci ildə Elmlər Akademiyasında hərbi kafedrada işə düzəlib.

O, iki dəfə ailə qurub. İkinci evlilikdən 5 uşağı dünyaya gəlib.

Məmmədəli Əliyev 1983-cü ildə vəfat edib.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Atanın qədrini bil, gec-tez olarsan bir ata,
Ata bəxş etdi bizi böylə gözəl, şən həyata.

Atanın hörməti vacib bütün övladı üçün,
Olma nadan, ona bihörmət olub etmə xəta.

Ata həm ailənin başçısı, həm bağbanıdır,
Bir cəfakeşdi təbiət bizə etmişdir əta.

Ananın naləsi tutmaz, inanın, övladı,
Vay o gündən ki, ata naləsi övladı tuta.

Bir oğul ki, ataya bircə kərə ağ olsa,
Elə övlad çətin dünyada məqsuda çata.

Saila, qoy atalar ömrü boyu var olsun,
Yaraşıqdır atalar cümlə bütün kainata.

****

**Müctəs-2:**
**MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**
**• — • — / • • — — / • — • — / • • —**

Çalış ki, eylə müdara bu kəc zəmanə ilə,
Köçür bu dəhridən hər şəxs bir bəhanə ilə.

Bu qədr gəncliyini vermə sən hədər badə,
Bükər fələk belini bil ki, nagahanə ilə.

Bu dəhridə kimisi zillətə düçar olmuş,
Kimisi ömr eləyir bərbəzəkli xanə ilə.

Nə qədri kəlsə əlindən, çalış ki, yaxşılıq et,
Həmişə köstərələr qoy səni nişanə ilə.

Bu qədri zülm eləmə sən mənə, gözəl yarım,
Səni də ahim odu yandırar zəbanə ilə.

Müğənni, başla bizə çarigah dəsgahın,
Tərənnüm eylə yenə nəğməni təranə ilə.

Məhəbbət aləminin seyrinə dalıb Sail,
Qurtardı bu qəzəli dün gecə xitamə ilə.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Tacidarimdir o dilbər, həmi şahımdır mənim,
Həm sədaqətlidir o, cümlə pənahimdir mənim.

Neçə müddətdir küsübdür çün o dilbər məndən,
Küsdürüb mən yola saldım, bu günahimdir mənim.

Ahi naləylə keçir günlərim, ay qız, sənsiz—
Yandıran qəlb evimi, od kimi ahimdir mənim.

Gecələr sübhə qədər fikri xəyal eyləyirəm,
Yatmıram, ta görürəm sübhi səbahimdir mənim.

Çün sevən qəlblərə dərman, yenə də musiqidir,
Çarigahimdi yenə, odlu seygahimdir mənim.

Kim oxur dadlı qəzəl Vahidə rəhmət oxusun,
Sailəm mən, o isə dəhridə dahimdir mənim.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Bir dilbərin eşqiylə əcəb dərbədərəm mən,
Zənn eyləyir aləm məni kim, bəxtəvərəm mən.

Bəsdir bu qədər zülm elədin, sən mənə, ey gül,
Dözdüm bu qədər zülmülərə, şiri nərəm mən.

Bir məqsəd üçün yüz dəfə can verməli olsam,
Məksudimə dünyadə inan ki, yetərəm mən.

Kim saysa məni mən quluyam, saymasa bir kəs,
Ol şaxə inan ki, ağadan da betərəm mən.

Dostu həmişə istəyirəm şad və xürrəm,
Bir kimsənənin pis gününü istəmərəm mən.

Öz mənliyim, öz aləmim, öz dərdi sərim var,
Sanma məni bir başqasına dərdi-sərəm mən.

Sail, bu gözəllərdə vəfa yoxdur deyirlər,
Sanma ki, bu el sözlərinə bixəbərəm mən.

****

**Rəməl-6:**
**Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Aylar illər ötüşür, cümlə bu xilqət qocalır,
Gənc nəsillər gəlir bir gün ki, nəhayət, qocalır.

Çox gözəllər bu fəna dəhridə tüğyan etmiş,
Ən sonu bel bükülür, hər gözəl afət qocalır.

Qolu qüvvətli, rəşadətli olarsa bir gənc,
Yaşı ötdükcə gələr bir gün, o əlbət qocalır.

Gənc ikən bilməlidir gənclərimiz bu sirri,
Verilib çün olara gənclik əmanət, qocalır.

Görmədim bir kəsi mən ki, həmişə gənc qalsın,
Verə bilməz bu işə kimsə zəmanət, qocalır.

Saçını ağ görübən, Saila rişğənd eləmə,
Təkcə bir mən deyiləm, bil ki, təbiət qocalır.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Var qamətinin bənzəri Fərhadə, a dostum,
Əhsən sənə xəlq eyləyən ustadə a dostum.

Sən dostluğa sadiqsən əzizim, hünərin var,
Pis gün səni heç görmə bu dünyadə, a dostum.

Sən şadlığı sev, şadlığ isə qoy səni sevsin,
Dayim olasan qüssədən azadə, a dostum.

Qəlbində sənin vardır məhəbbət dolu sevda,
Alqış sənə, həm bir belə sevdadə, a dostum.

Bil ki, sənə öz dostlarının hörməti çoxdur,
Hazırdılar hər əmrinə amadə, a dostum.

Gər dadlı qəzəllər sən eşitmək diləyirsən,
Dayim düşünüb Saili sal yadə, a dostum.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Aludəyəm ol dilbərə şirindil olanda,
Min zövq alıram mən, gül əlində gül olanda.

Ol nazlı mələkdən, hələlik çox diləyim var,
Qurban kəsərəm, bir diləyim hasil olanda.

Ariflər üçün, canımı qurban verərəm mən,
Qəlbim sıxılır, mənlə əyər qafil olanda.

Müşkül günün olduqda, mətanətlə döz, ey dil,
Namərdlərə yalvarma işin müşkül olanda.

Günlər gəlib ötdükdə ömürdən gedir artıq,
Bir daş düşür ömrün divarından, il olanda.

Hər bir kişinin dəhridə öz mənliyi vardır,
Mərdliklə dolan, dost evinə daxil olanda.

Sail, çalışıb xəlqə nəsihətli qəzəl yaz,
Qiymətli olur, söz həmişə kamil olanda.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Dünyada əyər yaxşılıq etsən, ucalarsan,
Xoş xasiyyətin olsa, fələkdən bac alarsan.

Bu dəhridə gər bircə günün xoş keçər isə,
Ol xoş gününü ömrü boyu yadə salarsan.

Şadlıqla keçir ömrünü aləmdə həmişə,
Hər bir şey üçün fikr eləsən, tez qocalarsan.

Dayim çalışıb, həqqin tərəfdarı ol, ey dil,
Kimsə bata bilməz sənə gər həqq ilə əyarsan.

Sərxoşluq edib kimsənəni eyləmə təhqir,
Gər ertəsi gün görsən onu sən utanarsan.

Sail, həmişə eyləkinən xəlqinə xidmət,
Xəlq içrə ucal sən, nə qədər dəhridə varsan.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Gül bəsləməyən, baxçada gül qədrini bilməz,
Öz qədrini heç bilməyən, el qədrini bilməz.

Kim bir gününün qədrini bilməzsə cahanda,
Ömrü verəcək badə, o il qədrini bilməz.

Dildir, acılıq, həm də şirinlik saçır ondan,
Kim əhli zəka olmasa, dil qədrini bilməz.

Gər nanəcibi şah edəsən, sən bu cahanda,
Bir gün səni sancar, bunu bil, qədrini bilməz.

Dərk etsə biri elmi, məqamatı, həmişə
Bəmdən dəxi həzz almasa, zil qədrini bilməz.

Bir pis günün olsa, gələcək mərd isə dostun
Namərd isə Sail, uzan öl, qədrini bilməz.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Musiqi sevməyi, əzm ilə qərar eyləyəsən,
Guş edib musiqini, naləvü zar eyləyəsən.

Çarigahı oxuyub həzz ilə, min ləzzət ilə,
Ürəyə yanğı salan bəstənigar eyləyəsən.

Bir qədər hikmət ilə yaxşı qəzəlxanlıq edib,
Tutasan pərdəni, ardınca hisar eyləyəsən.

Eləsin məclisi aludə, məlahətli səsin,
Həm müxaliflə dəxi könlü qubar eyləyəsən.

Salasan yadə həmən, bir gözü şəhla gözəli,
Sanki, huşində o dəm bəzmi-nigar eyləyəsən.

Saila, məclisara söhbət edən bir şəxsi,
Məclisi-musiqidən tezcə kənar eyləyəsən.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Ey gül, bu qədər işvə ilə nazə nə həcət,
Çoxda səni, xoşbəxt yaradıb qadiri-qüdrət.

Hər bir baxışın can alıcı, dişlərin inci,
Qaymaq dodağın, alma yanaq, sözlərin hikmət.

Vur şanə ipək tellərə, arxanca sürünsün,
Çək sürmə gözə, ver özünə min cürə ziynət.

Qoyma yetə əğyar sənin vəslinə bir dəm,
Öz yarını güldür, nə qədər varsa da fürsət.

Ol əhli vəfa, nəxli məlahət və zəkali,
Ta başqa gözəllər ala səndən dəxi ibrət.

Çün qıssa olur ömr, vəfasızdır bu dövran,
Min hökm verir saniyədə qanlı təbiət.

Sail, bu qədər fikri xəyalət nəyə lazım,
Bəsdir dəxi, çox etməkinən bunca şikayət.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Ey dil, bu pərilər səni avarə edərlər,
Bilmərrə gözəllər, gününü qarə edərlər.

Çox aşiqi səhralərə salmış, həvəsi eşq,
Sanma ki, sənin dərdinə bir çarə edərlər.

Göz yaşı töküb, naləvü fəryad eləyərsən,
Hicran sitəmiylə, cigərin parə edərlər.

Bikanə çıxarlar sənə, axır bu gözəllər,
Müjganə oxuyla, ürəyin yarə edərlər.

Əğyarə satarlar səni onlar, dəxi kizli,
Gizlin duyularsa, həmi aşkarə edərlər.

Sail, nə qədər zülmi var isə, bu cahanın,
Bu nazlı pərilər, məni naçarə edərlər.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Bu yer üzünün ziynəti, evladi bəşərdir,
Lakin nə üçün qismət ona qəmdir, kədərdir.

Sə'y et bu gözəl ömrünü, mə'nalı keçir sən,
Mə'nasız ötən gün, dəxi billahi, hədərdir.

Gözlə özünü sən bu cahanda, iki şeydən;
Ondan birisi bir quru böhtan, biri şərdir.

Uyma fələyin fitnəsinə, aqil ol, ey dil,
Bil ki, sənə şərbət dediyi badə, zəhərdir.

Kim ki, çalışıb tər tökərək ailə saxlar,
Ən yaxşı əməl, həm də ki, ən yaxşı hünərdir.

İnsanə beş arşın bez olur ən sonu qismət,
Nə mal, nə dövlət, nə imarət, nə də zərdir.

Sail, bu gözəl sözlərinin qiyməti çoxdur,
Çünkü, qanan için bu sözün lə'li, göhərdir.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Ey gözəlliklə bütün aləmi heyran eləyən,
Aləmi eşqidə hər an, neçə min qan eləyən.

Bu qədər eylədiyin cövri cəfalər bəsdir,
Sənə divan eləyər, torpağı insan eləyən.

Nə qədər zülm elədin aşiqə, yetməzmi dəxi?
Sənin eşqindir, bütün xəlqi pərişan eləyən.

Hələlik mən dözürəm, dağ dözə bilməz buna heç,
Kömək et sən mənə, ey müşkülü asan eləyən.

Əl götür sən bu əməldən, həmi zülmündən utan,
Ey, cəfasilə sevən kəsləri kiryan eləyən.

Tanrıdan qorx, dəxi zülm etmə yazıq Sailə sən,
Bil ki, pis gündə qalar, tanrıya üsyan eləyən.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Gər olmasa insan, dəxi sərvət nəyə lazım,
Dünyayə vida etsə, imarət neyə lazım.

Bir kəs ki, günah iş tuta aləmdə həmişə,
Sonra qocalan vaxtı ibadət neyə lazım.

Elm ilə, ədəblə, ucalar dünyada insan,
Kəsb eyləginən elmi, cəhalət nəyə lazım.

Qurban demişəm canı sənə, ey bütü tənnaz,
Al canımı qurtar, dəxi minnət nəyə lazım.

Bir dilbəri tənnaz misilsiz gözəl olsa,
Olmazsa vəfası, belə afət nəyə lazım.

Sülh ilə dolan, həqq ilə ol, hörmətin artar,
Sən yaxşılıq et, kinli ədavət, nəyə lazım.

Sail, biri səhv olsa, sözü sən üzə söylə,
Sonra eləmə, arxada qiybət, nəyə lazım.

****

**Rəməl-6:**
**Fə′ilAtün / fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • — — / • • —**

*Əliağa Bakirə nəzirə*

Deməyin sirrimi ol yarə, öləndən sonra,
Başına bağlamasın qarə, öləndən sonra.

Bəllidir, cümlə yaranmış öləcəkdir bir gün,
Yakmasın canını odlara, öləndən sonra.

Sağ ikən hörmət edin siz mənə, ey dustlərim,
İstəsəz, lap çəkiniz darə, öləndən sonra.

Zahida cənnəti ver sən mənə, bu dünyada,
Atınız sonra məni narə, öləndən sonra.

Nə qədər cismidə can var, günümüz xoş keçsin,
Cismimi eyləyiniz parə, öləndən sonra.

Hələ ki var nəfəsim, siz mənə dərman eləyin,
Nəyə lazım tapasız çarə, öləndən sonra.

Qoymayın Saili bir an qala həsrət, dostlar,
Nəğməyi çəngi, dəfi, tarə, öləndən sonra.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Məclisə badə dolandır sən, amandır, saqi,
Bu yazıq aşiqinin, halı yamandır saqi.

Oylə sərməstəm, inan ki, nəzərimdə aləm,
Gah təlatümdə olur, gahi dumandır saqi.

Uyma məhvəşlərə, allanma şirin sözlərinə,
Boynuna hər dolanan saç, bir ilandır saqi.

O qara qaş ki, dəmadəm süzülür naz ilə,
Yağdırır fitnə oxun, kinli kamandır saqi.

Uyma hər dəbdəbə ilə deyilən sözlərə sən,
Arif ol, dərk elə bir, gör nə zamandır saqi.

Saila, uyma cəhanə, çün ömür beş gündür,
O da ki, yarısı düz, yari gümandır saqi.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Bir gülün eşqiylə, ey dil, düşmüşəm sevdayə mən,
Olmuşam aludə, sübhi şam, meyi səhbayə mən.

Bil mənəm divanələr şahi, cəlalım var mənim,
Həmdəmim vəhşilər olmuş, düşmüşəm sevdayə mən.

Əql başdan çıxdı həm getdi, ağarmış saçlarım,
Mübtəla oldum bu eşqə, ömrü verdim zayə mən.

Bu cahan sərmayəsi derlər kəfəndir mütləqa,
Görmədim aləmdə bundan başqa bir sərmayə mən.

Məcnunun eşqiylə Leyla, tərki dünya eylədi,
Vadiyi eşq içrə qiymət vermişəm, Leylayə mən.

Saila, yoxdur bu dünyadə vəfa, həm ehtibar,
Ehtibar etməm inan ki, bivəfa dünyayə mən.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Ömr eyləsə şadlıqla bəşər, qəm dəxi olmaz,
İnsanlar əyər olmasa, aləm dəxi olmaz.

Atlas donunu geydi yenə baqi-çəmənlər,
Gər düşməsə çən güllərə, şəbnəm dəxi olmaz.

Ol nazlı nigarım, məni söz verdi ki, sevsin,
Son qət'i söz olsa buna şübhəm dəxi olmaz.

Məclisdə muğamı, oxu şur ilə müğənni,
Çox zildə gəziş, olmasa zil, bəm dəxi olmaz.

Şə'min odu pərvanəni yandırsa da bir dəm,
Göz yaşı tökər, hey əriyər, şəm dəxi olmaz.

Gəl vəslin ilə Saili güldür dəxi, ey gül,
Bəsdir, bu qədər naz ilə çəmxəm dəxi olmaz.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Mən aşiqəm, ey gül, rəhi meyxanə mənimdir,
Zahid ona, kər söyləsə viranə, mənimdir.

Cahil nə bilir ləzzətini badeyi-nabın,
Əllərdə gəzən ol dolu peymanə, mənimdir.

Şər'ən bu həram olsa da ariflərə səd var,
Dillərdə gəzən boylə bir əfsanə, mənimdir.

Zahid meyi içsəm də, ürək qoy təmiz olsun,
Meyxanə kimi dəbdəbə, kaşanə mənimdir.

Ta, sübhə qədər mən, dəri meyxanədə yatsam,
Olmaz bu işin rəxnəsi imanə, mənimdir.

Sail, başa sal zahidi, qoy bir dəfə qansın,
Ol qədri bilən arifi ürfanə, mənimdir.

****

**Müzare-1:**
**Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**
**— — • / — • — • / • — — • / — • —**

Pərvanə bir tərəfdə yanır, eşqə can verir,
Şə'm isə ağlayır, ürəyi sanki qan verir.

Min nalə eyləmək nəyə lazım, sevən nəfər,
Yarı yolunda canını qurban, həmən verir.

Ox dəysə bir nişanəyə, tə'rif oxun deyil,
Çün, istiqaməti oxa, ancaq kaman verir.

Bir baxmaq ilə qətlinə fərman verən gözəl,
Cəllad baş kəsəndə, bir anlıq aman verir.

Bir hökmüdar, hökm eləyəmməz həmişəlik,
Son qət'i hökmü, ey dili qafil, zaman verir.

Söz qədrini bilənlərə Sail, bu şe’ri yaz,
Qiymətli sözlərə, yenə qiymət qanan verir.

****

**Həzəc-1:**
**MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün**
**• — — — / • — — — / • — — — / •— — —**

Gözəllərdə vəfa olmaz, götür əl sən bu mə’vadən,
Nahaq Məcnun düşüb səhrayə, əl çəksin o, səhradən.

Neçin Adəm qovulmuş baği-cənnətdən, günah etmiş
Buna yalnız səbəb odur ki, fitva keçdi həvvadən.

Xumarın eşqi ilə Şeyx Sən’an min bəla çəkdi,
Atıb islam dinin, xaç asıb çıxdı kəlisadən.

Atılmışdır qaranlıq zindanə ol həzrəti Yusif,
Nə qədri zülmə qatlaşdı inan, cövri Züleyxadən.

Bu aləm qeydinə qalma, çalış şadlıqla ömr eylə,
İkidünyayə laqeyd ol, vəfa umma bu dünyadən.

Vur ömrü başə Sail keyf ilə, həm də dəmağ ilə,
Bir anlıq ayrı düşmə həm də sən mey ilə səhbadən.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Qocalıq bükdü belim, yoxdur daha imdadim,
Bir əsadır yenə də təkcə pənahim, dadim.

Bir kəsim yox ki, mənə dəhridə qəlbən acısın,
Nə qohum var, nə də qardaş, nə də ki, övladım.

Səhər olcaq, qapımı ancaq açar badi-səba,
Onu məcbur eləmiş bəlkə, mənim isnadım.

Gün gələr, mən ölərəm, ot da bitər qəbrimdə,
Yaşar aləmdə fəqət pak və təmiz bir adım.

Sübhədək naləvü fəryad edirəm, yox bir kəs,
Məni qaldırsan ayağə, mənə olsun xadim.

Hadi der ki, "dağa dersəmsə verər əksi-səda,
Daşa dönmüşlərə tə'sir eləməz fəryadım".

Saila, yaxşıya rəhmət oxunar dünyadə
Rəhmət ol şəxsə ki, olmuş o mənim ustadım.

****

**Rəməl-6:**
**Fə′ilAtün / fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Seyri gülşəndə mənim yox güzəranım sənsiz,
Od tutub yanmadadır cismidə canım, sənsiz.

Aləmi-eşqində bil, təkcə pənahim sənsən,
Başqa bir kimsənəyə yoxdur gümanım sənsiz.

Payimal etdi məni, çərxi-fələk dünyadə,
Fitnəsindən fələyin olmaz amanım, sənsiz.

Bir sənin eşqinə yandım gözəlim həsrət ilə,
Qoyma bu dəhridə mən təkcə dolanım, sənsiz.

Gözlərim yolda qalıb, əhdə vəfa istəyirəm,
Günlərim qəmlə keçir ay can alanım sənsiz.

Gəl sevindir bu yazıq Saili, öz vəslin ilə,
Qalmayıbdır daha heç, tabi-təvanım sənsiz.

****

**Həzəc-8:**
**Məf′Ulü / məfA′İlü / məfA′İlü / fə′Ulün**
**— — • / • — — • / • — — • / • — —**

Yarın səri-kuyi gecələr, mənzilin olsun,
Saf sinəsi üstə tökülən, qoy telin olsun.

Ta sübhə qədər zövq alaq eşqin həvəsiylə,
Müştaqın olan, mən kimi bir qafilin olsun.

Çətrin, verir ol gül üzünə başqa gözəllik,
Ondan da gözəl, sünbülü tək kakilin olsun.

Eşqin dənizi güclü təlatümdə olanda,
Sinəm, sığınaq olmaq üçün sahilin olsun.

Orduyla alınmaz qalanı, fəth eləyərsən
Xoş xasiyyətin, həm də şirin bir dilin olsun.

Sail, yaxın illərdə Vətən qüdrəti ilə,
Ulduzları fəth eyləyən azad elin olsun.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Cevrini az et mənə, mən ki, sənə biganəyəm,
Şəm sənsən, mən sənin dövrəndə bir pərvanəyəm.

Eşq cövrindən mənim, səhralar olmuş məskənim,
Həmdəmim vəhşilər olmuş, sanki, bir divanəyəm.

Sirrimiz, ey dilbərim, cümlə cəhanə faş olub,
Mən də Məcnun tək dəxi, dillərdə bir əfsanəyəm.

Bari insaf et, mənə rəhm eylə bir an, ey gözəl,
Həsrətinlə can verən, mən xanəsi viranəyəm.

Bir çox aşiqlər sənin çəkmiş cəmalin həsrətin,
Qeys bir yanə, Kərəm bir yanə, mən bir yanəyəm.

Sailəm, mən bir zaman ölsəm də cövri yaridən,
Rindlər qəbrimdə ağlar, çünki mən rindanəyəm.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
• — — — / • — — — / • — — — / •— — —

Bu sənət aləmində, ey cavan, sən tifli qafilsən,
Girişmə mənlə cəngə həm də bəhsə, gərçi aqilsən.

Sənət meydanlarında baş ağardıb püxtələşdik biz,
Bizimlə addım atmaqçın cavansan, həm də cahilsən.

Mənəm ustadi-ə'zəm, sənətimdə şöhrətim vardır,
Bunu inkar edə bilməzsən əlbət, sənki adilsən.

Oxu sən şuri, şur ilə, nəvadən eylə bərdaşdi,
Arazbariylə məni, sonra sarənc eylə kamilsən.

Humayun ilə dəşdi, çarigah ilə əraqkabil
Oxu orta segahi, ən nəhayət eylə zabil sən.

Özündən yaşlı ustadın həmişə hörmətin saxla
Əyərçi sənətində sən təmamən saf və qabilsən.

Sənətkarlıq yolunda baş ağardıb həm qocaldın sən,
Cavanlıq getdi Sail, indi artıq sən də ahilsən.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Mizirab dəyəndə, necə fəryad eləyir tar,
Bu naleyə meyl etmədədir cümlə xiridar.

Hər pərdəni barmağları gəzdikcə müğənni,
Dərk etmədə, hər pərdədə var min cürə əsrar.

Kim dərk eləyir elmi-məqamatı, bilir ki,
Bu elmin ucaldılmasına vardır səbəbkar.

Keçmişdə bu şeytan əməli adlanır idi,
Azadə elimdə neçə məktəblərimiz var.

Tarın səsi heyran eləyir cümlə-cahanı,
Qəlbində nə niskil var isə, bil olur aşkar.

Vardır elə kəs, dərk eləmir musiqi elmin,
Bu həq sözü artıq gəliniz etməyək inkar.

Neyçin bu kitara əvəz etməkdədir tarı?
İzhar eləyin, bəs bu işə kimdir günahkar.

Ey tarı kitareylə bərabər tutan insan,
Səndə dəxi insafdən heç varmı bir asar?

Bu elm, mirasdır bizə əcdadlarımızdan,
Sevsin onu, əcdadına kimdirsə vəfadar.

Çün həzrəti Davud eləyibdir onu icad,
Oldur ki, olub musiqimiz qəmlərə qəmxar.

Rastım var, hümayun ilə həm Çarigahım var,
Dəsgah oxuyar məclis üçün əsli sənətkar.

Sail, dəxi bəsdir bu qədər, xətm elə şe'ri,
Arif səni tez anlayacaq, eyləmə təkrar.

****

**Səri-1:**
**Müftəilün / müftəilün / fA'ilün**
**— • • — / — • • — / — • —**

Ol gülü rə'na ola həmdəm bizə,
Neyləyəcək qüssə, kədər, qəm, bizə.

Oylə sədaqətli olaq, mərd olaq,
Həsrət ilə qoy baxa aləm bizə.

Ta yenə meyxanədə piri-muğan,
Eyləməsin mərhəmətin kəm bizə.

Ölçü ilə nuş eləyək badəni,
Qoy deməsin yoldan ötən dəm bizə.

Eşqi-məhəbbətdə hərarətliyik,
Çün babadır həzrəti Adəm bizə.

Zahidə söylə bizə versin şərab,
Bəs nə gərək, ab ilə zəmzəm bizə.

Azəriyik, dəhridə rindanəyik,
Hiylə ilə atmakinən rəm bizə.

Taki səxa əhli olaq, Saila,
Söyləyələr dəhridə Hatəm bizə.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Dilbəra, sən könlümü şad etməliydin, etmədin,
Qəlbimi qəmlərdən azad etməliydin, etmədin.

İllər ilə həsrətin çəkdim, unutdun sən məni,
Bu zavallı aşiqi yad etməliydin, etmədin.

Duz-çörək kəsdik, səninlə əhdi-peyman eylədik,
Pis günüm olduqda imdad etməliydin, etmədin.

Sındırıb könlüm evin, min bir günah etdin yenə,
Bu sınığ könlümü abad etməliydin, etmədin.

Söyləmişdin, eşqidə sən həzrəti İsa kimi,
Gizli bir mö'cüzə iycad etməliydin, etmədin.

Sən sədaqət aləmində, həm rəfaqət naminə,
Dostlar içrə, yaxşı bir ad etməliydin, etmədin.

Saila, fikrin, xəyalın, qüssənin, dərdin, qəmin,
Şiddətindən nalə, fəryad etməliydin, etmədin.

****

**Müctəs-2:**
**MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**
**• — • — / • • — — / • — • — / • • —**

Diyari-dəhridə ol şəxsin ki, nəzakəti var,
Yəqin ki, söz yox, onun əsli var, nəcabəti var.

Nəzakət hər kəsə dünyadə bil ki, vacibdir,
Bu şəxslərdə inan, yaxşılıq əlaməti var.

Kimin ki, bəd ola rəftari öz rəfiqi ilə,
O şəxsin dostlar arasında yüz xəcaləti var.

Mənə zəmanədə gün vermədi bu kinli fələk,
Mənimlə ol fələyin, sanki bir ədavəti var.

Paxil olan kəsə, yüz yaxşılıq da etsən əyər,
Gələr zəmani, görərsən ki, yüz xəyanəti var.

Şikəstə ney kimi nalə edər mənim könlüm,
Cəfayi-yardan, ey dil, onun şikayəti var.

Zəmanə içrə olar ülvi, sahibi-hörmət,
Kimin ki, aləmərə əqli var, fərasəti var.

Zavallı aşiqinəm, istə canimi verrəm,
Bu Sailin nəyi olmazsa, bil səxavəti var.

****

**Müzare-1:**
**Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**
**— — • / — • — • / • — — • / — • —**

Vardır şikayətim fələyi kəcmədaridən,
Neyçin o, hər zaman ayırır yari yaridən.

Bağі çəməndə seyrə dalıb diqqət ilə bax,
Bülbül şikayət eyləyir, çox vəxti xaridən.

Mən bir gül üzlü dilbərin eşqiylə dayima,
Qan-yaş töküb də, düşdüm həmən ixtiyaridən.

Aşiq gərək dözümlü ola hər bəlalərə,
Mənsə bezikmişəm daha səbri qəraridən.

Yandırdı eşq odu, ürəyim para-paradır,
Gör bir nələr çəkir gecə pərvanə naridən.

Bir vaxtı məhrəm idi o dilbər mənimlə, bax,
İndiysə düşmüşəm dəxi mən ehtibaridən.

Varmı cahanda aşiq ola naili-nigar,
Ayrıldı Qeys Leyli kimi gülüzaridən,

Sağlıqda Saili düşünüb yadə salmadın,
Öldükdə, axtararsan onu sən məzaridən.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Görcəy ol xurşidi ruyin, könlüm hər dəm şad olar,
Qan olan sevdalı qəlbim qüssədən azad olar.

Ad qazan, qoy hər görən həsrətlə yad etsin səni
İnsana ən yaxşı qiymət, bil ki, yaxşı ad olar.

Nəfsinə allanma, uyma, bir kəsə zülm eyləmə
Zülm ilə abad olan, bir gün gələr bərbad olar.

Sən, fəqirin tut əlindən rəhm elə, imdad elə
Bil ki, allahdan sənə hər bir zaman imdad olar.

Arxalanma qohum qardaşə, vəfa yox kimsədə
Ciblərin boş olsa, qardaş da səninçin yad olar.

Hər kimin qəlbi sınıqdır, könlünü abad elə
Hökm ilahiylə sənin könlün evi abad olar.

Yaxşılıq dünyadə Sail ən gözəl işdir, inan
Yaxşı insandan həmişə, yaxşılıq bünyad olar.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Firqətindən, ey fələk, könlüm evi viranədir,
Bu qədər zülm eyləməkdən məqsədin aya nədir?

Qoydun həsrət sən məni bir nazənin mehparəyə,
Qüssədən məskən mənə, bir kuşeyi-meyxanədir.

İnsana qismət cahandan, beş qarış bezdir, inan,
Nə qızıl, nə malü dövlət, nə də ki, kaşanədir.

Qəbr evin sal yadə kim, orda olar halın yaman,
Axırın fikr etməyən, aqil deyil, divanədir.

Dayima ömr eyləməzsən bu cahanda, bil ki, sən,
Bu fəna dünya əzizim anla kim, qəmxanədir.

Dostunu yaxşı tanı, hər şəxsə yoxdur ehtibar,
Dost yoxdur dünyada, ancaq bu söz əfsanədir.

Yaxşı gündə cə'm olar başinə cümlə dost, tanış,
Bil ki, pis gündə bütün dostlar sənə bikanədir.

Sailin bu həq sözün arif olan tez anlayar,
Çünki, bu sözlər qızıldır, dürrdür, dürdanədir.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Gəl bir gecəlik ol dəxi sən həmdəmim, ay qız,
Olmaz yenə ondan sonra dərdi-qəmim, ay qız.

Sənsiz gecələr, sübhə qədər fikir edirəm mən
Fəryad ilə, naleylə keçir hər dəmim, ay qız.

Ol səfheyi-sinəndə bitib cüft şəmamə,
Lütf eylə mənə, bir qədər ondan əmim, ay qız.

Eşqin yenə dəryasi təlatümdədir, ey gül,
Heç qorxma, toxunmaz daşa möhkəm gəmim, ay qız.

Onsuz da vəfasızdı zaman, əhdə vəfa yox,
Bir vaxt, sönəcəkdir mənim ömrü şəmim, ay qız.

Sail sənin eşqinlə biyabanlara düşdü,
Düzdür bu sözüm, yoxdur inan çəm-xəmim, ay qız.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Saqiya, mey ver içim, gəldi bahar əyyamı,
Məst olaq, doldur içək, bir də ləbaləb camı.

Mey büsatindən gərək, arif ola hər bir kəs,
Nəş'ədən zövq alaraq, bir də sevinsin hamı.

Ölçüdən çıxma kənarə, meyə göstər hörmət,
Dayima yad elə huşində Ömər Xəyyamı.

Meyi gülguni, həkimanə içək, nəş'ələnək,
Yenə zövq ilə, bu dünyadən alaq bir kamı.

Məst olub, vurma acıqla yerə peymanəni sən,
Bura qoymazlar əzizim, belə bir nadanı.

Çün Peyğəmbər də həram etdi o şəxsə meyi kim,
Məst olub mürküləyə, almaya bir ilhamı.

Nəş'ə ilə keçirib dayim həyatin, Sail,
Dəri-meyxanədə sübh eylədi, bu axşamı.

****

**Müctəs-2:**
**MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**
**• — • —  / • • — — / • — • —  / • • —**

Cahanda könlümüzün rəhnüması musiqidir,
Məqami eşqidə, dərdin dəvasi musiqidir.

Yaralı dərdlərə şəfqət verir sədası ilə,
Sınıq könüllərin, ey dil, şəfası musiqidir.

Dəyəndə simlərə mizrab, nalə qaldıracaq,
Qəzəl oxursa müğənni, sədası musiqidir.

O qədər nalə edər, nalədən kaman ağlar,
Bu inləyən kamanın da nəvası, musiqidir.

Şərab ola, mey ola, bir də can alan dilbər,
Sevənlərin dəxi zövqi səfası musiqidir.

Sədayi-musiqi, insanə min fərəh verəcək,
Zavallı könlümüzün aşinası musiqidir.

Bəşər deyildir o kəs, musiqini sevməsə gər,
İnan ki, cümləmizin xoş dühası musiqidir.

Gər ölsə Sail əyər, musiqiylə dəfn ediniz,
Sədaqət aləminin həm əsası, musiqidir.

****

**Rəməl-2:**
**FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Saqiya, mey ver içim, məsti xumar etsin məni,
Bir nəsihət söyləyim, guş eylə sən hər kəlməni.

Mali, mülkə, dövlətə allanma arifsən əyər,
Çünkü, dünyanın malı, bir kimsəni etmir qəni.

Dost tapmazsan bu aləmdə, bu söz əfsanədir,
Diqqət ilə yoxla sən, hər bir zaman dörd dövrəni.

Nə qədər cismində can var, öz həyatın şən keçir,
Taki, torpağ çəkməmişdir kamına gül çöhrəni.

Eyşi-işrət məclisində iç şərabi-laləkun,
Məsti mədhuş ol, yaxın qoyma gələ qəm-qüssəni.

Uyma, hər qəlb oxşayan bir lalə üzlü dilbərə,
Çünki aləm bivəfa söylər dəxi, əhli zəni.

Ehtibar etmə, uzaqlaş, bivəfalərdən sakın,
Məskən eylə sən özünçün, bir qənaət kuşəni.

Yoxsula əl tut, fəqirə rəhm elə, imdad elə,
Yıxma ev, qoyma özündən incisin bir kimsəni.

Heç də uyma bu fəna dünyayə, çünkü bir zaman,
Qoymadı təxtində, İskəndər kimi sərkərdəni.

Qoydu həsrət Şirini Fərhadə, Qeysi Leyliyə,
Şeyx Sən'ani Xumarə, Tahirinə Zöhrəni.

Sail, baş əymə namərdə, məsəl var xəlqidə,
"Keçmə namərd görpüsündən, qoy aparsın sel səni".

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Rəhm elə, ey nazənin, qoyma məni zar ağlayım,
Aşiqəm, bilmə rəva, dərdə kiriftar ağlayım.

Dəb deyil aşiqlərə zülm eyləmək, ey nazlı yar,
İndi mən məcnun kimi bilmərrə naçar ağlayım.

Sil gözüm yaşın, sitəm etmə mənim tək yarinə,
Rəhm elə, bir busə ver, qoyma ki, ey yar, ağlayım.

Musiqi çaldır, gözəl dilbər sənə versin şərab,
Gər kamança qoysa da, qoymaz məni tar ağlayım.

Saila, bas bağrına zülfi-siyah nazlı yarı,
Çünkü basdım bağrıma, qoymaz ki, qəmxar ağlayım.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Həqqi nahəq tapdayar, həqqin yolun bədxah kəsər,
Zülmükarın qismətin xəncər kimi bir ah kəsər.

Ov nə qədri mahir olsa, qaçsa dayim ovçudan,
Bir gün əlbət əhdini bir ovçu, bir səyyah kəsər.

Güclü bir kəs zülm edərsə gücsüzə eyb eyləməz,
Çünki onun da nəfəsin ondan dəxi gümrah kəsər.

Olma bais ruziyə, çünki, məsəl var xəlqidə,
Bais olan ruziyə, bil ruzini allah kəsər.

Gər günahkar olsan axır, bir zaman həq divanı
Əhdə sadiq olmayan şəxsi, haman, nagah kəsər.

Saila, bir kimsəyə zülm eyləmə dünyada sən
Bil ki, ömründən sənin ol həqqi-şahənşah kəsər.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / •— — —**

Deyirlər ehtibar olmaz bu mürvətsiz gözəllərdə,
Yalandır, işlənir bu cümlələr, ancaq qəzəllərdə.

Əyər Leyliylə olsaydı, alardı Qeysi aquşə,
Böyüklər, valideynlər saldı Məcnuni yaman dərdə.

Vəkili, ixtiyarı, qızların çün valideynlərdi,
Bu bir adət idi öz xalqımızda çox əzəllərdə.

Atam çoxdan vəfat etmiş, anamdır pasibanım, bil,
Gər olsaydı vəfasız, olmalıydı başqa bir ərdə.

Var indi oylə kəslər ki qadından da ədasızdır,
Özü biehtibar, satqın, həya yoxmu o kəslərdə.

Əyər firsət taparsa, bil ki, pambıqla kəsər başı,
Xuda heç etməsin möhtac, cahanda mərdi, namərdə.

Hər iki cinsidən Sail, cahanda bivəfa vardır,
İki cinsi arasında gərəkdir saxlamaq pərdə.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Ey, mənim ömrüm boyu könlüm evin bərbad edən,
Bu sitəmdən bixəbərdir bizləri icad edən?

Bil ki, cövrindən sənin, könlüm evi səd parədir,
Tirədir bəxtim, dəxi yoxdur mənə imdad edən.

Pislik ilə yaxşılıqdır, dəhridə dayim qalan,
Dünyada rəhmət qazanmış, yaxşılıqla ad edən.

Özkənin bir səhvini, yüz dəfə artırma əbəs,
Sən düzəlt öz səhvini, ey özgəyə irad edən.

Hər kəs öz cananı ilə, eyş ilə işrətdədir,
Yoxdur bir kəs bu cahanda, mən fəqiri yad edən.

Saila, gör yaxşı olsa sənlə könlün həmdəmi,
Bil ki, ovrətdir evi abad edən, bərbad edən.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Zahid, bizə ver şadlığı, qoy qəm sənin olsun,
Sazəndə üçün toy, quru matəm sənin olsun.

Doqquz ayı şadlıq edərik bir il içində,
Mahi-rəməzan ilə, məhərrəm sənin olsun.

Yurdumda gözəllər yaranıb, gözləri şəhla,
Həvva ilə ol, həzrəti Adəm sənin olsun.

Azadə diyarım dəxi cənnətdir mənimçin.
Ol nisyə behişt ilə cəhənnəm sənin olsun.

Sən mürgülə rö’yadə, düşün abi-həyati,
Zəmzəm suyu kəhriz ilə bahəm, sənin olsun.

Sən dəymə bu dünyadə bizə, lakin o dünya,
Saila, dəxi eyləmə çəm-xəm, sənin olsun.

****

**Rəməl-2:**
**FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Eşqin ancaq ləzzətin bulmaq olur hicranidə,
Sevgi vardır dəhridə hər bir sevən insanidə.

Saf məhəbbətlə gərək sevsin müdam aşiq olan,
Çünki nadanlar dilində qalmasın nöqsanidə.

Ol məhəbbət aləmində çox dərin mə’na olur,
Hər bəlayə dözməyə amadə ol meydanidə.

Sinəni qalxan edib hər bir əzabə dözməli,
Sən vüsal axtar dəxi olsa sənə səhmanidə.

Döz bəlayi-eşqə ancaq dəhridə, Məcnun kimi,
Saxladı eşqin sükanı ən çətin tufanidə.

Saila, Məcnuni aşiq bilməyən, arif deyil,
Sureyi vəlleyli var çün ayeyi qur'anidə.

****

*Hörmətli şairimiz Ə. Vahidin*
*vəfatı münasibətilə*

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Bu dari fənadən, kimisi şah idi getdi,
Kimsi gül üzü nuri saçan mah idi, getdi.

Ad qoy bu cahan içrə, ölərkən deməsinlər,
Hal əhli deyildi, özü bədxah idi getdi.

Çox türfə gözəllər kömülüb xakə, əzizim
Bir çoxları da, bizlərə həmrah idi, getdi.

Bu qanlı fələk, fitnəsini işlədib hər an
Dünyadə inan, çoxları gümrah idi, getdi.

Fir'on deyirdi, mənəm allah yer üzündə,
Bilməm bu riyakar, necə allah idi getdi?

Ta sübhə qədər, dün gecə, qan ağladı Sail,
Ustadi qəzəl, xəlqimizin Vahidi getdi.

****

**Rəməl-2:**
**FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Ey fələk, bu gərdişindən biz gərək dad eyləyək,
Qəlb evin qəm-qüssədən hər dürlü azad eyləyək.

Çox saraylar etmisən viranə sən bu dəhridə,
Sən çalış bərbad elə, bizlər də abad eyləyək.

Musiqi hər dərdə dərmandır deyirlər dəhridə,
Ol büsati-musiqiylə, cümləni şad eyləyək.

Bəs hanı Cabbar, Ələsgər, Zülfü, İslam, Gəlbüse
Yoxdur qüdrət bizdə bunlardan biz icad eyləyək.

Keçəçi Məmməd, Bilal, artıq dəxi xak içrədir,
Yox buna hacat dəxi bir-bir sayıb ad eyləyək.

Ey sənət sahibləri, hörmətlə dövran eyləyin
Çün gərək bir-birimizə bizlər də imdad eyləyək.

Saila, ustad müğənni dün gedibdir rəhmətə
Ey cəmaət, şuşalı ol Seyyidi yad eyləyək.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Bu baği-çəmənzaridə, bir qönçələbim var,
Onsuz bu cahan içrə nə ruzim, nə şəbim var.

Ey bəxt yetər, uyğuya getmə, sayıq ol sən,
Çün səndən hələ ömrü boyu çox tələbim var.

Ya məqsədə nail olaram, ya ölərəm mən,
Can verməyə meydanimə gəlsin dəxi kim var.

Dayim atını dörd nala çapmaqda cavanlıq,
Bu maniədən çərxi-fələkdən kileyim var.

Mülküm mədarım, həm qızılım, simu-zərim, yox,
Bəxşayiş üçün verməyə, saf bir ürəyim var.

Sail onun eşqiylə bu gün seyrə çıxıbdır,
Yoxsa bu çəmənzardə mənim nə kərəyim var.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Şadəm mənə yar, sən kimi bir şux sənəm olsa,
Fikr eyləmərəm mən, dəxi min dərdü qəm olsa.

Mən qəlbimi tək bir sənə verdim, gözəl afət,
Baxmam birinə, cümlə gözəllər də cəm olsa.

Pərvanə yanar eşq oduna, heç səsi çıxmaz,
Sonra, ona göz yaşı tökən, odlu şəm olsa.

Dayim çalışıb, həqqi tərəfdarı ol, ey dil,
Bədbəxt olar, həqqin nəzəri kimdə kəm olsa.

Dayim keçəcək günlərimiz şadü firavan,
Bil ki, bu işə təkcə xudadən kərəm olsa.

Məclisdə sanarlar o kəsi yaxşı sənətkar,
Sail, o müğənnidə əyər zilu bəm olsa.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / •— — —**

Məsəl vardır xəlayiqdə, deyirlər söz arasında,
Kimi üryan gəzər, kimsi ipəklə xəz arasında.

Əyər ziddiyyəti olsa, bu dünyadə iki dostun,
Gərəkdir saxlasın sirrin, onunla öz arasında.

Həqiqi bağbansansa, şəmamə tağını əzmə,
Çəkib ətri-şəmamə, asta-asta gəz arasında.

İşi ahü-fəqan olmuş müdam, aşiqlə mə'şuqin,
Həmişə ayrılıq, hicran olur tez-tez arasında.

Qara torpaqdır son mənzil, əgərçi hökmüdar olsan,
Qoyurlar qəbrə insanı beş arşın bez arasında.

Könüldə qoyma bir həsrət, ömür çox qıssadır Sail,
Əcəl durmuşdur amadə, qaş ilə göz arasında.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
• — — — / • — — — / • — — — / •— — —

Nigara, küsmə məndən, əfv elə, bəlkə günahım var,
Sınıq qəlbimdə dağlar titrədən, qüvvətli ahım var.

O gül üzdə, qara xalın görəndə, sızlayır qəlbim,
Kaman tək qaşlarında, həm qara gözdə, təmahım var.

Köməksiz bir kəsəm, yox bir kəsim, bu fani aləmdə,
Qohum yox, həmdəmim yox, təkcə tanrımdan pənahım var.

Səni mən sevmişəm, bir söz olar insan olan kəsdə
Sözüm sözdür, özüm qeyrətli, başımda külahım var.

Xəzinəm var sinəmdə, sözlərim lə'l ilə gövhərdir,
Əyərçi istəsəm, satmağa hər dürlü mətahım var.

Məni incitməz bir kəs Saila, fikir etmərəm, çünkü
Ümidim, pasibanım, həqqi dərgahi ilahım var.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Bir çarə gəlin, aşiqi-nalanə edin siz,
Tapsaz dəxi dərmani, həkimanə edin, siz.

Sağlığda günüm keçdi şərab ilə, həmişə,
Gər ölsəm əyər, qəbrimi meyxanə edin siz.

Qurt-quşlara yem olsa da cismim dəxi, sonra,
Olmazsa qədəh, gəlləmi peymanə edin siz.

Əl'an sümüyümdən götürüb bir neçə parça,
Ol sevgili cananım üçün şanə edin siz.

Dünya zəmidir, qanlı fələk kinli biçinçi,
Dayim çalışıb, hörməti insanə edin siz.

Bu Saili, qəhr etsə əyər qanlı təbiət,
Ey dustlərim, şeyrimi dürdanə edin siz.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Guşi qıl, sən bircə an, ey ağ olan ustadına,
Xudpəsəndlik heç yaraşmaz bir sənətkar adına.

Çün sənətkarə gərək, xəlq sevib qiymət verə,
Gəncsən, çox tez gedərsən şani şöhrət badına.

Gər həvəslə bircə an, şuri nəvadən başlasam,
Qərq olarsan heyrətə, bəs kim yetər imdadına.

Musiqi elmi əzizim bil ki sən, asan deyil,
Həzrəti Davud əzm etmiş bunun iycadına.

Çox sənətkarı qara torpaq çəkib aquşinə
Seyyid ilə Zülfünü, həm Cabbarı sal yadına.

Saila, amadə ol, dünyayə yoxdur ehtibar,
Sənətində xidmət eylə, Azəri övladına.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Ey gül, o keçən dəmləri dayim anıram mən,
Əğyar ilə gördükdə səni odlanıram, mən.

Sən şəm isən hərgah, mənə pərvanə demişlər,
Odur ki, məhəbbət odu ilə, yanıram mən.

Əğyar ilə keçdin, məni mə'na ilə süzdün,
Çün arifəm, hər sirri əzəldən qanıram mən.

Bir gün gedəcəkdir bu gözəllik, qocalarsan,
Bu sirri, cəsarətlə həqiqət sanıram mən.

Kim əhdə vəfasızdır, sonu qəm-kədər olmuş
Sanma ki, bu zənnimdə dəxi allanıram mən.

Sail, o, vəfasız yaranıb körpəliyindən
Çün əhli vəfa şəxsi, gözündən tanıram mən.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Bir zamanlar bəxtəvərliklə ucalmış, ey könül,
Sonra hicri-yaridən qüsseylə dalmış, ey könül.

Çox bəlalər çəkmisən biganələrdən bir zaman,
Qonça vəxtində həmən solmuş, saralmış, ey könül.

Bəxt bir yandan sənə cövri sitəmlər eyləmiş,
Çox saraylar tək, uçub viranə qalmış, ey könül.

Bari bir dəm şad qıl sən çöhrəmi, insaf elə,
Dayimə ətrafını dərd, qəmlər almış, ey könül.

Bə'zən əqrəb tək səni sancmış dəxi biganələr,
Bir çoxu əf'i ilan tək bir də çalmış, ey könül.

Sən də Sail tək, cəsarətlə dayan meydanidə,
Qəddini tez əymə çox, vəxtsiz qocalmış, ey könül.

****

**Müctəs-2:**
**MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**
**• — • — / • • — — / • — • — / • • —**

Fələk qoyub necə həsrətdə vəsli-yarə məni,
Xuda də xəlq eləmiş sanki, bəxti qarə məni.

Cahanda gül tək açıldım, əcəbdə tez soldum,
Əsəndə badi-xəzan, döndəribdi xarə məni.

Öləndə şöləlvarenib qəbrim, od tutub yanacaq,
Bu qüssə ilə əyər qoysalar məzarə məni.

Neçin bu can sıxıcı dəhridə üzüm gülməz,
İlahi, xəlq elədin söylə bəs nəkarə məni.

Kimə ki, dost deyib əhdilə mən and içdim,
O da düçar elədi möhnətə dübarə məni.

Gözəllər içrə sevirdim, gül üzlü bir dilbər,
Nəsibim olmadı, sövq etdi ahu-zarə məni.

İlahi, Saili dünyadə naümid qoysan,
Sənə xuda deməərəm, çəksələr də darə məni.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Belə xoş günlər üçün borcluyam hər an, Vətənə,
Hazıram etmək üçün canımı qurban, Vətənə.

Çünkü azadə diyarım, günü-gündən ucalır,
Qəlbidən söyləyirəm şövq ilə mən can, Vətənə.

Sevki azad, söz azad, oxumaq azaddır,
Xidmət etsin gərək hər vaxt, hər insan, Vətənə.

Vətənimdir biliniz, nazlı gözəllər yurdu,
Can nisar etmək üçün, hazıram əl'an Vətənə.

Sailəm mən, inanın köksümü qalxan edərəm,
Pis nəzərlə əl atarsa yağı, düşmən, Vətənə.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Dəhridə bir kəs mənimtək, heç pərişan olmasın,
Eşqidən nalan gəzib, çöllərdə giryan olmasın.

Yusifin illər boyu, zindanlar olmuş məskəni,
Varmı bir aşiq nəhayət, əhli-zindan olmasın.

Sülh ilə ömr eyləsin aləmdə, bu cinsü bəşər,
Cəhd edin bu fani dünyadə, nahaq qan olmasın.

Valideyn övlad üçün illər boyu zəhmət çəkir,
Cəhd edin onlar dəxi, çaki giriban olmasın.

Olmayın cahi-cəlal, mülki imarət düşgünü,
Bir imarət tapmazsan, axırda viran olmasın.

Yaxşılıq bu yer üzündə payidar olsun gərək,
Mərdüməzarı görüm, dərdinə dərman olmasın.

Bir nəfərdən Saila, bir şey təmənna eyləsən,
Xahiş eylə ol kəsə, ancaq ki, fərman olmasın.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Parlaq görünür ol gül üzün, mah yanında,
Ömrüm boyu, ey gül, olum həmrah yanında.

Vəslinlə məni şad elə, ey nazlı nigarım,
Bəsdir elədim qüvvə, kədər, ah, yanında.

Onsuz da ömür qısa, həyat isə mürəkkəb,
Torpağda gəda, dəfn olunur şah yanında.

Dünyadə gözəllik evinin tanrısı sənsən,
Səcdə edirəm mən yenə dərgah yanında.

Ömrüm boyu mən sevmədəyəm odlu muğamı,
Çünki quru təsnif nədir seygah yanında.

Nadanlar əyər sevməsə Sail səni, umma,
İnsan əziz olsun gərək allah yanında.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / •— — —**

O dilbər ki, durar sübhi səhər, zülfə vurar şanə,
Siqəl vermiş yenə min dürlü, ol zülfü pərişanə.

Onun eşqiylə çoxlar məskən etmiş, boş quru səhra,
Özü pəjmürdəhal olmuş, dəmadəm, saki divanə.

Kəməndi-eşqinə bir kəs ki düşsə, çarəsi olmaz,
Günəştək fitnə rüxsarı, salıbdır çoxların qanə.

Çatıbdır indi növbət, mən kimi biçarəyə, yarəb,
Görəntək gül üzün, niskilli könlüm oldu viranə.

Yanır eşq ilə cismim, gözlərim yolda, özüm yalqız,
Kömək qıl sən mənə, ey döndərən müşkülü asanə.

Mənəm eşqin yolunda eyləyən öz canını qurban,
Keçən varsa şirin candan, buyursun indi meydanə.

Vəfasızdır bu dövran, ehtibar etmə bu dünyayə,
Təmiz ad, yaxşılıq, mərdlik qalır, aləmdə insana.

Çalış ki, Saila, dünyadə xoş keçsin günün dayim,
İnan ki, söylənən cənnət, cəhənnəm hamsı əfsanə.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Sadə insan olanın, qəlbi dəxi sadə qalar,
Yaxşı övlad, ata fərmaninə amadə qalar.

Ac gözü doydura bilməz, nə qədər sərvət ola,
Dayima fikri, xəyali, zəri-zibadə qalar.

Bir zərər dəysə əyər sərvətinə, fikr eləmə,
Qərq olan bir gəmi, illər boyu dəryadə qalar.

Nə qədər yığsan əyər, bil ki, sənə qalmayacaq,
Qaydadır ki, atanın dövləti övladə qalar.

Sərvətin varsa əyər, sərf elə can sağlığına,
Ömr əmanətdir əzizim, hamısı yadə qalar.

Gün gələr, quş kimi cismindən uçar can, bunu bil,
Rəsmidir ki, həməvaxt mey içilər, badə qalar.

Saila, simu-zərə, sərvətə, mülkə, uyma,
Yaxşı derlər ki, bu,—"dünya malı dünyadə qalar".

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Dəmbədəm meylim mənim dayim meyi-səhbadədir,
Nuş edərkən badəni, qəmdən könül azadədir.

Qədri meyxanə nədir, zahid bunu heç anlamaz,
Çünki cahildir, həmişə gözləri rö'yadədir.

Açma cənnətdən, cəhənnəmdən bizə söhbət dəxi,
Cənnət ilə həm cəhənnəm bil ki, bu dünyadədir.

Cahil insan, heç düşünməz ömrünün mə'nasını,
Cümləmiz biz canlıyıq, bil əsli iş mə'nadədir.

Sadəlik, insan üçün hər yerdə hörmət artırar,
Hörmət eylərlər o şəxsə, kim ki, qəlbi sadədir.

Məclisi meyxanəyə rövnəq verən sorsan nədir?
Musiqidir söylərəm, bir də gül üzlü badədir.

Saila, beş günlük ömrü, keyf ilə vur başə sən,
Sərhesab ol, dayimi durmuş əcəl, amadədir.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Bu yazıq könlüm həmişə qəmi möhnətdə olur,
Qəlbimiz cövri-cəfadənmi şikayətdə olur?

Bu nə adətdir bu dünyadə sevən aşiqlər,
Yaxşı gün görməyərək, dayim əziyyətdə olur.

Simu-zər kimdə var isə, bu cahan mülkündə,
Elə kəslər həmişə rütbədə, hörmətdə olur.

Çünkü dövlət kətirir insan üçün şan-şöhrət,
Dövlətin varsa sənə cümlə itaətdə olur.

Kiminə tanrı dəxi bəs qədər övlad verir,
Verməyir simu-zəri, dayim əziyyətdə olur.

Saila, mən nə deyim gərdişi dövranə dəxi,
Bəlkə, bu sirrilərin təxsiri hikmətdə olur.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Candan artıq sevmişəm mən, can alan bir dilbəri,
Görmədim bir dilrübadə boylə şəhla gözləri.

Əqlimi aldın, itirdim huşimi divanə tək,
Ol qara zülfün, günəş ruyin görən gündən bəri.

Bir qızıl gül tək, saçırsan ətrini, hər yana sən,
Hüsnünə heyran qoyubsan lalə, mişki-ənbəri.

Kim yetirsə vəslinə, dünyadə ən xoşbəxt odur,
Çünki ol şəxsin cahanda olmaz heç dərdi səri.

Hər görən söylər sənə əhsən, bu hüsn ilə bunun,
Məcnunu məftun edən, Leylayə vardır bənzəri.

Kim sənə kəc baxsa, qoy tanrım zəlil etsin onu,
Hökm ilahiylə o şəxsin görməsin heç gözləri.

Qədrini Sail bilir, çünkü, məsəl var xəlqidə,
"Qədri zər, zərgər şünasəd, qədri govhər, govhəri".

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
• — — — / • — — — / • — — — / •— — —

Nigara, gözlərin şəhla, dilin şəkkər, ləbin güldür,
Vüsalinlə məni şad et, bu miskin qəlbimi güldür.

Əyər qəsd etmək istərsən, bu şirin canıma canan,
Sözüm yoxdur, heç olmazsa, bu məksudi mənə bildir.

Verəndə qətlimə fərman aman ver, seyr edim hüsnün,
Amansız baş kəsən cəllad, cəfakeş, həm də qatildir.

Çalış ki, əhli-halə dərdini izhar qıl deyim,
Əyərçi əhli-qalə söyləsən, təfsili müşküldür.

Bu dünya mülkü, beş günlük qaranlıq nəmli bir mənzil,
Uyan dünyayə, bil nadan müsafir, həm də qatildir.

Nə qədri sağisən, meylə, şərab ilə keçirt ömrün,
Şərabi zahid içməz, çünkü nadandır və cahildir.

Bu dünya Saila, bir şəxsə etmir ehtibar, bir an,
Bu fani aləmə uymaz əzizim, kim ki aqildir.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Bir şəxsə ki, aləmdə bəla gəlsə səmadən,
Bir çarə tapılmaz ona əbnayi binadən.

Bəxtində nə yaxmışsa sənə bil ki, təbiət,
İcra olacaq, cəhd elə qurtar o xətadən.

Bir məclisə düşsən, özünü öymə, öyünmə,
Həm bilmədiyin bir sözü öyrən ürəfadən.

Ey dilbəri tənnaz, mənə bəsdir bu cəfalər,
Əl çək bu qədər eylədiyin cevri-cəfadən.

Pir oldum inan, gərdişi-devran sitəmindən,
Bir an belə ayrılmayır heç dəstim əsadən.

Sail, bizim eldə belə bir zərbi-məsəl var,
"Heç kəs qaça bilməz dəxi, təqdiri-qəzadən".

****

**Rəməl-6:**
**Fə′ilAtün / fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • — — / • • —**
Rəsmidir, zövq verir məclisə xanəndə səsi,
Xoşdur hal əhli üçün söhbəti, şirin nəfəsi.

Başqa bir ləzzəti var, əldə ola badeyi-nab,
Çalsa tar nəğməsini, qəlbə dolur mey həvəsi.

Meyi Xəyyam kimi iç, hörmət elə badəyə sən,
Çalış əksilməsin heç, hörmətinin mərtəbəsi.

Kim ki, hal əhlidir, meyxanədə ta sübhə qədər,
Məsti mədhuş olacaq, çün var onun təcrübəsi.

Yar əlindən alasan badəni, nuş eyləyəsən,
Olacaqdır bu işin, gör nə gözəl mənzərəsi.

Sailə, musiqidir ruhə qida, bir də ki, mey,
Bu iki şeydir, sevən şəxslərin dadi rəsi.

****

**Müctəs-2:**
**MəfA′ilün / fə′ilAtün / məfA′ilün / fə′ilün**
**• — • — / • • — — / • — • — / • • —**

Nədəndir aşiqə qismət cahanda zillət olur,
Bu işdə bəlkə də bir sirr var, bir illət olur.

Həmişə aşiq olan şəxsə min bəla toxunur,
Nəsibi isə bu dünyada, qəm, küdurət olur.

Elindən ayrı düşür, məskəni olur səhra,
Gəzib dolandığı yerlər diyari-qürbət olur.

Görəndə yarını, könlü olur bir anlıq şad,
Yaralı qəlbinə hər dəm bir azca şəfqət olur.

Həqiqi aşiq olan, can fəda edər yarə,
Bu da vəfasız olan kəslərə bir ibrət olur.

O gün ki, yadına düşdü, sevimli rə'nasi,
Fəqan edər, sanasan həşrə min qiyamət olur.

Bu Sail, içsə nigariylə badeyi gülgun,
O badə zəhr də olsa, dönüb də şərbət olur.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Yenə də cismi xuramanımı gördüm bu gecə,
Sərv tək qönçeyi-xəndanımı gördüm bu gecə.

Sübhədək, şux məməsin tifl kimi oynatdım,
Bağımın sünbülü reyhanını gördüm bu gecə.

Bu ox atmaqla nə vaxtdan belə məşhursan, a qız,
Oxladın sineyi-müjganımı gördüm bu gecə.

Belə nahəq qana neyçin sən olursan bais,
Axıdıbsan yenə də qanımı gördüm bu gecə.

Daha can qalmadı məndə, gözəlim, insaf et,
Aldın əldən dəxi imanımı gördüm bu gecə.

Bu qədər rəhmisiz olmaz, can alan bir dilbər,
Sən alırsan gözəlim canımı gördüm bu gecə.

Kamil ilə oturub söhbət edərkən Sail,
Qurtarıb bir belə dastanımı gördüm bu gecə.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

*Dostum xanəndə Hacıbaba Hüseynova*

Dəli könlüm yenə Məcnun kimi səhradə durar,
Üz-üzə durmaq üçün dərd ilə amadə durar.

Həmdəm olmuş yenə də, çöldə gəzən vəhşilərə,
Hər cür insan törədən fitnədən, azadə durar.

Ya əlindən nə qədər cövri cəfa çəkdi könül
O, cəfapişələri həm salaraq yadə durar.

Başinə yağsa da odlar buna heç mə’n eləməz,
Saf əməl, həm təmiz ad çünki bu dünyadə durar.

Hər yetən öz sözü üstundə sərasər durmaz.
Sözü üstündə müdam, əsli halalzadə durar.

Saila, yaxşı demiş Mirzə Ələkbər Sabir
“Bənzərəm bir qocaman dağə ki, dəryadə durar”.

****

## DİNC OTUR

Sakit adam dəhrdə görməz zəval,
Hörmət edər dinc adama əhl-hal.
Ta ki, əcəldən nə qədər var macal,
İşlərini daima sülh ilə qur.
İstər isən dinc olasan, dinc otur.

Həm böyügə, həm kiçigə ver salam,
Cümlə edər, bil ki, sənə ehtiram.
Badəni etmişdi peyğəmbər həram,
Mey içibən etməgilən çox qürur,
İstər isən dinc olasan, dinc otur.

Özgəni təhqir eləmə dünyada,
Ömrü hədər verməgilən sən bada,
Dostlarını hörmət ilə sal yada,
Sadiq olub dostuna amadə dur,
İstər isən dinc olasan, dinc otur.

Gər vurub öldürsən əgər özgəni,
Başqa biri öldürəcəkdir səni,
Vaxt varikən eyləgilən tövbəni.
Çünki ölən bir daha etməz zühur,
İstər isən dinc olasan, dinc otur

Sən böyügə hörmət edərsən əgər,
Cümlə kiçiklər sənə hörmət edər.
Sadəliyin boş yerə getməz hədər,
Dəhrdə sən sadə dolan, sadə dur,
İstər isən dinc olasan, dinc otur.

Bil ki, nəsihətdi sözü Sailin,
Dərsdi, ibrətdi sözü Sailin,
Xəlqinə hörmətdi sözü Sailin,
Saçmadadır sözlərim aləmdə nur,
İstər isən dinc olasan, dinc otur.

## ƏLİBABA MƏMMƏDOV (1930-2022)

Azərbaycan mədəniyyətinin ən görkəmli nümayəndələrindən biri olan Əlibaba Məmmədov 1930-cu il fevralın 5-də Bakının Maştağa kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1956–1960-cı illərdə Asəf Zeynallı adına Bakı orta ixtisas musiqi məktəbində məşhur xanəndə Seyid Şuşinskinin sinfində musiqi təhsili almışdır.

Əmək fəaliyyətinə 1940-cı illərin sonunda Azərbaycan Dövlət Filarmoniyasının solisti kimi başlayan Əlibaba Məmmədov 1968-ci ildə Azərbaycan Dövlət Filarmoniyası nəzdində yaratdığı "Hümayun" xalq çalğı alətləri ansamblına otuz il boyunca rəhbərlik etmişdir. O, eyni zamanda, 1978–1988-ci illərdə "Azkonsert birliyi"nin solisti olmuşdur.

Ustad xanəndənin xüsusi məharətlə ifa etdiyi "Rast", "Şur", "Bayatı-Şiraz", "Rahab", "Dəşti" və başqa muğam dəstgahları kamil sənət nümunələri səviyyəsinə yüksəlmiş və musiqi mədəniyyətimizin qızıl fondunda özünə həmişəlik yer tutmuşdur. Geniş repertuarı, məlahətli səsi və bənzərsiz ifa tərzi Əlibaba Məmmədova muğamsevərlərin böyük rəğbətini qazandırmışdır. Sənətkarın müqtədir şairlərimizin şeirlərinə sözlə musiqinin uğurlu vəhdətində bəstələdiyi çox sayda mahnı və təsniflər dillər əzbəri olmuş, dinləyicilərin qəlbində silinməz iz qoymuşdur.

Əlibaba Məmmədov xanəndəlik fəaliyyəti ilə yanaşı, 1963-cü ildən etibarən yarım əsrdən artıq bir dövr ərzində indiki Bakı Musiqi Kollecində, Bülbül adına Orta İxtisas Musiqi Məktəbində və Azərbaycan Milli Konservatoriya-

sında dərs demiş, muğam sənətinin incəliklərini gənc ifaçılar nəslinə aşılamışdır.

Milli musiqi mədəniyyətinin inkişafı sahəsində nailiyyətlərinə görə Əlibaba Məmmədov 2000-ci ildə Azərbaycan Respublikasının ali mükafatlarından olan "Şöhrət", 2010-cu ildə "İstiqlal" və 2020-ci ildə "Şərəf" ordenləri ilə təltif edilmişdir.

Xalq artisti, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Əlibaba Balaəhməd oğlu Məmmədov 2022-ci il fevralın 25-də ömrünün 93-cü ilində vəfat etmişdir.

Əlibaba Məmmədovun az sayda şeirləri məlumdur. Toplaya bildiklərimizi bu kitaba daxil etmişik.

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Saqiya gör nə gözəldir yığılıb hamı bu gün,
Ki, fərəhlə götürür hər kəs ələ camı bu gün.

Bəzənib güllə, gözəllərlə ziyafət gecəsi,
Xəlqə layiqdir görə bir belə əyyamı bu gün.

Verginən cami şərabı içək ondan saqi,
Hərə öz fikri ilə yad edə Xəyyamı bu gün.

Baxır ata-analar fəxr edir bu ki, deyir hamı,
Görə güllər ilə, gördük arzu kamı bu gün.

Sevimli xəlqimizə ruhu qida vermək üçün,
Birazca sakit olaq dinləyək muğamı bu gün.

Əlibaba şura gəlib, şur oxuyur şur ilə,
Xəlq ona sidgi ürəklə verir ənamı bu gün.

****

**Təkbeyt**

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • /• — — • / • — —**

Cananıma can bəxş edirəm can gedir əldən.
Can qeydinə qaldıqdasa canan gedir əldən.

****

**Bəstələdiyi mahnıların mətnləri:**

Qızıl ulduz alan gözəl,
Gözün aydın, vətən qızı,
Qızıl ulduz alan gözəl.
Sərv boyun, qara gözün
Edib xəlqi heyran, gözəl.
Qol çırmayıb gir yarışa,
Sıralardan qalma, gözəl.
Ucalt sülhün bayrağını,
Şərəfinlə ad al, gözəl.
Qızıl ulduz alarkən sən
Alqışladı səni vətən.
Döşündə var zəhmət eşqi,
Məni eşqə salan gözəl.

****

**"Dəşti" təsnifi**

Sənin eşqin məni gətirdi dilə,
Necə aşiq olur bülbüllər gülə.

Həsrət çəkdim,
Səni sevdim,
Könül verdim mən,
Belə bir gözələ.
Eşqimi təzələ,
Şe'rə, qəzələ
Könül verdim
Şe'rə, qəzələ.

Əgər məndən ayrı gəzib dolansan,
Məni öz eşqinə biganə sansan,

Alışaram,
Od tutaram,
Həm yanaram mən.
Unuda bilmərəm,
Sənsiz mən gülmərəm.
Könlümü vermərəm,
Heç kəsə mən
Könül vermərəm.

## AĞAKƏRİM NAFİZ (1948)

Ağakərim Ağa İsrafil oğlu İsrafilbəyli (d. 04.12.1948, Şamaxı, Qaladərəsi kəndi) – muğam ustası, xanəndə, şair. 1989-cu ildə Ağdamda keçirilmiş "Xarı bülbül" muğam müsabiqəsinin qalibi olmuşdur. 1997-ci ildə Ağakərim Nafiz haqqında Azərbaycan telefilm "Naməlum səs" adlı film çəkmişdir. 2018-ci ildə AzTV Mədəniyyət kanalında "Yurd Yeri" proqramında haqqında geniş veriliş hazırlanmışdır. Ağakərim Nafiz Rusiya, Fransa, İsveçrə, İtaliya, ABŞ, İran və s. ölkələrdə qastrol səfərlərində olmuşdur. 200-dək təsnifin, 60-dan çox mahnının müəllifidir. 2010-cu ildə Mirzə Məhəmmədhəsənin həyatı və sənəti barədə yazdığı "Ustadi-ə'zəm Mirzə Məhəmməd Həsən Fələkzadə Şirvani" kitabı, 2017-ci ildə şeirlər "Divan"ı nəşr olunmuşdur. Divanda 500-dən çox şeiri – qəzəllər, təxmislər, nəzirələr, rübailər və bəzi tərcümələr yer alır. Ağakərim Nafizin 75 illiyi münasibəti ilə 2023-cü ildə "Qaf dağından gələn səs" və "Təzkireyi-Nafiz" kitabları nəşr edilmişdir.

### II SAQİNAMƏ

**Həzəc-8:**
**Məf'Ulü/məfA'İlü/məfA'İlü/fə'Ulün**
— — • /• — — • /•— — • /•— —

Xanəndə gərək sən'ətinə baxəbər olsun,
İnsanlara ruh verməyə onda hünər olsun.

Əxz eyləsin hər sirrini tar ilə kəmanın,
Zəngli dəfinin yanlari dürri-gühər olsun.

Düz qaməti, cazib geyimi, bərli-bəzəkli,
Hər yanə ətir çiləsin, tazə-tər olsun.

Sərf eyləsin öz ömrünü ahəngü nəvayə,
Sövtündə "zirəfkənd"i-çərəkpərdəpər olsun.

Söz mülkünə vaqif ola xanəndə olanlar,
Dəstgahə bəzək vurmağa şux bəstələr olsun.

"Rast"ından onun aləmə hikmətlər açılsın,
Xaqani-kəbirdən xələt olsun, nəmər olsun.

Gər "Şur" oxumaq şur ilən, əlbəttə, hünərdir,
Ta nəğmeyi-"Nəva"də təğəzzül nələr olsun.

Gər gəlsə yenə əzm ilə meydanə "Çahargah"
"Firuzi-Həsaf"dan sora gəlsin səhər olsun.

Həngami-"Hümayun"dur otur təxtgahdə,
Əsrarinə hikmətlər açan "Şüştər" olsun.

Var mahiranə "Mahur"a çox ehtiyacımız,
"Dadi-Bidad" "Əraq"inə qabilhünər olsun.

Davudnəfəs olsun dəxi "Segah"ə yetəndə,
Ya bülbüli-şeyda, ya da "Sarəng" ötər olsun.

Bu bəzmə yığılsın nə qədr arif olan var,
Məclisdə dəmadəm meyi-gülrəngi-tər olsun.

Saqi, kərəm et Nafizə də bircə qədəh ver,
Nuş eyləsin eşq ilən onu bəxtəvər olsun.

**III SAQİNAMƏ – Şirvan xanəndələrinin vəsfi**

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Kərəm et, məclisə, saqi, meyi-səhbanı gətir,
Mürdəyə ruh verən, ol fərəhfəzanı gətir.

Qəm büsatından ayır, şurə gətir Məcnuni,
Ondan qəm dəf´inə ol həzrəti Leylanı gətir.

O mahruləri Çindən gətirin Şirvanə,
Düxtəri-Nəxşəb ilə külli Buxaranı gətir.

Gətir ol şəxsi təmaşasına aləm yığıla,
Yusifin qoyma gözün yolda Züleyxanı gətir.

Zövq ilə şövqə gətir Mirzə Məhəmməd Həsəni[1],
Şahi-İrani çağır, Xosrovü Xaqanı gətir.

---

[1] Mirzə Məhəmməd Həsən Fələkzadə (1850-1917)

Mirzə avazi – "Hicaz" ilə əgər cuşə gələ,
Cəng meydaninə İskədərü Daranı gətir.

"Çarzəm" ində nə sirr olduğunu bilmək üçün,
Səhabi[1]-Həncərəsaz ilə Nəkisanı gətir.

Mirzə Güllər[2] verəcək ayeyi-rəhmətdən əsər,
Sübutinə kitab aç, ayeyi-nisvanı gətir.

Şövq ilə zövq ilə Zeynal[3] oxusun "Sarəngi",
Can öyindən bac alır, can quşi, cananı gətir.

Durgilən məclisi-irfanə gətir Davudu,
Səfiyar[4] olsun ona, böylə xoşəlhanı gətir.

Bəsani-Mirzə[5] kimi, Mirzə Zülfüqar[6] oxusun,
Tiği-avaz ilə ol xəncəri-bürranı gətir.

Bəzmi-üşşaqi necə zilü bəm istərsən əgər,
Çağır Əlyusifi[7] gəlsin, sora İrzanı[8] gətir.

---

[1] Səhab Xankəndli (?-1948)
[2] Mirzə Güllər (XIX əsrin sonu- XX əsrin əvvəli)
[3] Sarəng Zeynal (1869-1941)
[4] Davud Səfiyarov
[5] Bəsani Mirzə
[6] Mirzə Zülfüqar
[7] Əlyusif Qənizadə (1911-1971)
[8] İrza Qənizadə

Biri "Dilkəş" oxusun, digəri "Zəminxara",
Bu bəzmi-təntənəyə Soltanı[1], Mərdanı[2] gətir.

Gəlsə Nailpaşa[3] bu məclisimiz şurə gələr,
Durgilən bəzmə şəkərdani, nəməkdanı gətir.

Bəllidür kim Muradın şakəri "Segah" ilədür,
Büsati-eyşə Sənəm oğlu[4] tək oğlanı gətir.

Hanı ol nəğməsəra dinləyin Eynullahi[5],
Seyri-gülzarimizə bülbüli-nalanı gətir.

Kuri-kuranə gedib gəşt eləmə səhrani,
Gedibən Kür qırağından Atamoğlanı[6] gətir.

Neynəva səmtinə bir tutizəbandur Tofiq[7],
Kərbəla mülkünə ahəngi-"aşuran"ı gətir.

Ağalar[8] handadı bu məclisə bir "Şur" oxusun,
Lə′li-gövhər saçan ol sövti-şəkərxanı gətir.

---

[1] Soltan Mahmud Məmmədzadə
[2] Mərdan Ələkbərov
[3] Nailpaşa - Nail Məhərrəmov (1927-2008)
[4] Murad Sənəm oğlu - Ağamurad Kazım oğlu Əliyev (1930-2015)
[5] Eynullah Cəbrayılov (1935 - 1992)
[6] Atamoğlan Fətəliyev
[7] Tofiq Babayev
[8] Ustadım Ağalar Əhmədşah oğlu

Məqamı-"Rast" ilə gəlsin görəlim İbrahim[1],
"Çargah" etməgə əlbəttə Zəkixanı[2] gətir.

Ey Mütəllim[3] həvəsi-silsileyi-təb´in ilə,
Bir "Şikəstə" oxuyub səslə Əvəzxanı[4] gətir.

Musiqi əhli gərəkdür ki, xoşcəmal olsun,
Soruşun sanihələrdən ki, Camal[5] hanı, gətir.

Çağırın Alimi[6] bu mərəkəni saz eləsin,
Dəmlər e´cazına xanəndəyi-dövranı gətir.

Mələkxanım[7] da bəzənsin ərusi musiqitək,
Qogilən zülməti bəzm içrə çırağbanı gətir.

Kürdəmir əhli gərəkdür yığıla Çarhanə,
Onların bəzminə Yaqub[8] ilə Qurbani[9] gətir.

Gətirin Zabiti[10] "Zabul" oxusun ahəstə,
Sövtünə məmləkəti-külli-Qobustani gətir.

---

[1] İbrahim Zabitov
[2] Zəkixan Kürdəmirli
[3] Mütəllim Dəmirov
[4] Əvəzxan Xankişiyev
[5] Camal Dadaşov
[6] Alim Qasımov
[7] Mələkxanım Əyyubova
[8] Yaqub Çarhanlı
[9] Qurban Kürdəmirli
[10] Zabit Nəbizadə

Büsati-həngidə bir nalə çəkər Elnarə[1],
Şəbi-xürsəndimizə Leyliyi-nalani gətir.

Səməndi-tə´binə cövlən verə İsmail[2] xan,
Nəreyi-təntəneyi-nəhri-Girdimani gətir.

Hani Ne´mət[3] bu ərədə oxusun "Şəhnaz"i,
Sora dəstərxan açıb ne´məti-əlvanı gətir.

Bala Zeynal[4] duruban onda sərəfraz eləsin,
Səmini-xəl´ət üçün gövhəri-qəltanı gətir.

Xəyalə[5] nəğmələr içrə xəyalə daldıqca,
Deyir nəğamətə davər ədəbərkani gətir.

Səhneyi-nəğmədə güllər açıb hanı Abigül[6],
Güli-xoşrayihələrləo gülüstanı gətir.

O güli-laləni gülşəndə vəsf edər Vasif[7],
Gedib Qaladərəsindən gülü-rə´nanı gətir.

---

1 Elnarə Abdullayeva
2 İsmail Girdimançaylı
3 Nemət Ərəboğlu
4 Zeynal Əhmədov
5 Xəyalə Abdullayeva
6 Abigül Mirzəyev
7 Vasif Nuruyev

Mirələm[1] nəğmeyi-uşşaqdə qaldırsın ələm,
Məxluqati-fərəhi-ərsəyə Şirvani gətir.

Gətirin şə´ninə bir nəğmə qoşa dildarın,
Hanı xanəndəmiz ol Nafizi[2]-şeydani gətir.

****

**Həzəc-6:**
**MəfA'ilün / məfA'ilün / məfA'ilün / məfA'ilün**
**• — • — / • — • — / • — • — / • — • —**

Düşübdür daminə könlüm o zülfü piçü tabasa,
Bu qarə günlərə qaldi, həmən ol mişki-nabasa.

Məni bir danəyə döndərdi üzdə gəndümi-xalın,
Əzildi unə döndi üstüxanim asiyabasa.

Əməl sərdəftərin məndən soruşma, ey məlayikxu
Ki, hicranın əlindən nüsxələnmiş bir kitabasa.

Nəğəm girdabinə düşdüm həmən suzi-gүdaz ilə,
Yaxam qalmış əlində mütrübi-eşqin rübabasa.

Vəfasız yarü ənsarın yolunda paymal oldum,
Nəzərdən ol qədər düşdüm, ayaqlandım türabasa.

---

[1] Mirələm Mirələmov
[2] Ağakərim Nafiz

Qəhərləndim zəmanə möhməlində surətən Nafiz,
Süzüldi kasə-kasə qanlı göz yaşim şərabasa.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Dilbəra, bir etmədin yari-dilaralıq, mana,
Daima qıldın cahanda ruyi-tərsalıq mana.

Vamiqasa dəhrdə dəryalərə qərq olmuşam,
Etmədin möhnətlər içrə mehri-Əzralıq mana.

Ey nigari nazəninim, ol Məsihənfas ilə,
Qılmadın bir ləhzə aləmdə Məsihalıq mana.

Bilgilən ol nərgisi-bimarinin müştaqiyəm,
Bir nəzər qılsan yetər bu çeşmi-şəhlalıq mana.

Gərçi eşq içrə Xəliləm, sən vəfadə Hacər ol,
Hikkeyi-əxlaq ilə göstərmə Saralıq mana.

Nafiza, eşq içrə bir dəm əmnü rahət tapmadım,
Töhməti-cananədən üz tutdi rüsvalıq mana.

****

**Rəməl-2:**
**FAʻilAtün / fAʻilAtün / fAʻilAtün / fAʻilün**
**— •— — / — • — — / — • — — / — •—**

Gülşəni-hüsnün əzəldən bir güli-xəndan dutub,
Ol səbəbdən bülbüli-şuridəni əfğan dutub.

Əbləhani-mərdümi sübhi-visali məst edib,
Arifani-bəndəni yeksər şəbi-hicran dutub.

Gah bir Rüstəm durub İsfəndiyari kur edib,
Gah bir Firdövsi qalxıb Rüstəmə dastan dutub.

Gah bir Xaqan çəkib ləşkər gedər Çin üstünə,
Gah bir Hindi sərasər ləşkəri-İran dutub.

Türki-türkanə şücaətlər Malazgirddən keçər,
Şahi-Mərdan eşqinə meydani Alparslan dutub.

Nafiza, Şirvanda ariflər dolanmış bəzm ara,
Çərxin əyyami dönüb, arif yerin nadan tutub.

****

**Rəməl-6:**
**FəʻilAtün / fəʻilAtün / fəʻilAtün / fəʻilün**
**• • — — / • • — — / • • — — / • • —**

Mən unutdum o keçən dəmləri, gəl sən də unut,
Gəldi hicran dəmi dur nəğməli bir matəm tut.

Tarmar oldi səadət dəmi vəchi belədir,
Batdi vəslin günəşi, aldi üzün qarə bulut.

Eşqdən nəğmə dedik dağlari yaxdi səsimiz,
Soldi gül, ağladi bülbül, araya düşdi sükut.

Güldi ellər baxıban hali-pərişanımıza,
Çıxdı göylərdə təmaşamıza cümlə mələkut.

Bu məlal ilə çatıb ağlamağım əyyami,
Sil yanağındaki göz yaşlarıni, bari qurut.

Ey gözüm nuri, bu dünyani xəyanətlər alıb,
Mahi-ömrüm bu xəyanətlə edib böylə süqut.

Nafiza, dutma məlamətli Züleyxa ətəyin,
Mahi-Kənanda həya pərdəsidi əldə sübut.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

İstərəm könlüm kimi gülzarə dönsün kainat,
Öylə bir gülzar kim, ondan səfa tapsın həyat.

Məhv olub, viranə qalsın qəsrlər, kaşanələr,
Eşqə sərhəd olmasın, vicdanə yar olsun nicat.

Görməsin qəm al yanağlar, gül dodaqlar solmasın,
Oynasın şən çöhrələrdə min təbəssüm, min nişat.

Rəqsə gəlsin ədl camın nuş edən məstanələr,
Saçsın öz ətrin cahanə, bu cəmiyyət, bu büsat.

Rahi-eşqində əgər min dəfə can versəm xoşam,
Eşq qanununda yoxdur əhli-eşq üçün məmat.

Lalələr rəngində qan qorxutmasın, Nafiz, səni,
Dildə eşq amali, amalında var əzmi-səbat.

****

**Həzəc-8:**
**Məf'Ulü/məfA'İlü/məfA'İlü/fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Yüz Leylatül-əsra ola, göylüm səni istər,
Yüz Leyliyi-leyla ola, göylüm səni istər.

Yüz Misri-məlahətdə ləbin abi-bəqamız,
Yüz misli-Züleyxa ola, göylüm səni istər.

Yüz minlər ilə gəlsə nəbi kövnü məkanə,
Yüz dəmli Məsiha ola, göylüm səni istər.

Yüz huriyi-qılman ola firdövsi-bərinə,
Yüz şəkli-pərisa ola, göylüm səni istər.

Yüz məmləkəti-Reydə, Sitanbulda zəbunəm,
Yüz Məkkəvü Mina ola, göylüm səni istər.

Yüz dəfə rəhi-payinə qurban olam azdır,
Yüz məscidi-Əqsa ola, göylüm səni istər.

Yüz bülbüli-şirinnəfəs əmrazəyə düşdi,
Yüz Nafizi-şeyda ola, göylüm səni istər.

****

**Müzare-1:**
**Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**
**— — • / — • — • / • — — • / — • —**

Əfkari-xəyali-dəhənin məzhərimdədür,
Nasazlığım vəchi cəfagüstərimdədür.

Daş-qaş ilə tə'min olamaz zinəti-aləm,
Rövnəq verən əşyayi-dəlil cövhərimdədür.

Dəryadə dağa çırpına gər zövrəqi-eşqim,
Tərsanədə səfineyi-dil ləngərimdədür.

Meyxanə fərağində xumar oldi saqilər,
Təmkini-rümuzat əsəri sağərimdədür.

Sarəngü qumri təngnəfəs nəğməsaz olur,
Mürği-səhər təranələri əzbərimdədür.

Nafiz, səlimi-təbʻi-rəvanun lətifəsi,
Rövşənrəvaci-məzhəri-naziktərimdədür.

****

**Həzəc-1:**
**MəfAʻİlün / məfAʻİlün / məfAʻİlün / məfAʻİlün**
**• — — — / • — — — / • — — — / •— — —**

Ləbi-ləʻlin nüzul etdikdə könlümdə bəqa artır,
Əgər bir busə lütf etsən deyərdim ki, səxa artır.

Gözüm yaşi fərağində olubdur Dəclə mislində,
Basar Bağdad mülkün axiri, çün daima artır.

Əgər sevdayi-Leyli döndərsə ol Qeysi Məcnunə,
Təsəvvür eylədikcə eşq tərzin macəra artır.

Görün kim naleyi-ahim tutubdur Neynəva mülkün,
Mənim əhvalimə qayətdə ney sızlar, nəva artır.

Zəmanə gərdişindən mən pərişan olmayım neylim,
Ümidim əksilib tədric ilə, çünki bəla artır.

Necə təmkin edim, Nafiz, zəmanın mültəhibindən,
Bu zalimlər diyarində dəmadəm əşqiya artır.

****

**Həzəc-8:**
**Məf‘Ulü/məfA‘İlü/məfA‘İlü/fə‘Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Dil fikri-surətinlə dönüb kimya olur,
Hər dəm xəyali-rif‘ət ilə masiva olur.

Səhni-çəməndə vəsfini qılmaq vəsilədür,
Ağzımda kəlmələr dönübən mumya olur.

Bilməm nə sirrdür, sənəma, bağі-vəsldə,
Məhrulər aşiqə dolanıb bivəfa olur.

İstər könül ləbün həvəsiylə nəvalənə,
Bülbül kimi təranələrim dilgüşa olur.

Sirri-dəhanini necə pünhan edəmmədim,
Netsən nihani nüktələri bərməla olur.

Bir gün gələr səfinə-səfinə şəkərlərim,
Vəslin yetər bu Nafizə, hacətrəva olur.

****

**Rəməl-11:**
**Fə’ilAtü / fA’ilAtün / fə’ilAtü / fA’ilAtün**
**• • — • / — • — — / • • — • / — • — —**

Ləbi-lə‘lün, ey pərivəş, şüəra betər yazıblar
Ki, nəbati şəkkər içrə onu gülşəkər yazıblar.

Ki, xəyali-lə‘lün ilə nə şirin olur dimağim,
Bu xəyali-lə‘lün, ey gül, necə gülbəsər yazıblar.

Çiçəy açdı nə stərənlər, çəmən içrə gəldi sədbər,
Məni bəzmdə səfərbər görüb əlhəzər yazıblar.

Bu ləbin şəkərliyində nə deyim olarmı xürma
Ki, mərizi şəkgərim var, mənə həm zərər yazıblar.

Ləbi-lə‘lüvə müvafiq-deyil ərzdə Səmərqənd,
Bu səfa əyalətindən mən üçün səmər yazıblar.

Ləbi-lə‘lüvün sənasi, qılıram bu xoş kəlami,
Onu məndən öncə bəlli necə muxtəsər yazıblar.

Hanı Xaçənin səxası iki şəhri türkə versin,
Necə Sahibiqiranə bu sözi xəbər yazıblar.

Nədən ol bilikli Soqrat zəhər içdi bir piyalə,
Budu sərnəvişdi nüsxə həkimə zəhər yazıblar.

Nola bu nəvavü həngi eşidə həkim Fərabi,
Deyə mərhəbalər olsun təb‘üvə təpər yazıblar.

Belədir Xudayi-qüdrət yetirib cənabi-Marki
Ki, mənim səyahətimdə Parijə səfər yazıblar.

Yaşasın xanım Südabə belə bəzmi qurduğuçün,
Deləvildə bu nəğamətlə görün əsər yazıblar.

Nə şirin məqal olursan ürəfalər içrə
Nafiz, Ürəfalar içrə əvvəl səni mö'təbər yazıblar.

****

**Cahanşah Həqiqinin qəzəlinə nəzirə**

**Müctəs-2:**
**MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**
**• — • —  / • • — — / • — • —  / • • —**

*"Zülfü-rüxün ki, şamü səhərdən xəbər verər,*
*Anın məşami ruhi-bəşərdən xəbər verər."*

Şirin ləbin piyaleyi-candur mizacimə,
Gülqənd məqamində şəkərdən xəbər verər.

Kim görsə bəzmdə səni bu abü tab ilə,
Ruyi-zəmində şəmsü qəmərdən xəbər verər.

Lə'li-ləbində niyyəti-fəthi-ümidimi,
Bir busə lütf edərsə hünərdən xəbər verər.

Şəm'i-visaldə əridər mum tək məni,
Pərvanələr gedər bu xəbərdən xəbər verər.

Kimdir müsəxxər eylədi Sasani mülküni,
Salnamələrdə həzrət Ömərdən xəbər verər.

Mülki-süxəndə paymal olsan da Nafiza,
Təb'i-xəzinə dürri-gühərdən xəbər verər.

****

**Rəməl-5:**
**Fə‘ilAtün / fə‘ilAtün / fə‘ilAtün / fə‘ilAtün**
**• • — — / • • — — / • • — — / • • — —**

Səməndərlər kimi yandım, vücudim oldi xakəstər,
Məni yandırmağa amadədi hicrində bu əxgər.

Könül Zülqərneyin tək qaldi zülmati-təhəyyürdə,
Yetiş fəryadimə hicran ara, ey Xızr tək rəhbər.

Könüllər qan olunca bağı-İlhami-lətafətdə,
Yetişdi ayeyi-rəhmət, göründi Xaliqi-məzhər.

Süxənsaz olsa hər kimsə, məta‘in çəksə bazarə,
Fəqət sərraf zənn eylər kimi misgər, kimi zərgər.

Könül möhnətsəralərdə məlul İsfəndiyar isə,
Hücum etdi görüb üftadə halim Rüstəmi-ləşkər.

Saçın sevdasi aləmdə necə müşgülgüşa imiş,
Neçə aşiqləri avarə qıldi müşk ilə ənbər.

Qaşın cəngi-siyasətdə əgər sahibqiran olsa,
Bəyazid neyləsin ol dəm mübarək olmasa əxtər.

Gözün cilvə qılanda Əşkəbusi-vərtədən keçmiş,
Atıldi tiri-müjganın mən etdim sinəmi səngər.

Meyi-nabi həqiranə deyirlər tərk edib Nafiz,
Genə meyxanədə bir gün görərsən ki, vurub ləngər.

**Rəməl-5:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilAtün**
**• • — — / • • — — / • • — — / • • — —**

Genə qəlbim səfaləndi, həmin cövri-cəfadəndür,
Cəfa kim, nazəninlərdən gəlir, beytüs-səfadəndür.

Yüzün gülzarının hər dəm səfasın görmək istərdim,
Məni-əfkəndeyi-zarə, xütur etmək Xudadəndür.

Mənim bu qəlbimə, ey gül, yazılmış mehriban olmaq,
Fəqət mən yoxladım, gördüm, sənin qəlbün qayadəndür.

Cəmalin şövqünə rəxşəndeyi-aləm təmaşagər,
Sinən ayinəsi, Ayineyi-aləmnümadəndür.

Qaşun təhrində kim, surət çəkibdür sane'i-qüdrət,
Yüzün gülzari-xüldi, nuri-paki-Mustafadəndür.

Əgər Nafiz fərasətlə cihad eylərsə nəzm içrə,
Əlində xaməsi həm Zülfüqari-Mürtəzadəndür.

****

**Həzəc-8:**
**Məf'Ulü/məfA'İlü/məfA'İlü/fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Əhvalimi yazmaq dəhəni-xaməyə sığmaz,
Gər yazsa rəvayətlərimi naməyə sığmaz.

Səlnamənəvis eşq məramın edə təhrir,
Dastani-rəvayətləri "Şahnamə"yə sığmaz.

"Novruz rəvəndə" qılamaz "suzi-qəməngiz",
Qəm-qüssə nişat ilə bu həngaməyə sığmaz.

Dəfn eyləyün üryan məni kuyində nigarın,
Dürdaneyi-nə'şim kəfəni-caməyə sığmaz.

Nafiz, elə bir laf eləyib zahidi-əbləh,
Öylə nərəxər kəllə bir əmmaməyə sığmaz.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Kişilər ərdəmini hövsələsindən biliriz,
Xubrulərdə xətani çənəsindən biliriz.

Laləzarın bahar əyyami fərəvanlığını,
Gər xəzan olsa da biz xarü xəsindən biliriz.

Biliriz mərəkədən rast gedən məhbubi,
Rəmzü eyhami fəqət həlhələsindən biliriz.

Bu səbat ilə nə təsvir edəlim dünyani,
Bivəfalıqdırişidəbdəbəsindənbiliriz.

Bu bina bir neçə me΄marın əlindən çıxmış,
Baxıb eyvaninə həm pəncərəsindən biliriz.

Səccü nəzmi necə təqtə salırız bəhri ilə,
Rədifü qafiyəni təntənəsindən biliriz.

Dili-Nafizdə olan qüvvəti-iste΄dadi,
Möcüzati-nəfəsi-həncərəsindənbiliriz.

****

**Rəməl-6:**
**Fə΄ilAtün / fə΄ilAtün / fə΄ilAtün / fə΄ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Məni dildən dilə saldın genə də olmadı bəs?
Ya qal ilqardə dost ol, ya da bu dostluğu kəs!

Bəsdi tökdün başıma gündə xəyanət külünü,
Şən həyatım pozulub, gen otağım oldi qəfəs.

Dağ çəkdin sinəmin üstünə yandım oduna,
Nə ürəkdə dözümüm qaldı, nə sinəmdə nəfəs.

Dözdüm hər nazına, hər şıltağına, hər sözünə,
Tarümar oldi məramım, əməyim oldi əbəs.

Bu xəyal aləminin dadrəsində ucalıb,
Guşimə gəldi kəramətli ötən nəğməli səs.

Uzaq ol qəlbi qəra, surəti göyçəylərdən,
Nafiz, hər surəti göyçəylərə sən salma həvəs.

****

**Əhməd Cəfərzadə qəzəlinə nəzirə.**

**Rəməl-6:**
**Fə'ilAtün / fA'ilAtün / fə'ilAtün / fA'ilAtün**
**• • — — / • • — — / • • — — / • • —**

*"Naşi bazarında mən dürdanəlikdən düşmüşəm,*
*Səhv edib, zahir olub əfsanəlikdən düşmüşəm".*

Sineyi-sənduqəmin inci dəhanın açmışam,
Məxzəni-əsrarə mən biganəlikdən düşmüşəm.

Hali-pəjmürdəmdən ol hali, sən, ey piri-muğan,
Rindlər bəzmində mən rindanəlikdən düşmüşəm.

Xatirim pəjmürdədür, siz qaldırın peymanəni,
Müjdə ver Xəyyamə kim, peymanəlikdən düşmüşəm.

Məqsədim odlarə yandırmaq deyildür aləmi,
Şəm'i-ruyi-bəzminə pərvanəlikdən düşmüşəm.

Bəhri-qəmdə bir təlatüm buldi, mən qəvvas olub,
Dürrlər dəf etmişəm, dürdanəlikdən düşmüşəm.

Aləmi-təsnifi-şe'rə mən də bir sərraf idim,
Fəhm edib Nafiz kimi, fərzanəlikdən düşmüşəm.

**Məhəmməd Biriya və Namiq Kəmalın qəzəlinə nəzirə**

**Həzəc-1:**
**MəfAʻİlün / məfAʻİlün / məfAʻİlün / məfAʻİlün**
**• — — — / • — — — / • — — — / •— — —**

*“Göz aç”, ey kargər, bəsdir ayıl bir xabi-qəflətdən,*
*Cahanda mərhəmət ümma bu qanundan, bu dövlətdən”*[1].

Xəyal eylə cahan içrə müqəddər taleʻin vardur,
Başun varsa, çıxar getsin bu zənciri-əsarətdən.

Yarım əsrün gəlib keçdi bu zalimlər diyarında,
Haçan sən şad olarsan, bir çıxarsan dərdü möhnətdən.

Utan bir aləmə baxdıqca, ibrət al bu dünyadən,
Bizimlə ittihad eylə, qutar şərmü xəcalətdən.

Cahanın  ilməyi bil kim, siyasətlərlə dərhəmdür,
Bu qədri ağzuvi yorma, danışma çox siyasətdən

Cahanə gəlmişik biz də sürək ömrü nişat ilə,
Dəmadəm zövq alaq icma ilə baği-səadətdən.

Danışdıqca füzun oldi kəlami aşiqi-zarın,
De indi əqlüvə bir şey batırmi bu hekayətdən.

---

[1] Məhəmməd Biriyanın beyti

Səmimiyyətlə yoğrulmuşdu mayəm zülmə tab etməm,
Odur ki, zülmkarə gündə dəm vurram ədalətdən.

*"Nə əfsunkar imişsən, ah, ey didari-hürriyyət?*
*Əsiri-hüsnün olduq, gərçi qurtardıq əsarətdən"*[1].

Bu nazik nəzmlər, Nafiz, Kamalnan Biriyanundur?
Ona ahənglər qoşdum bu bayramda nəğamətdən.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Görməsəm rüxsarini əl çəkmərəm meyxanədən,
Şəm'ə almaq rəsmdür öz qanını pərvanədən.

Şanə-şanə bağrım olsa, mey deyildür baisi,
Bil götürmüş əksini bir yol o zülfü şanədən.

Gündə yüz yol səcdə qılsam kimsə eyb etməz mana,
Səhvdir ummaq yıxılmaqdan səva məstanədən.

Keçdi qəm karvani üstümdən, görüb düşmüş məni,
Çəkmədim eşqündən əl, çəkdim dili-viranədən.

---

[1] Namiq Kəmalın beyti

Sevgilər sərrafiyəm, hüsnü-xəyalun sərvətim,
Min xəzinəm var mənim, min lə′l, min dürdanədən.

Min cəfa, min cövrünə təmkin edib səbr eylərəm,
Səbr dərsin almışam Nafiz kimi divanədən.

****

**Rəsuli-Əkrəmin vəsfində**

**Müzare-1:**
**Məf‘Ulü / fA‘ilAtü / məfA‘İlü / fA‘ilün**
**— — • / — • — • / • — — • / — • —**

Hüsnün ziyasıni görübən ərzü asiman,
Səf-səf düzüldi şö′lə çəkib cəmi əxtəran.

Bir-bir təmaşə eyləməyə çıxdı mehrü mah,
Ruyi-zəmində rəng vurub böylə kəhkəşan.

Zöhrə fərəhlənib əlinə aldi çəngini,
Bəzmi-səfadə nəşvələnib oldi şadman.

Ruyi-zəmini dutdi ki, zülfün təravəti,
Ətrin çəkib cəhanə necə yaydi gülsitan.

Gülzari-hüsnünə vurulub bülbüli-İrəm,
Coşdi fərəhlə söylədi yüz kərrə dastan.

İsavü Musa mö´cizi-Davudi-həncəri,
Qüdsaşiyan əzimətinə Xızr olub rəvan.

Ya Mustafa, bu vəsfini qılmaqda acizəm,
Lütfünlə Nafizi qılasan bəlkə xürdədan.

****

**Rəməl-2:**
**FA‘ilAtün / fA‘ilAtün / fA‘ilAtün / fA‘ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Döndi aləm cənnətə hüsnü xəyalin görcəyin,
Aləm oldi şad səndən, şad halin görcəyin.

Mübtəlayi-hüsnün oldum, oldum heyranın sənin,
Aləmi heyran edən əbru hilalin görcəyin.

Qamətindən sərvlər etdi hicab, baş əydilər,
Çıxdi yıldızlar təmaşayə cəlalin görcəyin.

Bağda nilufər, qərənfil, şurə gəldi vəcddən,
Qarə qaşın, qarə saçın, qarə xalin görcəyin.

Gül yanağindən utandi, geydi əlvan lalələr,
Ay buluddan pərdə dutdi, gün cəmalin görcəyin.

Cümlə iman əhli qarşında yıxıldi səcdəyə,
Əqlini, irfanini, fəzlü kəmalin görcəyin.

Şad olub cümlə təbiət geydi toy paltarini,
Al yavağin, gül dodağin sətri-alin görcəyin.

Nərgis ağuş açdi, bülbüllər mübarəkdür dedi,
Nafiz ilə hər səhər bəzmi-vüsalin görcəyin.

****

**Müzare-1:**
**MəfʻUlü / fAʻilAtü / məfAʻİlü / fAʻilün**
**— — • / — • — • / • — — • / — • —**

Təʻneyi-duni-rəqibə hədəf olmaqdansa,
Məclisi-eyşdə cam ol xəzəf olmaqdansa.

Nə qədər var isə sərf eylə səfa məclisinə,
Əsəri-təbʻi-rəvanun tələf olmaqdansa.

Saxla izzü şərəfi, kibrü riyadən uzaq ol,
Öl qutar mərd kimi, bişərəf olmaqdansa.

Dəsti-xubanda ikən ayinə olmaq xoşdur,
Bəhr qoynunda görünməz sədəf olmaqdansa.

Qülleyi-Qafə çəkil bir hümayi-himmət ilə,
Adəm övladi olub naxələf olmaqdansa.

Nafiza, məzhəbi-eşq içrə bir tərəfgir ol,
Diyari-eşqdə çün bitərəf olmaqdansa.

****

**Nabi Əfəndinin qəzəlinə nəzirə**

**Rəməl-6:**
**Fə‘ilAtün / fə‘ilAtün / fə‘ilAtün / fə‘ilün**
**• • — — / • • — — / • • — — / • • —**

*"Dökəlim biz gözümüz yaşıni şəbnəmcəsinə,*
*Xəndələr etsin o afət güli-xürrəmcəsinə".*

Gir gülüstani-İrəm bağinə, ey aşiq olan,
Tərk qılma belə bir rövzəni Adəmcəsinə.

Gəl ki, tə‘lim edəlim bunca sədaqət tərzin,
Qol sarım bir gecəlik boynuna məhrəmcəsinə.

Rahi-ərkani tut, əyri oturub düz danışaq,
Hürməti-xani-vəfa bağına möhkəmcəsinə.

Kə‘beyi-kuyinə varsam məni məhzun etmə,
Lə‘li-nabında sirab et məni Zəmzəmcəsinə.

Ürəyim qəşy eləyir həsrəti-pabusin ilə,
Lütf qıl Nafizə gəl həzrəti-Məryəmcəsinə.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / •— — —**

Saçın vəsfi-diraz olsa o zülfi-piçtab ayri,
Təravətbəxşolursa ənbər ayri, mişki-nab ayri.

Yuyarkən zülfüni ikrah elə bir qəlpə sabundan,
Neçün zülfi-tərində özgədir sabun, gülab ayri.

Günüzlər afitabi-aləmarasan, gecə məhtab,
Həqiqət mənzilində şəhr ayri, afitab ayri.

Genə əyyami-hicrində könül mürği nəvaləndi,
Görüb əhvalimi dilləndi çəng ayri, rübab ayri.

Ayağın toprağın bir tutiyatək çeşmimə çəkdim,
Vəleykin sürmə ayri, tutiya ayri, türab ayri.

Şərabi-lə'li-nabındır yaxan aşiqlərin qəlbin,
Bilir kim təşnədillər lə'li-nab ayri, şərab ayri.

Şikəstə Nafizə dün şəb açıldi dəftəri-hüsnün
Yazıb hüsn ayəsin bir dəftər ayri, bir kitab ayri.

****

**Müctəs-2:**
**MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**
**• — • — / • • — — / • — • — / • • —**

Ümidi-vəslin ilə üzdü intizar məni,
Fərağı-həsrətin ağlatdi zar-zar məni.

Dedim: aram ilə kuyində bir qərar dutum,
Qərarım əldən alıb, qıldı biqərar məni.

Bahar fəsli gələndə olur aləm xürrəm,
Qəzani gör ki, məlul etdi hər bahar məni.

Xəzan olanda tökər bərgü barıni necə kim,
Xəzani yaprağa döndərdi ruzigar məni.

Fərağı-vəsldə gəh ağlayıb, gəhi güldüm,
Nə xəndə qəmdən ayırdi, nə əşkbar məni.

Çəkibdi qətlimə qəmzən bu qanlı şəmşirin,
Rəvamı doğrasa eşqində Zülfüqar məni.

Sınıq bu könlümə qəm ləşkəri hücum etdi,
Himayəsində genə saxladi Kərrar məni.

Qəm olmaseydi əgər mən də Nafiz olmaz idim,
Xəlayiq içrə qılıb bunca nəğməkar məni.

****

**Həzəc-6:**
**MəfA‘ilün / məfA‘ilün / məfA‘ilün / məfA‘ilün**
**• — • — / • — • — / • — • — / • — • —**

Rəva bilsən nə dəm cana, verim cani, ağam cani,
Buyur zibh et Xəlilasa, bu qurbani, ağam cani.

Ləbin fikrin çəkəndən günbəgün mahiyyətim artır,
Sinəmdə mə‘dəni-lə‘li-Bədəxşani, ağam cani.

Pərişan olmasın zülfün ki, mən ondan pərişanəm,
Pərişanlıqdan aldım böylə imkani, ağam cani.

Bu qədri abü tab ilən gəzərkən Nil kənarində,
Cəmalın heyrətə saldi Züleyxani, ağam cani.

Gələr bir gün cavanlar, mən gedərsəm xakə pəjmürdə,
Çirağ əldə gəzəllər mülki-Şirvani, ağam cani.

Gedibdir mülki-Şirvandan Ağa İsrafili-Nafiz,
Vətən tutmuş Səmərqəndü Buxarani, ağam cani.

****

**Müzare-1:**
**Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**
**— — • / — • — • / • — — • / — • —**

Şami-qəmində fövt elədim çox zamanlari,
Çəkdirdin aqibət mənə ahü amanlari.

Hicranın ilə daima qəmnən dolan gözüm,
Tökdi fərağı-yar ilə əşki-rəvanlari.

Gül həsrətilə bülbül itirdi fərağətin,
Saldi bəlayi-eşqə neçə bağbanlari.

Gülzari-kuyinin qocaman əndəlibiyəm,
Buldum təriqi-eşqdə qönçə dəhanlari.

Eşqin məni bir Rüstəmi-dastanə döndərib,
"Ruintən" etdi gör nə qədər pəhləvanlari.

Talib olanlar eşqə ucaldi səmalərə,
Mən dəstgahsız enirəm nərdibanlari.

Zülfün qəmin apardım özümlə məzarədək,
Qəbrim içində bağrıma basdım ilanlari.

Nafiz, məta'i-şerinə yox müştəri nədən,
Mizani yoxdi xəlq çəkə xürdədanlari.

****

**Fəqir Ordubadinin qəzəlinə nəzirə**

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

*"Sədheyf o zülfi-xəmbəxəmə bad əlindədi,*
*Can riştəsi, nə çarə qılım, yad əlindədi.*

*Tanrı rizasinə mənə bənd olma, ey əcəl,*
*Başim görürsən axir o cəllad əlindədi".*

Yox təşnəyə bir qətrə su abi-Fəratdən,
Sanma əlaci Dəcleyi-Bağdad əlindədi.

Ey qaşi Zülfüqar, götür ol tiği dəstinə,
Əsli Dəməşqdəndi bu fulad, əlindədi.

Çək Bisütunə kiprik ilə yar surətin,
Sanma ki, eşq tişəsi Fərhad əlindədi.

Ruyində dam qurdu o xali-müənbərin,
Bu fitnə o zülfün kimi səyyad əlindədi.

Nafiz, təranə silsiləsin doldur aləmə,
Bəzmi-tərəbdə çün qaval ustad əlindədi.

****

**Rəməl-6:**
**Fə‘ilAtün / fə‘ilAtün / fə‘ilAtün / fə‘ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Dağıdır badi-səba dildə əza pərdəsini,
Göstərir əhli-dilə nəqşi-niza pərdəsini.

Dəhr hökmiylə pərişanlığa layiq olali,
Açıb ehkami-riyazətdə səza pərdəsini.

Bu rümuz ilə xəyalim dolanır dünyani,
Çəkmişəm lövhi-dilə ruhfəza pərdəsini.

Aşiqi-qəmzədəyəm, halimə həm məmnunəm,
Bağladım mən bu bina ilə qiza pərdəsini.

Ruzimi ruzi-əzəldən verib ol Ruzirəsən,
Kim çəkər göydən enən dəmdə qiza pərdəsini.

Nafiza, sanihələrlə qəza elə nəfsə,
Çəkib Ustadi-əzəl gör ki, qəza pərdəsini.

****

**Müctəs-2:**
**MəfA’ilün / fə’ilAtün / məfA’ilün / fə’ilün**
**• — • — / • • — — / • — • — / • • —**

Sünbüli-zülfü yuyub, hər nigar açar-bağlar,
Yuyanda xəlvət edər, aşkar açar-bağlar.

Açılmaz ayeyi-hüsnün, yazıbdır ustadi,
Ani təravət ilə ruzigar açar-bağlar.

O tari-türrəni zənciri-zülmə bənzətmə,
Səba o türrəni biixtiyar açar-bağlar.

O zülfü qarə ki, çiynində mari-çin-çindir,
Ani həlavət ilə Zülfüqar açar-bağlar.

O türrələr necə zənciri-zülfü zəngdir,
Ani taracə verib, Zəngibar açar-bağlar.

Bu türrəhat ilə sındırma könlüm ayinəsin,
Şikəstə Nafiz ani, intizar açar-bağlar.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / • — — —**

Gəlib bəzmi-əzayə naz ilə, ol simtən sərxoş,
Dutubdur tövri-ahəstə, təmam ol gülbədən sərxoş.

Yazıb cövşənkəbiri-ayəti, qəssal kəfən dutmuş,
Təmamən məstü üqbadır, ölən sərxoş, kəfən sərxoş.

Neçə müddətdi Yusifdən xəbər gəlməz, pərişanəm,
Bu münval ilə Yaqubi-həzin beytül-həzən sərxoş.

Həya, ismət dəmi, ey Yusifi-gülpirəhən dilbər,
Züleyxa məstdür, ətvari-qəmdə, pirəhən sərxoş.

Yatıbdür, məstüdür Şirin, səriri-pəxtixabində,
Budur bazuyi-vüslət, Bisütünun həm Kuhgən sərxoş.

Görən ol sərvi-rə’nayə əsər etməzmi göz yaşim,
Axıb getdi əyağinə, olub sərvü səmən sərxoş.

Bu bəzmi-canfəzayə, dün yığılmış arifü dana,
Sorurlar kim, nə olmuşdur, nədən əhli-vətən sərxoş.

Zərafət eylədim, Rüstəm, xətasın Nafizin əfv et,
Əsasən bu vilayətdə, nə sən sərxoş, nə mən sərxoş.

****

*Zişan Turan bibioğluya*

**Həzəc-1:**
**MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün**
**• — — — / • — — — / • — — — / • — — —**

Turan, ey çeşmimim nuri, sənə bizdən dua olsun!
Vətən gülzarı-eşq içrə, sənə xürrəmyuva olsun!

Nə qədri var həyatın, cövhəri-güldən səfalənsin,
Səfayi-xatirin, hala, vəfa birlə səfa olsun!

Qəməngizxatir olma hər yetən əbləh məramindən,
Bu dünya fitnələr kani, sənə andan rəha olsun!

Könüldə vardur imanun, fəqət ömr eylə nurani,
Xəyalun fitnəni-firuzilən "Şəmsüzzüha" olsun!

Səni istəməyən kəslər hidayət rahinə gəlsin,
Əgər gəlməzsə aləmdə anun vəchi qəra olsun.

Bu əxlaq ilə sən ömr et, dolan məstanə-məstanə,
Şəhi-piri-muğan qövli, sana qoy rəhnüma olsun!

Bu Nafiz bir dua eylib, təmənna eyləyər həqdən,
Pənahun daim aləmdə "Şəhi-müşkülgüşa" olsun!

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Yardən kim, aşiqə çövri-çəfa hərdən gəlir,
Bu cəfavü cövr ilə, zövqi-səfa hərdən gəlir.

Gəlsə lə'lün fikrimə, ağzım sulani zövqündən,
Biguman olmuş xəyalə, bu məta' hərdən gəlir.

Şəm'i-ruyin canımın pərvanəsin yandırmağa,
Bir xəyal eylərsə canan, insafa hərdən gəlir.

Bir vəfalı dustikən, təb'i-rəvanım son zaman,
Gahi gəlmir, neyləyim, ol bivəfa hərdən gəlir.

Lə'li-nabınan keçib,dutdum qəzavü ruzəmi,
Bu çəkmiş mizacim, iştəha hərdən gəlir.

Həbs edib zindanə saldım nəfsimin əmmarəsin,
Sanki canım almağa, bir "Əjdaha" hərdən gəlir.

Busütun ovlağıdır Fərhadvəşlər qovminin,
Nafizin mürği-dili kuhi Qafa hərdən gəlir.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Çıxır əflakə bu ahim şərəri axşamlar,
Tökülər xakə gözüm qətrələri axşamlar.

Gündüzi aşiq əgər qəmdən azad olmuş isə,
Möhnəti-hicr ilə yansın cigəri axşamlar.

Qəmi-hicr ilə günüzlər namazə sövq eliyər,
Çəkər azan yerinə nalələri axşamlar.

Qəmi-əyyamdə gündüzləri xeyr etmişsə,
Kamyab olmağa çəksin zərəri axşamlar.

Gecənin sirrini hal əhli olanlar saxlar,
Gətirər badi-səba çün xəbəri axşamlar.

Nafiza, şamü səhər Kəbeyi-kuyan dolanıb,
Kaş oleydim belə yarın nökəri axşamlar.

****

**Rəməl-2:**
**FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Yar qətlimçün genə e’dam ilə tədbirlənib,
Bir günahi olmadan, aşiq necə təqsirlənib.

Vadii-möhnətdə dilşadəm sənəmlər eşqinə,
Təsnifi-övraqdə ismim necə təhrirlənib.

Mənfəətdar olmadım, bağı-visalindən vəli,
Gülşəni-kuyin, rəzil olmuşlara məngirlənib.

Zülfünün zəncirinə bağlandığım dəmdən belə,
Sandılar şiri-jəyandur kim, belə zəncirənib.

Ey vəfa rahin qoyub, əğyar bəzmindən keçən,
Bədnəzər bəzmində zatən abi-ruyin kirlənib.

Kimsəyə nami-nişanın bəlli olmazdi fəqət,
Guşeyi-meyxanədə Nafiz adun əzbərlənib.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / •— — —**

Təmaşagahi-aləm, gülşəni-seyri-təmaşadur,
Çəmən seyrinə çıxmaq xubilərçün aləmaradur.

Qədəh cingildəsin saqi ki, məclis sərfəraz olsun,
Bilinsün bağı-vüslətdə ki, sağər məclisaradur.

Mənə bir cam müdara qıl, gözün qurbaniyam saqi,
Kənar olsun qəmi-aləm, bu dəmlər eydi-əzhadur.

Gərək aşiq olan kəslərdən aləmdə əsər qalsun,
Xütur eylər kəramətlər, bu dünya köhnə dünyadur.

Ki, Nafiz başlasun dəsgah, qulaq ver sövtə Şirvanşah,
Setarın Barübəddür, həm dutan çəngin Nəkusadur.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / •— — —**

Gəl, ey siminbədən saqi, gətir cami-kəramətdən,
Qənimət sağərin versün sənəmlər, sərvi-qamətdən.

Setarın Barübəd saz eyləyib, dursun ayaq üzrə,
Nəkisa çəngini çalsun, bir ilhami-işarətdən.

Ucalsıb mütribi-eşqin sədasi ərşi-ə'layə,
Mələklər doymasın beylə gözəllikdən, məlahətdən.

Çəkilsün nəğmeyi-Davudilər tərzi-tərəblərlə,
Fəqət dərviş olan kəslər doyarmı hiç ibadətdən.

Müğənnilər təğənni eyləsün sövti-nizam ilə,
Təranə mənzilində düşməsün məclis təravətdən.

Götürsün tarzənlər mizrabın, həm titrəsin simlər,
"Humayun" pərdələrdə düşməsün nəğmə nəcabətdən.

Bu bəzmi-candəzayə qoy həzin xanəndələr gəlsin,
Oxunsun "Mahur"un təsnifləri tövri-məharətdən.

Neyi-cansuzi say eylə, bu bəzmə, neyşəkərlənsin,
Şəkərgöftar olaq biz də, fəsahətdən, nəğamətdən.

Həvəslə gəldi cövlanə, bu gün, bu təb'imin Rəxşi,
Şikəstəxatir etmə, könlümü, ya Rəb, fərasətdən.

Cəmi-eşq əhlinə xanəndə bizlərdən səlam olsun,
Ayırma yari-yarından, əta eylə səlamətdən.

Tükəndi Nafizin ömri, kərəm qıl, lütfüni, ya Rəb,
Ölüncə qalmasun ləfzi, məlahətdən, ləyaqətdən.

****

**Rəməl-6:**
**Fə′ilAtün / fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Vəsf edərsəmsə çəməndə o güli-xəndani,
Süzdi bir suzi-güdaz ilə məni-nalani.

Nə xətadur bu gözəllərdə daima matəm,
Salar eşqiylə pərişanlığa, pərişani.

Nə bəladur ki, dəmadəm genə bu eşqin odi,
Əridir nari-fərağində dili-suzani.

Zülm zəncirinə gəl eyləmə kim, sultanlıq,
Çərx zindanə salar zalim olan sultani.

Ya südur eylə bu zəncirdən azadə olum,
Ya günahim var isə qətlimə ver fərmani.

Bədgüman olma ki, Nafiz, sənə bəsdir bu dəlil,
Gərçi Şirvanda sən oldun bu günün Səlmani[1].

****

**Rəməl-8:**
**Fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • —**

Kim edərsə bizimlə şuri-hənək,
Başına endir onda bir dəyənək.

---

[1] İran şairi Səlman Sivaci

Başına qoysa taci hər dəyus,
Sanki bustanda bitibdir göbələk.

Məni hər guşədə gümnam etdi,
Pozub büstanımı bu çərxi-fələk.

Və'zinə çox inanma İblisin,
Bir zamanlar o da olmuşsa mələk.

Nafiza, heç kəsə məzəmmətlər
Eyləmə, nəhyi-mübərra nə gərək.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Ayineyi-dildə o səfa olmadığından,
Dünya dağılır sidqü vəfa olmadığından.

Möhnətlərə dözsün nə qədər xəstə ürəklər?
Əldən gedər axir ki, şəfa olmadığından.

Atəşlərə yaxdi bizi Nəmrud tək axir,
Odlandi vətən bizdə qəfa olmadığından.

Bu mənzərə aləmdə necə Kərbübəladır,
Qan uddurur insanə rəha olmadığından.

Məclisdə ki, Nafiz süxən izhar edə bilməz,
Dərk eyləmək olmur ürəfa olmadığından.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Yanağın dairəsi türfə lətafət kimidür,
Hüsnüvi seyr eləmək məncə ibadət kimidür.

Bülbüli-bidilə gülşəndi yüzün gülzari,
Hər tərazəndə nəşat ilə təravət kimidür.

Qaşun, gözün, dəhənin, qamətin qiyamətdür,
Qədün sənasi könüllərdə qiyamət kimidür.

O tarı-türrələrin, silsileyi-zəncirin,
Boynuma sarsan inayətlə, şərafət kimidür.

Kəlami-Nafizi bunca məlih edən nə imiş,
Xaliqin lütfü dəhanində məlahət kimidür.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Seyrə çıxmış gülyavağlar, ol gözi məxmurilən,
Qəsdi-can eylər dəmadəm, mən kimi rəncurilən.

Xatirim gəh zülfünün, gah xalinin fikrin çəkər.
Qorxudur gəh marilən, bidar edir gəh murilən.

Qəmzeyi-qəttali gördüm, bərq urub çıxmaqilən,
Sanki cəng etmiş bu gün Xaqanilən Fəğfurilən.

Vadiyi-möhnətdəyəm Sahibqıranım gəlməsə,
Kimdir ol meydan açıb pəhlu vura Timurilən.

Çərxi-minanın demə Həllaclıqdır pişəsi,
Tərki-ülfət qılmışam Həllacilən, Mənsurilən.

Saqiya, Zahid nədən kafər xəyal eylər məni,
Cürmdən pak eylərəm min kafəri kafurilən.

Eşqə təslim ol könül, şərməndə qılma Nafizi,
Yandırar mülki-cahani naleyi-zənburilən.

****

**Qəsideyi-əlif-be I**

**Rəməl-8:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • —**

ا Əlif Əvvəl Allah xaliqi-sərvər,
ب Be Behişti-ə'la fil abi-kövsər.
ت Te Təhəyyür qıldım kaşanələrdə,
ث Se Setarü çəngü nayü neyşəkər.

ج Cim Cəmali-Yusif-mahi-liqa,
ح He Həyati-Yəqubi-həm dərdü sər.
خ Xe Xəbərlər gəldi göydən nagəhan,
د Dal Dolandı Məkkəyə çatdı xəbər.
ذ Zal Zalim olmadi İsfəndiyar,
ر Re Rüstəm ani qoydu bibəsər.
ز Ze Zülqərneyni ol xatirnişan,
س Sin Sini gəzdi gördi sərbəsər.
ش Şin Şikəstə Timuru-Sahibqiran.
ص Sad Səadət rəmzi Xaqanü Yəsər.
ض Zad Zadəm Adəm oğlu zadəgan,
ط Ta-vu-Taha nəsliyəm gənci-gühər.
ظ Za Zəbərcəd Zülfüqarü eyn sər,
ع Əyn Əliyəl Mürtəzadür pür hünər.
غ Ğəyn Ğayın yaraşıqdur bişəyə,
ف Fe Fit dağından ta Qafə qədər.
ق Qaf-i Qafqaz bir müəmma kuhdur,
ک Kaf Kafər görməz ani sərbəsər.
ل Lam Lalə yarpaği şəbnəmlidür,
م Mim Mustafa saçi bir nilufər,
ن Nun Nurani qılıb təqva məni,
و Vav Vaveyla ömür oldu hədər.
ه Ha Həyavü elmi-irfan eynidür,
ی Yə Yədi-beyzayi-Nafizdən əsər.

****

## Qəsideyi-əlif-be II

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / •— — —**

ا (Əlif) Əlif qəddim kəman oldi, sənin hicri-fərağindən,
ب (Be) Bu hicran mənzilində, çöllərə düşdüm sorağindən.
ت (Te) Təəssürati-hicranın nələrdən dasitan eylər,
ث (Se) Susar bülbül səhər tezdən, uçar güllər budağindən.
ج (Cim) Cəmalindən fərəh gəldi, səfaləndi dili-zarim,
ح (He) Hilalin görsənə bayram olur tərzi-məzağindən.
خ (Xe) Xəyalim kişvərin dutmuş məkan bir gözləri ahu,
د (Dal) Dəmadəm dudu-ahimdür çıxan hicran ocağindən.
ذ (Zal) Zəmani-çərxi-möhnətdən nələr çəkdi başım , ey dil,
ر (Re) Rəhi- eşq içrə şadəm düşmədim çərxin qucağindən.
ز (Ze) Zəbani-hindilə, ey dil, vəfasız çərxə yalvarma,
س (Sin) Səda gəlməz dəxi səndən, dilün çıxsın qədağindən.
ش (Şin) Şəmamə ətrinə aləm büründi halbahal oldum,
ص (Sad) Sirişki-laləgunim seyl tək çıxdi yatağimdən.
ض (Zad) Zərəndami-zühasənmiş nigara hüsn bağində,
ط (Ta) Təvazö' qəddim əydi, öpəm yarin buxağindən.
ظ (Za) Zəfər çal, ey dili-qafil, rəhi-təqadə səf bağla,
ع (Əyn) Əyib qəddin rüku eylə düşürmə təmtərağindən.
غ (Ğəyn) Ğəzavət naminə, ey dil, həqiqət mənzilin aşma,
ف (Fe) Fəsahət qıl ədəblərlə qayıt irfan otağindən.
ق (Qaf) Qiyamət bərqərar oldi, günahim varsa əfv eylə,
ک (Ka) Kəşagəşdən canım çıxdi, bu dövranın duzağindən.
ل (Lam) Lətafət bağının, ey gül, əcəb seyrangəhi varmış,

م (Mim) Məlahət cövhərin aç, ey mələksima, dodağindən.
ن (Nun) Nəzərgah əhlinin qayətdə qurbani qəbul olsa,
و (Vav) Vəfa əhli olan kəslər başın çəkməz biçağindən.
هـ (Ha) Həqiqət məsnədində hər kəsə həqqül'əməl versən,
ی (Yə) Yerin ver Nafizin, ya Rəbbi, cənnətlər bucağindən.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Əgər sən olmayasan dəhrdə Leyla kim olar?
Bu vətən bağınə layiq güli-həmra kim olar?

Əgər mən olmasam aləmdə kim fəğan gələr?
Gülşəni-hüsnünə bir bülbüli-şeyda kim olar?

Misri-könlümdə olan Yusifi-sani nəçidir?
Bəzmi-Yusifdə xətavərdə Züleyxa kim olar?

Şeyx Sən'an sitəmi-dağidə Xumarlandi,
Bəlayi-bəhrdə bəs Vamiqi Əzra kim olar?

Nəğmələr mülkünə işğal edib Şəcəryanım,
Böylə gülzari-məlahətdə Pərisa kim olar?

Fərəhlənib, qəmi-eşqində zar olan könlüm,
Künci-vəhdətdə yatan bir fərəhəfza kim olar?

Ey cahan mülkünə minlərlə gələn aşiqlər,
Bir görün dəhrdə bu Nafizi-rüsva kim olar?

****

**Rəcəz-3:**
**Müftəilün / məfA'ilün / müftəilün / məfA'ilün**
**— • • — /• — • — /— • • — /• — • —**

Şəhri-cünuni-eşqi-mən, dillərə düşdi cəm-bə-cəm,
Naleyi-sərd an-ba-an, ahü nəvadi fəm-bə-fəm,
Şami-fərağİ şərh edəm, şəm' əriyərdi şəm-bə-şəm',
Çeşmi-sirişki-nasəza, qəmzə yatağı nəm-bə-nəm,
Ey məhi-bədr qıl nəzər, halimə bunca kəm-bə-kəm.

Mehri-fərağİ-yar ilə, mehr gözümdə zərrədi,
Gərçi mühərriki-qəza, hər tərəfim təkərrədi,
Bir gecə nüqrə cam ilə, yar məni zəhərrədi,
Hali-zəifimi görüb, damğa vurub nökərrədi,
Həm bir üsuli-eşq ilə, tacidar etdi həm-bə-həm.

Bəsdi bu vadii-sitəm, qılıb məni mühasirə,
Eşq çölündə gird olan, meyl eləməz ənasirə,
Kim yetişər hərayimə, əl verə dəsti-qasirə,
Həndəsəvari çəkdilər, cəbr ilə eşqə dairə,
Cəbheyi-eşqə layiqəm, nəğməsərayi-qəm-bə-qəm.

Daği-qəmdən almışam, mən belə dərsi-ibrəti,
Çəkməmiş idi bir qulam, mən kimi dərdü möhnəti,
Kimsənə məncə bulmadi, bunca səzayi-miknəti,

Zəhr dolubsa kasəyə, sangilən eşq şərbəti,
Kasə-bə-kasə nuş elə, qətrə-bə-qətrə dəm-bə-dəm.

Qəmindən ağlamaq nədi, keçibdi zar-zardən,
Bu möhrəgani-eşq olan, nə zövq alar bəhardən,
Cahanın ərzə karıni, eşit bu ixtiyaridən,
Salıbdur eşq Nafizi, kənarə ol həsaridən,
Düşəndə hürküdür fələk, zərafət ilə rəm-bə-rəm.

****

**Mövlana Mühibbiyə nəzirə**

**Müzare-1:**
**Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**
**— — • / — • — • / • — — • / — • —**

"Kuyi-cunanü qaməti-sərvü sənbərəst,
Gözüm yaşi da anda axar abi-kövsərəst."

Çemi-zəmanə görməyib əlbət bu qaməti,
Çərxi-ərusi, qasirü mə'nayi-əbtərəst.

Həmmaliyəm bu bargəhin, barkeş mənəm,
Vardır yeri, mənə desələr, üştüri-nərəst.

Bir sərvikən çəməndə mübarək səmər verər,
Alma yanaği, qönçə dodağ, sinə mərmərəst.

Nafiz, məta'i-şe'rini görə gühərşünas,
Söylər ki, in xəzinə ara dürri-gövhərəst.

**Molla Məhəmməd Zöv'idən təxmis**

**Müctəs-2:**
**MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**
**• — • — / • • — — / • — • — / • • —**

Aram sərinsə ol yari-gülüzarım ilə,
Bacarmıram genə bu suzi-dilfikarım ilə,
İşim də tərsədi ha, çərxi-kəcmədarim ilə,
"Binayi-dustluğum tutmamış nigarım ilə,
Pozun xərab elədim, çeşmi-əşkbarım ilə."

Sənin, ey saqiyi-dilcu, çatıb mənə ərkün,
Bir sınıq cam ilə abad elə, könül mülkün,
Dədələr doğru demiş, var bu misalı türkün,
"Nə vəslə təşnəsən, ey dil, usan, deyil mümkün,
Onun vusalı, bu bəxti-siyahkarım ilə."

Bəxti-mənhusimə sorduqca mənə verdi əzab,
Nə gəzirsən həzarat içrə sən, ey xanəxərab,
Qapusun çərxi-müəllanın edəm təqqülbab,
"Əcəbdi çərx yanıb, həm kəvakib olsa kəbab,
Yüzün qəmində sənin, ahu-pürşərarım ilə."
Çirağ ələ götürüb, mən yari bulmazdım,
Qəmi-eşqə nəzər etdikcə, eşqə dolmazdım,
Gül təmənnası ilə həm saralıb solmazdım,
"Qəmi- fərağı ilə imdi böylə olmazdım,
Qoyaydı gər məni könlüm, öz ixtiyarım ilə."

Vəfavü namtənasib südur edib əlbət,
Dili agahlərə dəmbədəm edər xifvət,

Karvan düşdi yola, Nafiz edirsən qəflət,
“Dedim ki, Zöv’iyə lütf et, dedi: zəri xiclət,
Hənuz zindədir ol hicri-cahşikarım ilə?!”

****

## MÜRƏBBELƏR

**Müctəs-2:**
**MəfA’ilün / fə’ilAtün / məfA’ilün / fə’ilün**
**• — • —  / • • — — / • — • —  / • • —**

Gələndə şur ilə gülşəndə adun, ey bülbül,
Fərəhlənir gülü gülşənziyadun, ey bülbül.
Xəzinələrmi bu dövlətabadun, ey bülbül,
Darıxma hasil olar hər muradun, ey bülbül.

Gəlib çəməndə xüruş eylə nəğmeyi-fərdin,
Uzatma xatiri-zarında naleyi-sərdin,
Kütah söylə nədir bunca artırıb dərdin,
Tükənib yoxsa nədən iqtisadun, ey bülbül.
Dönübdü cənnəti-mə’vayə səhni-gülzarun,
Nə oldu dəbdəbəli tərzi-hüsni-ətvarun,
Cahani doldurub əzbəs ki, naləvü zarun,
Sənin səmimidi qəlbi-fitadun, ey bülbül.

Gah qıldın bu “nəva”lərlə “qəməngiz”ü “Hicaz”,
Şövqə gəl mürği-səhərsənsə qıl imdi e’caz,
Götür bu nüsxeyi-amalına bu nalıni yaz,
Sənin də mən kimi yoxmu səvadun, ey bülbül?

“Nəva”ni dinləməyə Nafiz açdı pəncərələr,
Verdi bu qəlbimi “suzi-güdaz”ə həncərələr,
Lərzə eyləyir, bütün afaqi dutdu zəlzələlər,
Sənin də dalda qalıb Aşqabadun, ey bülbül.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / • — — —**

Sərasər cövrlər çəkdim, dəxil oldum bəladən həm,
Əyilmiş qamətim yayə dönüb, cövrü cəfadən həm,
Fərasət görmədim əhbab içində əğniyadən həm,
Həmişə möhnəti-qəmlər yetişdi aşinadən həm.

Dəmadəm rahi-eşq içrə mənə qaldı nədamətlər,
Bu sövdadə özüm matəm, edim kimdən şikayətlər,
Cəmiyyət mənzilində dövrəmi dutdi ətalətlər,
Ölüb qurtarmadım əslində bu möhnətsəradən həm.

Məlamət mənzilində zövq alarkən ibratilər tək,
Rəhi eşq içrə xoşhaləm, mətinəm, cənnətilər tək,
Çəkib xəlvətsəra zövqün, yəqinəm xəlvətilər tək,
Xəbərlər göndərir ruhum mənim cənnətmə'vadən həm.

Diyari-möhnəti-eşq içrə sərgərdan gəzən Nafiz,
Səriri-səltənətdə caməsi gülgülkəfən Nafiz,
Dəmadəm yar hicrində çəkib beytülhəzən Nafiz,
Alıb dərsi təhəmmüllər Əliyəl-Mürtəzadən həm.

## MÜXƏMMƏS

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / • — — —**

Şəhri-cünun bəyan olur, qöftə-bə-qöftə, hay-ba-hay,
Dərd uzanıb füzun olur, həftə-bə-həftə, ay-ba-ay,
Söyləyim ərzi-halimi, nöqtə-bə-nöqtə, say-ba-say,
Qor tökülür yatağımə, rəxtə-bə-rəxtə, vay-ba-vay,
Açığdı qəm girən qapu, cəftə-bə-cəftə, lay-ba-lay.

Sitəmlər etdilər mənə, almadım intiqamımi,
Gərçi əduyi-kəcmədar, pozubdu hər nizamımi,
Rəqibi-divi görgilən, təsəvvür et səlamımi,
Mənim müqəddərat ilə bilirdilər məramimi,
Qəm ilə doğranır tənim, riştə-bə-riştə, cay-ba-cay.

Ey asimanı xəlq edən, eşit bu ahü zarimi,
Əliyə əhli-naxələf kəsad edib bazarimi,
Fərəhlənib sürur edir, görəndə ruzigarimi,
Ya doldur eşq sağərin, ya hazır et məzarımı,
Gətir piyaleyi-sıfa, süftə-bə-süftə, pay-ba-pay.

Bahar olanda könlümün məlali artır, il-bə-il,
Gəlir fəğanə əndəlib, təranələrlə dil-bə-dil,
Mükəddər etdi dəm-bə-dəm, çəkəndə nalə zil-bə-zil,
Tökər sirişki gözlərim, Dəclə-bə-Dəclə, Nil-bə-Nil,
Cigər qaniylə-rəng ürub, ləxtə-bə-ləxtə, çay-ba-çay.

Ayaq açıb təranələr, gəzir cahani, su-bə-su,
“Rəhavü” nəğmeyi-“Nəva”, tədavül etdi, du-bə-du,
Görəndə əndəlib ilə gəlib fəğanə ru-bə-ru,
Məzəmmət etmə Nafizi, gəzir cəhani Hu-bə-Hu,
Sözün kilidin açmağa, cəftə-bə-cəftə, tay-ba-tay.

****

## QOŞMA

Gəzib seyr elədim cahan mülküni,
Bir dəxi qismətim ola-olmaya.
Bir də seyr eyləmək niyyətimdə var,
Bilməm əzimətim ola-olmaya.

Bir saz idim Səmərqənddə telləndim,
Buxaranın məclisində dilləndim,
Qarabağda “sarəng” ilə şelləndim,
Şirvanda qiymətim ola-olmaya.

Qovğalərə düşdüm cavan yaşımnan,
Bir an ayrılmadım can təlaşınnan,
Bir öy tikdim Qaf dağının daşından,
Babi-səadətim ola-olmaya.

Hafizəm yaratdım möcüzatlari,
Dərk etdim eyhami, rümuzatlari,
Dutub ram elərdim köhlən atları,
Bir də fərasətim ola-olmaya.

## HACI AQİL MƏLİKOV (1952)

Məlikov Aqil Qədəşbala oğlu 2 may 1952-ci ildə Bakının Sağan qəsəbəsində anadan olmuşdur. Orta təhsilini (8 illik) Sağan qəsəbəsi 124 №-li və Mərdəkan qəsəbəsi (2 il) 183 №-li məktəblərdə almışdır. 1969-73-cü illərdə indiki N.Tusi adına Pedaqoji Universitetin tarix fakültəsini bitirmiş və sonra bir neçə il orta məktəbdə tarix müəllimi işləmişdir. 1976-80-ci illərdə A.Zeynallı adına orta ixtisas məktəbinin xanəndəlik sinfində Hacıbaba Hüseynovun tələbəsi olaraq təhsilini davam etdirmişdir. 20 illik müəllimlik fəaliyyəti ilə yanaşı Aqil Məlikov, dini musiqilərin mahir ifaçısı və xananda kimi püxtələşmişdir. Türkiyədə keçirilən "Ümumdünya Mistik Müzik Festivalı"-nın laureatçısı olmuşdur. 2009-cu ildə Milli Konservatoriyanın rektoru Siyavuş Kərimi və professor Arif Babayevin dəvəti ilə xanəndəlik kafedrasında müəllim kimi fəaliyyətə başlamışdır. "Rast", "Zabul Segah", "Şur" muğamları, müxtəlif muğam və təsnif-lərdən ibarət konsert və səs yazıları ifası Dövlət Tele-Radio Fondunda qorunur. 2015-ci ildə Azərbaycanın Əməkdar İncəsənət xadimi adına layiq görülmüşdür. Prezident təqaüdçüsüdür.

Klassik şeir və qəzələ olan marağı onun uzun illər Aqil Məlikovun da şeirlər yazmasına səbəb olmuşdur. Onun bu şeirləri 2025-ci ildə şair, yazıçı-kinodramaturq İlqar Fəhmini redaktəsində “Qəzəllər toplusu” adlı kitabda toplanmışdır. 494 səhifəlik kitaba xanəndə-şairin qəzəlləri, müxəmməs, müsəddəs, münacat, tərbi, təxmis, qoşma və s. janrlarda şeirləri daxil edilmişdir.

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Ümidün üzmə könül, məclisə ol yar gələr,
Üzü gül, lalə yanaq, gözləri xummar gələr.

Gül üçün bülbüli-şeyda keçər öz canından,
Gül salar meylini xarə, oluban xar gələr.

Həvəsi- silsileyi-zülfü sevən hər aşiq,
Bağlanar türreyi- cananə, günü tar gələr.

Dilbərim gəlməsə mən meyli-şərab eyləmərəm,
Yar əgər gəlsə, o bəzmə meyi- gülnar gələr.

Eşq peymanəsidir aşiqi sərməst eləyən,
Məsti-minayi-ələst məclisə hüşyar gələr.

Əhli - fəqrə belə bir künci-qənaət xoşdur,
Sahibi-elmü ədəb, vaqifi-əsrar gələr.

Aqila, sən də çalış, eşqdə sabitqədəm ol,
Ay keçər, il dolanar, yari-mədədkar gələr.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Könlüm açılır məclisi-meyxanələr içrə,
Can təzələnir aqilü fərzanələr içrə.

Ariflər içində bilinər qiyməti lə'lin,
Cahil sözü keçməz səfi-mərdanələr içrə.

Eşq atəşinə yanmalıdır aşiq ölüncə,
Ta ölməsə olmaz yeri divanələr içrə.

Zülfün üzünü tutsa, pərişanlıq olar bil,
Dil parələnər, rəxnə düşər şanələr içrə.

Xanəndə gərək sözdə olan mətləbi bilsin,
Bilməzsə, düşər hörməti toyxanalar içrə.

Bilməzsən əruzi, qəzəli, qoşmanı şayəd,
Toyxanəyə girmə, oxu çayxanalar içrə.

Aqil, dediyin misrəi- nazi elə saxla,
Qalsın, yaşasın söz kimi dürdanələr içrə.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Sən bir gülə bax, bülbüli- şeydanı bəyənməz,
Sən qətrəyə bax, dalğalı dəryanı bəyənməz.

Sən alimə bax, elmi cahanı edib ehya,
Sən cahilə bax, məniyi-Qurani bəyənməz.

Sən şairə bax, sözləri dürdanəyə bənzər,
Sən qafilə bax, söz nədi, loğmanı bəyənməz.

Sən zahidə bax, rövzeyi- rizvan həvəsində,
Sən arifə bax, dildə təmənnanı bəyənməz.

Sən Məcnuna bax, "Leyli" deyib, çöllərə düşmüş,
Vardır elə kəslər, qəmi Leylanı bəyənməz.

Dünyada ədalət deyilən ölçü pozulmuş,
Həqqi sevən insan belə dünyanı bəyənməz.

Sən Aqilə bax, sözdə arar hikmətin əslin,
Düşmüşsə sözün sehrinə, hədyani bəyənməz.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Gördüm üzünü bağçada çün lalə misali,
Çöhrəndəki tər danələri jalə misali.

Rüxsarü cəmalın məhi-tabanə bərabər,
Zülfi - siyəhin ay üzünə halə misali.

Gözdən axan al rəngli sirişkim nəyə bənzər,
Sanki ciyərim qanıdı pürkalə misali.

Göz məst, dəhən qünçə, xalın daneyi-təzvir,
Gül ləblərinin nisbəti var balə misali.

Aqil, səni gözdən salan ol yarə güvənmə,
Ta sevməyəsən birdə bədəfvalə misali.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / •— — —**

Gəl ey gülzari-hüsn içrə gülü-xəndan olan dilbər,
Nəsibi aşiqin səndən qəmi-hicran olan dilbər.

Açıb qəm dəftərin elmi-bəlani tə'lim eylərsən,
Bu dərsi səndən aldım, afəti-dövran olan dilbər.

Danış, göftarına heyran olanlar çağlasın, coşsun,
Mənim də taleyim gülsün, məhi-taban olan dilbər.

Alıbdır könlümü, heyrətdəyəm ki, gözlərin şövqü,
Budur məsti-xətadidə gözü fəttan olan dilbər.

Əsirin mən kimi minlərlədir çün, ey kaman-əbru,
Sənin eşqində təkcə bir mənəm giryan olan, dilbər.

Göreydi gər səni Yusif, deyərdi- bu vəcahətdə,
Züleyxa yox, budur çün canıma canan olan dilbər.

Bu qədri etmə dilbərdən təmənna, bəsdir ey Aqil,
Gələr insafə bir vəqti, şəhi-xuban olan dilbər.

****

**Müzare-1:**
**Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**
**— — • / — • — • / • — — • / — • —**

Artırma hicr əzabını, ey dilruba mənə,
Görmə bu qədri rəncü məlali rəva mənə.

Bax sən mənə, hərcayi gözəllər məni sevməz,
Gəlləm gözə gözəl, yetir hər dəm dua mənə.

Hər gün üzün görəndə bu aləm fərəhlənir,
Xoşdur, bu ne'məti edib Allah əta mənə.

Min cazibə vardır, gözəlim məst gözündə,
Gərçi yalansa, üz verə yüz min bəla mənə.

Sənlə keçən anında, gözəl, başqa zövqü var,
Sənsiz keçən ömür verü dərdü bəla mənə.

Olma rəqibə yar, rəva görmə, dilbəra,
Ta həsrətin yetirməsin ahü nəva mənə.

Könlümdə saxlaram ləbi-lə'lin xəyalini,
Aqil, edərsə o nəzəri-e'tina mənə.

****

**Həzəc-9:**
**Məf'Ulü / məfA'İlün / məf'Ulü / məfA'İlün**
**— — •/ • — • — /— — •/• — • —**

Gəldi elə bir dövran, söz düşdü təravətdən,
Nadanə qalıb meydan, söz düşdü təravətdən.

Söndü əruzun şəm'i, keçdi qəzəlin vaxtı,
Çoxlar danışır hədyan, söz düşdü təravətdən.

Sözdən alıb ilhami, hal əhli tapar hali,
Hal etməyə yox imkan, söz düşdü təravətdən.

Hər bir qəzəlin beyti, misrası bir aləmdir,
Ürfandır adı, ürfan, söz düşdü təravətdən.

Toyxanədə meyxanə, çay xanədə meyxanə,
Lə'nət sənə kor şeytan, söz düşdü təravətdən.

Ey xoş o zamanlar ki, şairlərimiz vardı,
Rəhmət olara hər an, söz düşdü təravətdən.

Keçmişləri yad eylə, ol ruhları şad eylə,
Sözdür ədəbü ərkan, söz düşdü təravətdən.

Aqil, sözə qiymət ver, şe'rü qəzəli atma,
Bir gün ayılar nadan, söz düşdü təravətdən.

****

**Rəməl-6:**
**Fə′ilAtün / fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Kim ki, öz qəlbini atəşdə kəbab eyləməyib,
Demək aşiq deyil, ömründə səvab eyləməyib.

Əsil aşiq dözüb hər möhnətə, dərdə, sitəmə,
Dərdini dağə deyib, xəlqə xitab eyləməyib.

Nədir, aşiqdə vəfa olmasa, dünya dəyəri,
Kim deyər eşqdü bu cilvə, sərab eyləməyib?

Kəsmə məndən nəzərin, gözdən uzaq olma gözəl,
Bir də gördün ürəyim hicrinə tab eyləməyib.

O bəlalər, o cəfalar ki, mənə qıldı rəva,
Leyli Məcnunə belə zülmü əzab eyləməyib.

Tutsa xanəndə "Nəva" pərdəsinin cilvələrin,
Ta "Əmirisiz" oxunmuşsa, "Rahab"eyləməyib.

Əsli zatinda kimin varsa şərarət küfrü,
Çox asanlıqla danıb həqqi, hicab eyləməyib.

Olma Aqil kimi səndə bu qədər səhlənkar,
Yazmağa şer yazıb, amma kitab eyləməyib.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Düzmü söylərlər ki, sən bir nazlı canan olmusan,
Can alan, evlər yıxan bir afəti-can olmusan.

Bu nə mö'cüzdür ki, sən heyran qılıbsan aləmi,
Mahi-rüxsarım, məgər mehri-dirəxşan olmusan?

Aşiqi-zarə məzəmmət eyləmə, naseh, çəkin,
Sən nə vaxtdan əhli- təqva, əhli iyman olmusan.

Çünki sən gəlsən xümarə, ey qədi-sərvi -rəvan,
Sanki bağı-hüsndə sərvi-xuraman olmusan.

Məcnunasa mən dolannam çölləri divanə tək,
Sən də bir Leyli misali zarü giryan olmusan.

Əbr zülfün dağıdıbdır çöhrənə sübhi-nəsim,
Ruzi-məhşərdir məgər zülfü-pərişan olmusan?

Yüz gözəl öz dilbərimdən başqa açmaz könlümü,
Aqil üçün, sevgilim, sən mahi-taban olmusan.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / •— — —**

Bu dünyayə gələnlər şad gəlib, naşad getmişlər,
Pərişan tirə bəxtindən dili-bərbad getmişlər.

Çün ibrət almadı heç kəs tükənməz macəralərdən,
Kimi alim, kimi zalim, kimi cəllad getmişlər.

Kimisi rast olub mərdə, kimi möhtac namərdə,
Kimisi xeyirdə, şərdə qoyublar ad getmişlər.

Kimi Hatəm səxavətdə, kimi Rüstəm şücaətdə,
Kimi Yusif nəcabətdə olub ustad getmişlər.

Hanı, ey bivəfa dünya, vəfalı aşiq əyyami,
Hanı Məcnun, Kərəm, Sənan, hanı Fərhad getmişlər.

Kimi cənnət həvasilə, kimi düzəx cəzasilə,
Kimi dost iddəasilə qalıb azad getmişlər.

“Gələn qalmaz, gedən gəlməz” deyənlər həqqi söylərlə,
İlahi, onların ruhun sən eylə şad getmişlər.

Əgər aqillər içrə Aqili əhli- kamal istər,
Onun da adını fərz et, ediblər yad getmişlər.

****

**Müzare-1:**
**Məf’Ulü / fA’ilAtü / məfA’İlü / fA’ilün**
**— — • / — • — • / • — — • / — • —**

Qəm çəkmə, ey könül, xəbər ol yardən gələr,
Qaşı kaman, kipriyi xunxardən gələr.

Hicranı artırar ələmi-intizarımı,
Kəsməm ümidi yari-sitəmkardən, gələr.

Gəldikdə ayrı cür bəzənər qünçə gül kimi,
Ol qünçə gül ki, bağı- çəmənzardan gələr.

Yarın sevən aşiq görü mə'şuqədən cəfa,
Gül xarə yar olar, qəmi də xardən gələr.

Cana, ləbindən eylə bu dərdin əlacını,
Biçarə çarəsi dediyim çarədən gələr.

Cahil bilirmi sövti- muğamın məziyyətin,
Bilməz o həzzi, çəngü dəfü tardən gələr.

Aqil, dayan bu şövqdə mərdanələr kimi,
Qorxma ki, yüz cəfa sənə əğyardən gələr.

****

**Müzare-1:**
**Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**
**— — • / — • — • / • — — • / — • —**

Yandım o şəm'i -ruyinə, pərvanə incidi,
İçdim ləbin şərabını, peymanə incidi.

Tutduqda pəndi-zahidi, atdıqda biz meyi,
Rəncidə qaldı, məclisi -məstanə incidi.

Ahimlə çəkmək istədim əl zülfi-yarə mən,
Məndən küsüb, dönüb də üzü, şanə incidi.

Hər kim ki, elmü mə'rifətin tapmadı yolun,
Axtarmadı xəzinəni, viranə incidi.

Aldı, apardı könlümü zülfün xəyalı, ah,
Könlüm də gəldi ah ilə əfğanə, incidi.

Dünya nə şahə qıldı, nə sultanə bir vəfa,
Fir'on da getdi, qaldı o kaşanə, incidi.

Məcnunə Aqiləm dedim ariflər içrə mən,
Məndən təmam aqilü divanə incidi.

****

**Həzəc-9:**
**Məf'Ulü / məfA'İlün / məf'Ulü / məfA'İlün**
**— — • / • — • — / — — • / • — • —**

Gəl, ey gözümün nuru, zövq əhli, xiridar ol,
Guş eylə məqamatı, ta vaqifi-əsrar ol.

Tarınmı sədasından aləm belə ehyadır?
Xanəndənin avazi e'cazi-məsihadır.
Çək məndən əlin, cahil, gör burda nə dəsgahdır,
“Rast" ilə “Humayun”ə diqqətlə həvəskar ol.
Guş eylə muğamati, ta vaqifi-əsrar ol.

Cabbar ilə Seyyiddi ustadlər ustadı,
Zülfüylə Xan olmuşdur sənətdə qoyan adı,
Hacıydı muğamatın həm Məcnunu, Fərhadı,
Bilmirsən əgər oğlum, öyrən bunu, huşyar ol,
Guş eylə muğamati, ta vaqifi-əsrar ol.

Vardırsa gözəl sövtün, söz yoxdursa, biçarə,
Etmə özünü çaş-baş, həm də bizi avarə,
Ariflər olan yerdə düşsən çətinə, darə

Öyrən, yenə də öyrən, öyrən və xəbərdar ol,
Guş eylə muğamati, ta vaqifi-əsrar ol.

Meydani-məhəbbətdə can qoymalıdır aşiq,
Sənətdə də, söhbətdə can qoymalıdır aşiq,
Bu vadiyi-vəhdətdə can qoymalıdır aşiq.
Candan keçən aşiqsən, gəl sən də bizə yar ol,
Guş eylə muğamatı, ta vaqifi-əsrar ol.

Hər məclisə girdinsə, arifləri axtar sən,
Gəncineyi-ürfanə vaqifləri axtar sən,
Fəhmiləri, Vasimləri, Vasifləri axtar sən.
Aqil, sözümün məğzi oldur ki, fədakar ol ,
Guş eylə muğamati, ta vaqifi-əsrar ol.

## YAŞAR CAHİD (1957-2020)

Yaşar Cahid 1957-ci ildə Nardaranda doğulub. Asəf Zeynalli adına Musiqi məktəbində oxuyub. Sonralar Əhli-Beyt qrupunda öz şeirlərinə qoşduğu mahnıları ifa edib. Əsərləri dərc edilmədiyindən bura daxil edilmiş şeirləri ifalarının video yazılışlarından toplanmışdır.

Haci Yaşar Cahid Nardarani 2020-ci ildə vəfat edib.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Aləmlərə məşhur eləyən insanı əməldir,
Fəth eyləyən aləmi imkanı əməldir.

Məqsudinə yetməzsən əgər olmasa, ey dil,
Məqsudinə yetməyin asanı əməldir.

Eşq əhli idi həzrət Əli, Salman da Rəsulun,
Məhrəm eləyən beytinə Salmanı əməldir.

Tək elmilə Loğman da ucalmazdı, odur ki,
Loğman tanıdan aləmə Loğmanı əməldir.

Ey dil-dil ötən, dildə deyən aşıqi həqqəm,
Aşiqliyi isbat eləmək ünvanə əməldir.

Asi olaraq əymədi baş Adəmə Şeytan,
Şeytan eləyən İblisi Şeytani əməldir.

Cavid əgər imanlısa, göstərsin əməl də,
Əks etdirən insandakı imanı əməldir.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Mən qərgi günahəm, məni əfv elə, İlahi!
Bir ruyi siyahəm, məni əfv elə, İlahi!

Surətdə gədalıq elədim mən sənə, əfsus,
Mənadasa şahəm, məni əfv elə, İlahi!

Səndən uzağam xeyli zamandır, yolun azdım,
Biganəyə rahəm, məni əfv elə, İlahi!

Güllər də, çiçəklər də, sənin lütfünə möhtac,
Bir teşnə giyahəm, məni əfv elə, İlahi!

Məşhərdə üzüm qarə hüzurunda dayansam,
Rəhmində pənahəm, məni əfv elə, İlahi!

Qurtar məni zülmət gecəsindən ki, görüm mən,
Bir sübhi-səbahəm, məni əfv elə, İlahi!

Vaciblə səvab qaldı, həramında çəkindim,
Xeylində mübahəm, məni əfv elə, İlahi!

Aşıq deyiləm, amma ki, eşq əhlindəki müştaq,
Cahiddəki ahəm, məni əfv elə, İlahi!

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Olmasaydı Əli, din içrə səfa olmaz idi,
Mürtəzasız nə səfa ruhə qida olmaz idi.

O Əlidir bizə göstərdi həqiqət yolunu,
Yoxsa ondan səvayi rahi-huda olmaz idi.

Əliyə söylədi mizani-ədalət o Nəbi,
Əli olmazsa ədalətli-qəza olmaz idi.

Rəxti xabında yatıbdır o Peyğəmbərdən ötür
Ki Əlitək bu işə kimsə riza olmaz idi.

Zülfüqar ilə Əmr ibn Əbdəvüd başına
Vurmasaydı Əli, küfr-əhli gəda olmaz idi.

Bir Əliylə qoparıb cəngidə Xeybər qapısın,
Əlisiz kimsədə bil eylə şüca olmaz idi.

Vurduğu zərbəyə xatir o Əli şənində,
"La fəta" kəlməsi göylərdə səda olmaz idi.

Vurmasaydı yerə yüzlərcə o aslan kürəyin,
Adı dillərdə bu gün şiri-Xuda olmaz idi.

Olmasaydı Əli xaliq o xaman xaliqdən,
"Həl əta" surəsi Məhmudə nida olmaz idi.

Verdi ənqüstərini sailə əsnayi-namaz,
Kimsə əshabidə bir böylə səxa olmaz idi.

Danmasaydı Əlinin haqqını nadanlar əgər,
İndi din içrə inan bircə xəta olmaz idi.

Uymasaydı o zaman munkiri-mövlaya çoxu,
İndi mövlayi-Əlidən o cüda olmaz idi.

Hansı millət ki, Əlisizdi, ona yox çarə,
Olara indi düçar dərdi bəla olmaz idi.

Cahida dərk edə bilsəydik Əli həqqini biz,
Əlidən qeyri zikir, dildə dua olmaz idi.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Zəhranı sevən kəs gözü naməhrəmə baxmaz,
Yüngül su kimi yırğalanıb hər yerə axmaz.

Allah boyağından savayı bir boya yaxmaz,
Zəhranı sevirsənsə ona bəzmidə ağla,
Sal yada o pünhan qəbiri sinəvü dağla.

Zəhranı sevən əyrini sevməz, düzü xoşlar,
Bihudə sözü rədd eləyər, düz sözü xoşlar.
Düzsə biri, vallah, onu Zəhra özü xoşlar.
Zəhranı sevən həqqi özündən tələb eylər.
Divanə qədəm qoysa yəqinə ədəb eylər.

Zəhranı sevən hifz eləyər başda hicabı,
Tərk eyləməz heç vəchilə qiblə səvabı.
Fikr eylə hicab dərdə salıb əhli-nifaqi.
Hər gah hicab bağlasa qız, onda xanımdı.
Zəhra dediyin ruhumdu o kəs, təndə canımdı.

Zəhra sevənin qəlbi təkəbbürdən uzaqdır.
Yatmıb onun qəlbi həqiqətdə oyaqdır.
Dinə, vətənə, namusa, vicdana dayaqdır.
Zəhra sevənin insanlara quran ola canlar.
Düşmənlə durub üz-üzə amadə olanlar.

Zəhra sevən məscidi-minbər, azan istər.
Bu mövzuya nisbət verən alim, yazan istər.
Zəhra sevənin Mehdi Sahibzaman istər.
Cahid sevinər xidmətə Zəhra qapısında
Nökər dayanar istərsə bədha qapısında.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Gir eşqilə meydanə cürətlə Əlidən de,
Bax lütf ilə ətrafə diqqətlə Əlidən de.

Çünki odur aləmdə aşiqlərin ustadı,
Ondan diliyər mömin hər müşkilə imdadı.
Ruhən gələr aşiqlər çəksə Əli adı,
Gəldinsə əgər ruhə, ruyətlə Əlidən de.
Gir eşqilə meydanə cürətlə Əlidən de.

Meydanı şücaətdə varmı ona bir həmtən,
Tahaya[1] odur aşıq, aşiqdir ona Taha,
Zəhra Əliyə Taha, Zəhraya Əli həmta.
Zəhradan həya eylə, iffətlə Əlidən de.
Gir eşqilə meydanə cürətlə Əlidən de.

İmansızı imanə bil ki, gətirər mövla,
Dəryaları tufanə bil ki, gətirər mövla,
Qeyrətlini meydanə bil ki, gətirər mövla,
Düşmən önünə çıxdın nifrətlə Əlidən de.
Gir eşqilə meydanə cürətlə Əlidən de.

Bir vaxt Qədir-xumda ərz etdi o Tahamız,
Məndən sora layiqdir, rəğbətliyə mövlamız,
Şənində o Quranda var ayeyi qurbamız,

---

[1] Taha (Tavü Ha) - ə. Məhəmməd peyğəmbərin adlarından biri.

Gəl şiyə yubanma tez, sürətlə Əlidən de.
Gir eşqilə meydanə cürətlə Əlidən de.

Ziddi Əlinin bağrın yar de ucadan: Heydər!
Bəlkə o utanıb etsin ar de ucadan: Heydər!
Kimdə bu cürə mövla var, de ucadan: Heydər!
Biz azəriyik durma, taətlə Əlidən de,
Gir eşqilə meydanə cürətlə Əlidən de.

Düşmənlərin əfdadın yandır de: Əli həqdir!
Qanmazları hər yerdə qandır de: Əli həqdir!
Zalim çırağın qoyma söndür de: Əli həqdir!
Yatmışlara aşkara, xəlvətdə Əlidən de.
Gir eşqilə meydanə cürətlə Əlidən de.

Zalimlə küffarin vardır Əlisi? Yoxdur!
Ol firqeyi-şeytanın vardır Əlisi? Yoxdur!
Ol leşkəri udvanın vardır Əlisi? Yoxdur!
Yoxdursa əgər, fəxr et, ümmətlə Əlidən de.
Gir eşqilə meydanə cürətlə Əlidən de.

Qoyma ayağın səfdə, durma aralı, nadan,
Saqqal uzadıb gəzmə, bu fəxri deyil, insan,
Bu yol nə şəriətdir, həm də ki, nə də irfan,
Səcdə elə Allaha türbətlə Əlidən de,
Gir eşqilə meydanə cürətlə Əlidən de.

İsmiylə əgər şağər məclis qurula sən də,
Gəl ki, bu cəmaətlə mədhin oxuyam mən də,
Yox fərqi ola tufan, sel, qar ya duman, çən də,

Gəl sən də əzizanə dəvətlə Əlidən de,
Gir eşqilə meydanə cürətlə Əlidən de.

Dur rami Əli qəddə bu yolda təməl vardır,
Bu dəşti vilayətdə eşq ilə əməl vardır,
Hər kəs ki, qəbil etməz, zatında xələl vardır,
Düşmən ürəyin partdad, qüvvətlə əlidən de,
Gir eşqilə meydanə cürətlə Əlidən de.

Eşq ilə məcal istə, huş et deginən: Heydər!
Dinlə bu vəziyyətdə guş et deginən: Heydər!
Gəl vəcdə nəhayətdə cuş et deginən: Heydər!
Zikri Əlidən doyma, saətlə Əlidən de,
Gir eşqilə meydanə cürətlə Əlidən de.

Bir vaxtda o müşriklər ruhun əgər incitsə,
Peyğəmbərə, mövlayə pozğun bir əməl etsə,
Qeyrət sənə güc gəlsə, səbrin tükənib bitsə,
Çıx sən də bu meydanə, millətlə Əlidən de,
Gir eşqilə meydanə cürətlə Əlidən de.

Ya Rəb elə sən qismət, qəbrin öpək ahəstə,
Türbətinə edək səcdə, qoyduqca bu göz üstə,
Qəbri şərifin tutdun, bu cəmə şəfa istə,
Zəvvari deyək Cahid,  minnətlə Əlidən de,
Gir eşqilə meydanə cürətlə Əlidən de.

****

**Rəməl-5:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilAtün**
**• • — — / • • — — / • • — — / • • — —**

Gəl gedək Kərbübəlayə, qoşulaq ahu-nəvayə.
Sən Hüseyn vay deyib ağla, səs salaq Kərbübəlayə.

Neçə illərdi qəmindən, bu ürək yarəli ağlar.
Analar körpə uşaqlar, başına qarəni bağlar,
Görə kim qəmli məzarın sinəsin qəm ilə dağlar.

Odur bir saqiyə kövsər, dəri meyxanəsiyik biz.
Odur eşqin şəmi nuri, ona pərvanəsiyik biz.
Odu səhrayi qəmi eşq, ona divanəsiyik biz.

Bu gözəl bəzmi əzadə, durar amadələr ağlar.
Gələr amadə olanlar, coşar azadələr ağlar.
Qəmi eşqin odu ilə yanar oftadələr ağlar.

Bizi bu qəmli məkanda, edib avarə o zalim.
Niyə nifrətlə baxır bəs, dəru divarə o zalim.
Qəmi qəmlə calayır bəs, dili qəmxarə o zalim.

Görəcəksən ki bu çöldə, yıxılıb yarali Əkbər.
Necə oxlandı bu çöldə, altı aylıq Əli Əsğər.
Qolu bağlı küçələrdə, üsəra yar ilə yavər.

Baxasan orda bəsirətlə, o Tahanı görərsən.
O Hüseyn qəbrinin üstə, qəmi Zəhrani görərsən.
O kəsik qaninə batmış, səri Mövlani görərsən.

Görək o qəmli məzarın, sənə heyran ola Cahid.
Əgər istirsə o rəbbin, sənə qurban ola Cahid.
Gələ bir cəm ilə bahəm, sənə mehman ola Cahid.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Könlümün mülkünə ağacı, başımın tacı, ata.
Eşqimin ən uca ifadəsi, meraci, ata.

Yaxdı, yandırdı fəraqin bizi, sənsiz nə edək?
Olmuşuq xeyli zamandır ata möhtacı, ata.

Can verən vaxtı sənin görmədi bir övladın,
Ay qərib yerdə verən canını sər-tacım, ata.

****

**Həzəc-16:**
**FA'ilün / məfA'İlün / fA'ilün / məfA'İlün**
**• — • / • — — — / • — • / • — — —**

Lə İləhə İləllah deyən dillər var olsun,
Yer üzündə, İlahi, Quran payidar olsun.

Niyyətimiz Allaha bəllidir bu dünyada,
Hər tərəfdə, hər yerdə insan bəxtiyar olsun.

Allahu-əkbər deyə qalxaq mübarizəyə,
Azərbaycan elinin qış ömrü bahar olsun.

Müsəlmanlar bir olun, tutaq Həqqin ipindən,
Azadlıq səadəti bizlərə də yar olsun.

Ey vətən övladları, cəhd edək ki, düşmənə
Dinimiz, torpağımız qoymayaq şikar olsun.

Azadlıq səsi ucaldardıq biz,
Qoy xoşbəxt olsun gözəl xalqımız.

"Vətəni sevmək imandandır"
Söyləmiş gözəl peyğəmbərimiz.

Hər yerdə daim fikrim La İlahə İlləllah,
Həmişə daim zikrim La İlahə İlləllah.

Məhəmmədün rəsulillah,
Əliyyən vəliyullah,
Vəsiyum rəsulillah.
Əhmədün rəsulillah,
Dildə demişəm əzbər –
Allahu əkbər.

****

## ƏLİ NƏCƏFZADƏ TƏNHA (1956)

Əli Ziyad oğlu Nəcəfzadə 1956-cı il yanvar ayının 2-si Bərdə rayonunun anadan olmuşdur. Atası Ziyad Nəcəfzadə Cənubi Azərbaycanın Ərdəbil şəhərindən 1946-ci il hadisələrindən sonra Bərdəyə köçmüşdür.

1973-cü ildə orta məktəbi bitirib. Daha sonra əsgərlikdə xidmət etmişdir. Əsgərlikdən sonra 1978-ci ilə Asəf Zeynallı adına Musiqi məktəbinin muğam şöbəsinə daxil olmuş, Hacıbaba Hüseynov sinifində təhsil almışdır. Musiqi məktəbini bitirdikdən sonra 1982-1994-cü illərdə Bakıda yaşayıb. Bu dövrlərdə Bakı və Bakı kəndlərində toy məclislərində xanəndəlik etmişdir. Bundan sonra o, 24 il Tehran şəhərində xanəndəlik sənəti ilə məşğul olub, öz musiqimizi təbliğ etmişdir.

Misiqi məktəbində təhsil aldığı dövrdən müəllimi Hacıbaba Hüseynov təsiri ilə musiqi ilə yanaşı şeirə, qəzələ həvəs yaranmış və 24-25 yaşından qəzəllər yazmağa başlamışdır. Bu qəzəllərin yazılmasında ona müəllimi Hacıbaba Hüseynov yol göstərib.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Tanrı öz qüdrəti ilə, yaradıb dünyanı,
Bəşər övladı olub, yer üzünün mehmanı.

İstər cahil, istər arif, ya divanə ola,
Ömr kitabında yazılıb, hərənin nöqsanı.

Şükr elə Tanrıya, xoş gün görəsən dünyadə,
İlahi, bəxş eləsin, bizlərə bu imkanı.

Aşiq olan, sızlayıb ağlar səsi çıxmaz,
Hər adam dərk eləməz, hikmət ilə mənanı.

Səxavət əhli olan, çox ucalar dünyada,
Sidq ilə Allahı sevən, yaradacaq səhmanı.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

İstəyirsən sevənlər, qoca dünyadə səni,
Tənha, namərdə gərək, verməyəsən meydanı.

Xəm qılıb qəddimi, dərdi qəmi həmxanələrin,
Yoxdur bir kimsə yetə dadına üftadələrin.

Məni atəş bürüyüb, yanmadadır balü pərim,
Yanıram, şəmtək gecələr, halına pərvanələrin.

Arif insansan əgər, bilməlisən eşq nədir,
Eşqə yanan biləcək, qədrini divanələrin.

Səni əsir eliyər, uyma zülfi qarələrə,
Müşkül işdir çəkəsən, nazını canançələrin.

Saqi rəhm eylə bizə, badeyi gülgüni gətir,
Deyəsən dərdi çoxalmış, yenə məstanələrin.

Tənha, mərdanə olan kəs yetişər imdadə,
Dolanam başına məndə, yenə mərdanələrin.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Nədən aşiqə verirsən, bu qədər dərdi-səri,
Nə olar agah edəsən, mənidə müxtəsəri.

Aşiqəm, hər kəs ki deyir dözməlidir hicranə,
Bir quru ahı qalıb, aşiqin yoxdur hünəri.

Qurumuş ney kimi, fəryad eləyir şamu səhər,
Ahü vayla, keçər ömrü, fayda verməz səməri.

Sinəsi dağlı olan, laləyə bənzər gözəlim,
Yuxun ərşə çəkilər diri açarsan səhəri.

Dedim insafə yaxınlaş eləmə cövri-cəfa,
Zülmün az eylə yetər məhv edəcəksən bəşəri.

Mən insan kimi, ömr, eyləməsəm aləmdə,
Yəqin olmaz Tənhanın, sözlərinin bir dəyəri.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Viranə könlümə yox kimsə yetə imdadə,
Mən dili pəjmürdəyəm, saqi ver içim badə.

Mey içib çəngü dəfü tar ilə biz seyr eliyək,
Oxu xanəndə muğam, gəlsin bülbüllərdə fəryadə.

Dinləyək rast -hümayun gah rəhab içrə əraq,
Məst düşmüşdü hamı, əhsən bu böyük ustadə.

Zabulla çox düşünüb, segah ilə ağlayıram,
Gəh nəva gəhi hicaz içrə məni sal yada.

Dolanıb cümlə cəhanı, çəkirmiş yədi-həsar,
Həbs edə bəsdənigar içrə məni, dünyadə.

Mayeyi-şur ilə sor cümlə bəşər halını sən,
Kürdi-Şəhnaz ilə rəhm et, mən evi bərbadə.

Tənhayəm, vətənimlə dilimin aşiqiyəm,
Nə qədər var nəfəsim, olmalıyam amadə.
****

**Rəməl-6:**
**Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Mərizi eşq olanın, dərdinə dərman olmaz,
Sevdayi məhəbbətdə, aşiqə səhman olmaz.

Eşq səhrasına sən, kor korana qoyma qədəm,
Ora bir xaki bəladır, orda nadan olmaz.

Allahı sevən şəxsin, imanı gərək olsun,
Qan töküb zülm eliyən şəxsdən, müsəlman olmaz.

Cahillər ilə arifləri bərabər tutma,
Ədəbi, mərifəti olmayan, insan olmaz.

Dağ çəkib sinəsinə, dağı sökən Fərhadın,
Olmasa eşq məhəbbət Şirinə heyran olmaz.

Səxavət əhli olanlar, sevilər dünyadə,
Talibi eşqəm əzəldən, məndə üsyan olmaz.

Tənha bu, dərdi səri çəkməyə ta tabım yox,
Aşiq səbr etməlidir, naleyi əfqan olmaz.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Bəsləyək, ey dil, Xaliqi Sübhanə məhəbbət.
Varımdır, bir sərv boylu cananə məhəbbət.

Hörməti İzzət ilə, verəsən yarə könül,
Niyə bəs olmasın, bəzmi ürfanə məhəbbət.

Fərhadda vurub, kuhidə öz başına tişə
Agah eləyib, eşq ilə Şirinə məhəbbət.

Eşqə düşən aşiqlərin, aqibəti qəmdir,
Yəqin ki olub, Leylidə Məcnunə məhəbbət.

Tənha bu dünya qəm evidir, şadlığı yoxdur,
Ancaq qalacaq dünyada insana məhəbbət.

****

**Müctəs-2:**
**MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**
**• — • — / • • — — / • — • — / • • —**

Fələyin qəsdi nədir, ey könül, ədavət edər,
Cəfavü dərd bəla ilə məni, rahət edər.

Nə eyləsən dözərəm, aşiqəm dönən deyiləm,
Həmişə öz gülünə, bülbülü iradət edər.

Bəla gəlirsə sənə, səbr elə, günah etmə
Fəqir bəndəsinə Tanrı özü himayət edər.

Verirsən bizlərə ruzi, afitabi nurindən,
Yaranmış məxluq əzəldən, sənə ita'ət edər.

Dilimin əzbərisən, həmdü səlamım qəbul et,
Ölüncə Ya Rəb Tənha, tək sənə ibadət edər.

****

**Rəməl-6:**
**Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Nə şahanə səda, eylədi məstanə könlümü,
Qoyma fərağın ilə, alışıb yanə könlümü.

Çox pak ürəklidir, mənim istəkli dilbərim,
Kaş qismət oleydi, verəydim cananə könlümü.

Xeyli zamandır ki, əsiri hicri yar idik,
Gəlmiş axır ziyarətinə viranə könlümü.

Həsrətinlə ölürəm mən, düşəndə sən yadıma,
Rəva görmə, atəşdə yana, pərvanə könlümü.

Tənha çox fikir vermə, möhnəti hicran qəminə,
Səcdəgah eylər axır özünə xanə könlümü.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Əzəldən vurğunuyam, sərvi boylu cananın,
Təki sən əmr elə, ey gül, olaram qurbanın.

Mənə sən cövrü cəfalər edəsən, incimərəm,
Bilirəm dərdimə vardır gözəlim dərmanın.

Çıxaq gülzarə yenə, seyr eliyək dünyanı,
Rəşkidən bağrı yarılsın, gözəlim ədnanın.

Bu hüsnü lətafətlə sən aydanda gözəlsən,
Səni hər kim ki görə vallah olar heyranın.

Kiprigin, qaşın, gözün, başqa bir aləmdir inan,
Əqlimi başdan alıb, qara gözü ceyranın.

Tənhanın dərdi səri vəsli yarə yetməkdir
Öldürüb, dirildirsən, söylə nədir fərmanın.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Cəfayi cövri yaridən, bixaniman olmuşam,
Həsrətinlə ruzi şəb, çeşmi giryan olmuşam.

Siyahı zənciri zülfün, əzəldən , müştaqiyəm
Pərişan zülflər kimi mən pərişan olmuşam.

Qaşların çeşmin mənim, xəm qılıbdır qəddimi,
Eşq sultanıma mən, hər zaman mehman olmuşam.

Sızlayıb həm ağlaram, eşqinlə hər zaman sənin,
Aşiqəm, biçarəyəm, hüsnünə heyran olmuşam

Tənha sadiq ol, eşqində sən məhparənin.
Vermişəm canım sadağa yarə qurban olmuşam.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Yandı canım, pərvanətək şəm oduna bilmədin,
Xəyallarla donub qaldım, məni görüb dinmədin.

Sevgisiz könül həmişə, mərhəmətdən uzaqdır,
Bahar ömrüm qışa döndü, gözlədim sən gəlmədin.

Ahü vayla ömür sürüb, sənsizlikdən usandım,
Aşiq olub cəfa çəkdim, sənsə bunu görmədin.

Qaragözlüm, şirinsözlüm, çox darıxdım səninçün,
Fikirləşib çox düşündüm, nədən məni sevmədim?

Tanrı aşiq yaradıb, Tənha səni əzəldən,
Tanrıdan ümid əlini, heç zaman sən üzmədin.

**Rəməl-6:**
**Fə′ilAtün / fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Kaş oleydi hamının, zövqilə səhmanı dürüst,
Əxlaqı mərifəti əhd ilə peymanı dürüst.

Bimari eşq olana olmayıb aləmdə əlac,
Yoxdur bir öylə Təbib, dəvası dərmanı dürüst.

Hər gədaxislət ilən, eyləmə ülfət, ey dil,
Çək imtəhanə onu, ola vicdanı dürüst.

Nə xəyanət, nədə cəng, sülh oleydi aləmdə,
Görəydim bu qoca dünyadə, hər insanı dürüst.

Tənha, şad eylə söz aşiqlərini şe′rinlə,
Düşünüb dərk eliyək, hər sözü mənanı dürüst.

****

## Qoşma

Baqi gözəllikdə məst olan aşiq,
Dünyada şöhrəti şanı istəməz.
Allahın sevgisin qəlbdə gəzdirən,
Nə loğmanı nə dərmanı istəməz.

Gözün işlədikcə, bax bu dünyayə,
Bir özgə xəyalla, düşmə sevdayə,

Yönəlt məhəbbətin, həqqi təlayə,
Arif olan, bu dünyanı istəməz.

Tənha duyar, hər hikməti mənanı,
Qurban edər əhli hala, həm canı,
Bəlalı başımın sənsən gümanı,
Səndən özgə, bir cananı istəməz.

## QƏZƏNFƏR ABBASOV (1962)

Abbasov Qəzənfər Nəcəfqulu oğlu 1962-ci ildə Azərbaycan Respublikası Ağcabədi rayonunu Hacılar kəndində anadan olmuşdur. Orta məktəbi kənddə bitirmişdir. 2 il hərbi xidmətdə olmuşdur. 1984-cü ildən Abşeron rayonu Ceyranbatan qəsəbəsində yaşayır.

1986-cı ildə Asəf Zeynallı adına Bakı Musiqi Texnikumuna daxil olmuşdur. Görkəmli xanəndə, pedaqoq Nəriman Əliyevdən dərs almışdır. 1993-cü ildə Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasına daxil olmuş Professor Arif Babayevdən dərs almış, 1997-ci ildə bitirmişdir.

Bakı şəhərində Uşaq musiqi məktəblərində müəllim işləmişdir. 1999-cu ildə Bülbül adına musiqi məktəbində müəllim işləmişdir. 2001-ci ildən Asəf Zeynallı adına musiqi kollecində, 2003-cü ildən hal-hazıra kimi Azərbaycan Milli Konservatoriyasında xanəndəlik ixtisası üzrə baş müəllim vəzifəsində çalışır.

Xarici ölkələrdə – İran, İraq, Türkiyə, Özbəkistanda qastrol səfərlərində olmuşdur. Müəllimlik fəaliyyətiylə yanaşı şeir, qəzəl janrlarında da şeirlər yazır. Musiqi sahəsində gözəl təsniflərin müəllifidir. Bəstəkarlıq qabiliyyətinin olması təbii ki, muğamlara dərindən bələd olmağı səbəb olubdur.

2012-ci ildə Respublikanın Əməkdar müəllimi fəxri adına layiq görülmüşdür. Müəllimlik fəaliyyəti dövründə yüksək adlara layiq görülüb, müsabiqələr qalibi olan tələbələri vardır. Əməkdar artist Sevinc Sarıyeva, Zülfiqar Mahmudov, Naxçıvanın Əməkdar artisti Nigar Şabanova, 2011-

ci il televiziya muğam müsabiqəsinin 1-ci dərəcəli qalibi Səbinə Ərəbli, 3-cü dərəcəli diplomla Nigar Şabanova və bir çox başqaları onun zəhməti hesabına layiqli yerlərə sahib olublar.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Hər gecəm nalələr ilə keçir, ey nazlı sənəm,
Nalələrdir ki fəğan eyləyir, ey nazlı sənəm.

Düşünüb çox anıram sənlə keçən günlərimi,
Hər bir anın yerini il verir, ey nazlı sənəm.

Etsə rüsvay sənin eşqin məni gər dünyada,
Şəni rüsvaylığımı artırır, ey nazlı sənəm.

O qara qaşlarının bənzəri var göydə aya,
Sanki ay qaşlarını qısqanır, ey nazlı sənəm.

Görcək ayinədə şəms ilə qəmər ay üzünü,
Sənə onlar göy üzün bəxş edir, ey nazlı sənəm.

Uca bir sərv sənə baş əyərək hey ucalır,
Aləmi şöhrəti eşqin alır, ey nazlı sənəm.

Aşiqin hər kim olar həsrəti eşqində yanar,
Bu Qəzənfər qəmini çox çəkir, ey nazlı sənəm.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Ey gül səni gör bir necə canlar sorağ eylər,
Sənsiz yaşanan hər günü anlar sorağ eylər.

Kövsər desəm ol ləblərinə yoxdu günahım,
Ləli ləbin zəvvarın olanlar sorağ eylər.

Hinduya nə çox bənzəri var xali siyahın,
Ol xali siyahı neçə xallar sorağ eylər.

Ayparə dedim qaşlarına səhv elədim mən,
Çün ay özü çox qaşı kamanlar sorağ eylər.

Bir böylə lətafətlə səni sevdi Qəzənfər,
Hər şamü səhər gözləri ağlar sorağ eylər.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Çox heyif qoydu məni getdi nigarım bu gecə,
Qoyub ağlar gözümü getdi nigarım bu gecə.

Nə Qəzənfər Nə Həmid saxlaya bilməz gedəni,
Ah kim qoydu bizi getdi nigarım bu gecə.

Pərişan halımı məndə peyama ərz elədim,
Pərişan halə salıb getdi nigarım bu gecə.

Əlini Azəri Allah qorusun həşr günü,
Eləyib lütfü bizə getdi nigarım bu gecə.

Çata bu arzularım məndən uzaq laməkana,
Nasiri hifz eləsin, getdi nigarim bu gecə.

Ey Qəzənfər görə kaş göz yaşını dildarın,
Gələr insafə görən getdi nigarim bu gecə.

****

**Rəməl-6:**
**Fə′ilAtün / fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Canıma canı ilə can verən insan anadır,
Qanıma qanı ilə qan verən insan anadır.

Başım üstündə durub canını şam tək əridən,
Ruhuma şölə saçan, ol mahi-taban anadır.

İntizarımda qalıb hər gecə ta sübhə kimi,
Müntəzir gözləyərək gözləri giryan anadır.

Bağı gülşəndə açan güllərə həmta nəfəsi,
Könlümə ətri saçan bağı gülüstan anadır.

Tərki dünya eləmişkən bizi tərk etsə də o,
Ruhi-pak ilə bütün dərdlərə, dərman anadır.

Dilruba tək alıban canımızı dilkəşvar.
Qəlbə hakim, dilə dil, sərvəri sultan anadır.

Ey Qəzənfər, ana timsalıdır ol nazlı Nigar,
Nasiri nəğməkar həm, Cingizi logman anadır.

****

**Rəməl-6:**
**Fə′ilAtün / fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Mahi dövrana baxıb könlümü qan eyləmişəm,
Çarəmi onda bulub ahü fəğan eyləmişəm.

Valiyi-Misri atıb hər gecə ta sübhə kimi,
Küncü xəlvətdə onu canıma can eyləmişəm.

İtirib Yusifi yandım qəminə Kənan tək,
Qəm diyarın özümə, kuyi məkan eyləmişəm.

Gecə-gündüz o nigarı çağırıb səsləyirəm,
Səsimə səs verəni, yarı güman eyləmişəm.

Nola Yarəb çatam ol dilbərimin vüslətinə,
Onun hicran qəminə könlümü kan eyləmişəm.

Mən də Məcnun olub öz eşqimi rüsva elədim,
O cününu özümə şöhrəti-şan eyləmişəm.

Bu Qəzənfər yanır ol mahirəsin həsrətinə,
Vəslinə yetmək üçün ney kimi ban eyləmişəm.

****

**Rəməl-6:**
**Fə′ilAtün / fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • — — / • • —**
Gəl kim, ey lalə yanaqlım, ürəyim qanla, dolub.
Həsrətin dərdə salıb didələrim qanla dolub.

Edirəm ahu fəğan hər gecə ta sübhə kimi.
Ahu əfqanım ilə bəlkə ciyər qanla dolub.

Gələsən bəlkə mənə çarə ola gül yanağın,
Ki öpəm gül yanaqından ürək əfqanla dolub.

Getdiyin gör nəçə ildir niyə yad eyləmisən?
Hər günüm ah ilə fəryadilərim qanla dolub.

Ey Qəzənfər, çata ey kaş sona bu hicranın
Gələ yarim görə kim didələrim qanla dolub.

****

## BƏY TƏRİFİ

Gəldim təbrik edim mən bu gün sizi,
Allah xoşbəxt etsin hər ikinizi.
Böyük el-obada böyüdünüz siz,
Yayıldı ellərə bu şöhrətiniz.
Ağılı gənclərsiz durmusuz qoşa,
El-oba yığışıb etsin tamaşa.
Hər kəs verəcəkdir xeyir duasın,
Sizlərə nainsaf heç kim olmasın.
Arzum budur ki, Allahım sizə,
Xoşbəxtliyi versin gəlmədən gözə.
Sizə kömək olsun böyük yaradan,
Başınız üstündə müqəddəs Quran.
Arxanızda dursun on-iki İmam,
Köməyiniz Peyğəmbər, ona salam.
Allahın verdiyi ömür payınız,
Səmasında həm parlasın ayınız.
Valideyin hörmətin unudmayın siz,
Onların duası sizin köməyiz.
Gen olar deyiblər məsləhətli don,
Nə aparıb dünyadan özilə Firon.
Nasehdən gər ziyan görsə bir nəfər,
Sizə təbrikini deməz Qəzənfər.

****

Heydər baba ildirimlar çaxdı gəl.
Sinəmizdə könlümüzü yaxdı gəl.
Qizlar ona səf baglayib baxdı gəl.

Sağ ol deyib Nasir getdi Təbrizə.
Necün salam gətirməyir bəs bizə.

Heydər baba Telli balam gedəli,
Gül çiçəklər soldu nədir bedəli.
Araz boyu gözləyirik dədəli.
O taydan bir salam verən tez gələ.
Sınan könlü ala bircə tez elə.

Heydər baba Araz bizi dağladı.
O tay bu tay sahil boyu ağladı.
Göz yaşıyla Araz doldu çağladı.
Gözüm kökü saraldi hey... gəlmədin.
İnsaf edib göz yaşımı silmədin.

Heydər baba Təbriz-Bakı bir ola.
Baxmaz gözüm bu dünyada sağ-sola.
Gözlərimiz sevinc yaşıyla dola.
Telli tezdən tez düzlənə yollara.
Çata bircə gen açılan qollara.

Heydə baba Nasirimiz o başdan.
Bizdə gələk səhər tezdən obaşdan.
Qucaqlaşaq bir öpüşək baş-başdan.
Azad olsun Araz boyu sınrımız.
Rəhm eyləsin barı bizə tanrımız.

****

Bilmirəm necədir sevdiyim gözəl,
Bir xəbər verəydiz kaş ki, durnalar.
Yollarda qalıbdır gözüm, ay gözəl,
Görəydi səmadan səni durnalar.

Qatarla keçərlər gündüz, gecələr.
Bilinməz nə vaxtı onlar gecələr.
Səfləri pozulmaz zülmət gecələr.
Xəbər verəydiniz barı durnalar.

Ayrılıb gedirsiz bizdən xəbərsiz.
Uzundur yolunuz olsun xetərsiz.
Səmada getmirsiz səssiz səmirsiz.
Haraylayın barı yarı durnalar.

Yolunu gözləyir daim Qəzənfər.
Qalmayıb gözümdə nə nur nə də fər.
Mənim tək sevərmi səni bir nəfər?
Bir namə alaydız yardan durnalar.

## NASİR ƏTAPUR (1976)

Nasir Ətapur 1976-cı il mart ayının 23-də Təbriz şəhərində anadan olmuşdur. Atası İranın Qaradağ, anası isə Qarabağın dilbər guşəsi olan Ağdam rayonundandır. Uşaq yaşlarından ailəsində olan şənliklərdə anasının mahnı söyləməsi onda musiqiyə qarşı böyük maraq və həvəs oyatmışdır. Həmçinin anasının yaxşı qaval çalması onda bu alətə qarşı çox böyük həvəs oyatmışdır.

Hələ 9 yaşında olarkən oxuduğu məktəbin musiqi qrupunda çıxışlar etməyə başlayıb. Təbrizin bir neçə festivallarında iştirak edərək, qalib olub. 1987-ci ildə Təbriz Radio və Televiziyasının uşaqlar üçün olan proqramlarında bir yeniyetmə kimi çıxışlar etmişdir. 1992-ci ildə Təbrizdə keçirilən tələbələr arası müsabiqənin qalibi olmuşdur. 1993-cü ildə İranın Kirmanşah şəhrində keçirilən musiqi festivalında birinci yerə layiq görülmüşdür. 1991-ci ildən etibarən ustad Həsən Dəmirçinin özəl dərnəyində Azərbaycan xalq musiqisi ilə tanış olmuşdur. Daha sonra mərhum böyük sənətkar ustad Mahmud Şatiriyanın özəl dərnəyində yaranmış gənclər xalq çalqı alətləri ansamblında solist olaraq İranın bir çox şəhərlərində konsert proqramları ilə çıxışlar etmişdir. Daha sonra Təbrizin qocaman xanəndəsi ustad Nemət Cavanşir və muğamların dərin bilicisi mərhum Əli Cavadpurdan dərs almışdır.

1996-cı ildən, 1998-ci ilə dək Təbriz Radio və Televiziyasının nəzdində yaranmış gənclər xalq çalqı alətləri ansamblında solist olmuş və sonra bir il həmin idarənin

böyüklər ansamblında solist olaraq İranın bir çox şəhər və əyalətlərində çıxışlar etmişdir.

2005-ci ildən etibarən Azərbaycan Respublikasına gələrək Azərbaycan Milli Konservatoriyasında dahi muğam ustadları xalq artisti professor Arif Babayev və Əməkdar müəllim Qəzənfər Abbasovdan muğamların sirlərini öyrənmişdir. Bununla yanaşı başqa bir çox ustad xanəndələr, o cümlədən: Əlibaba Məmmədov, Ağaxan Abdullayev və digər ustadlardan muğamların sirlərini öyrənmişdir. 2007-ci ildə Heydər Əliyev Fondunun layihəsi əsasında keçirilən televiziya muğam musabiqəsinin 3-cü yerinə çıxaraq, laureat adına layiq görülmüşdür. Hal hazırda Azərbaycan Milli Konservatoriyasının doktorantura pilləsində təhsilini davam etdirir. 2012–ci ildə Təbrizə qayıtdıqdan sonra muğam ansamblını yaradıb İranın eləcədə xarici ölkələrin çox yerlərində 50–dən artıq solo konsert ilə Azərbaycan musiqisini təmsil etmişdir. 2015–ci ildə Təbriz şəhərində muğam məktəbi yaradaraq bu az müddət ərzində tələbələri xarici və daxili festivallarda iştirak edərək 12 yer beynəlxalq festivallarda, 8 yer isə ölkə daxili festivallarında qazanmışlar.

Ədəbiyyata böyük maraq və həvəsi olduğu üçün demək olar ki, Azərbaycan şairlərinin əksəriyyətinin yaradıcılığı ilə yaxından tanışdır və habelə ədəbiyyat sahəsində olan çoxlu elmləri öyrənməyə həmişə can atmışdır. Qəzəl və şeir yazmaq həvəsini onda ustadı Qəzənfər Abbasov oyatmışdır. Bu şeirlərdən bəzisini bu kitaba da daxil etmişik.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / •— — • / •— —**

Fəxr eyləyirəm, nazlı nigarım sən olubsan,
Əhvalıma hər halıma yarım sən olubsan.

Rahətliyi aramımı səndən buluram bil,
Nazın çəkərək dildə şuarım sən olubsan.

Asudə olubdur bu könül nazını görcək,
Zənn eyləyirəm dövlətü varım sən olubsan.

Qoyma ürəyim çırpına sənsiz bu qəfəsdə,
Oldur ki bütün daru nədarım sən olubsan.

Şamu səhər ah etməyidi gör necə karım,
Uf söyləmədən ah ilə zarım sən olubsan.

Nasir necə sevdi səni heç kəndisi bilmir,
İndi əməlim gündəki karım sən olubsan.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Atəşi hicranına, ey gül, necə tab eyləyim?
Könlümü dustağ edib şəklin sənə qab eyləyim.

Bəs niyə çatmır sənə bir an əlim, ey bivəfa,
Könlümü səndən savayı kimə əhbab eyləyim?

Gözlərim yaşı axır qan ağlaram şamu səhər,
Söylə, ey dilbər, nə vaxta tək ürək ab eyləyim?

Sən ki, yoxsan Kəbəvü mehrabımı zülmət tutub,
Bəs nəmazü ruzəmə mən harda mehrab eyləyim?

Olmayaydı dərdi hicran olmayaydı dərdi eşq,
Ol nigarə çatmağ içün mən necə tab eyləyim?

Gər kənarımdan gedib dildar ətrin mən necə,
Hər bəlakeşdən alıb mən qeyri əshab eyləyim?

Nasira qorxma ki yarın başqasıyla yar ola,
Gər onu ruhunla hiss etsən nə irab eyləyim?

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Yarıdan ayrı düşən candan, bu gün can ayrılır,
Canıdan can ayrılarkən, sanki mehman ayrılır.

Bəxş edən canandı cani, can fəda cananıma,
Bağrımı şan-şan edibdir, gör necə şan ayrılır.

Yarım uymuşdur rəqibə, qətlimə fərman verir,
Darə çəkdikcə neçün, bilməz ki, fərman ayrılır?

Olmadı qismət mənə, bir dəm görəm cananımı,
Söyləyəm cananıma, küfründən iman ayrılır.

Hicrini çox çəkmişəm, olmur bir an rahət tənim,
Yarıma yetsə əlim, vəslindən hirman ayrılır.

Coşdu təbi Nasirin, dostundan almış beyt ilə,
Çox çalışdı söz yaratsın, gördü ki, can ayrılır.

****

**Rəməl-2:**
**FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Bar ilaha sən yetir candan əziz dildarımı,
Qalmışam nalan qəfəsdə istərəm gülzarımı.

Bəs nədən olmur mənə qismət həyati cavidan,
Netmişəm dövranə ki almış əlimdən varımı.

Aşiqi zar olmuşam hicrində mən şamu səhər,
Ağlaram ah eylərəm görmür bu göz yaşlarımı.

Saqiya doldur ləbaləb camımı ol badədən,
Məst olub təsvir edəm röyadə ol sərdarımı.

Sən fəğan et Nasira firqətdə ta bəlkə fələk,
Külbeyi əhzanə mehman eyləsin ol yarımı.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / •— — —**

Səninlə yar olan dəmdən, bu könlüm mərhəmin tapmış,
Dəvasız, çarəsiz dərdinə sanki mərhəmin tapmış.

Gəzirdim mənliyimdə mən, tapam mərhəmli sırdaşı,
O mən, sirri nihaninə, səni yalnız əmin tapmış.

Nəvayi ləhni Davudini, bəxş etmiş sənə Tanri,
Mənim yalqızlığım ancaq, bu səsdə həmdəmin tapmış.

Görəndə bizləri bahəm, rəqibin bağrı qan oldu,
Bu girdabi həsadətdə, ürək bir həmbərin tapmış.

Məhəbbət nəğməsin aşiq necə şərh etsin ol yarə?
Ki dil əbsəm qalıb yalnız nigah ilə zəmin tapmış.

Gəl, ey dilbər, götür sazi, sızıldat Rastı, Şahnazı,
Ürək Ruhani dünyadə, itirmiş Dilqəmin tapmış.

Bu Nasirdir sənə heyran, necə məcnundu leylayə,
Təvafi şöleyi eşqə, bu pərvanə şəmin tapmış.

****

**Rəməl-6:**
**Fə′ilAtün / fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Sirrimi yarə dedim döndü dilim qanə bu gün,
Ki qəzəbdən gəlib od saldı yenə canə bu gün.

Atəşi hicr ilə hər an yanıram bilmir o gül,
Çatacaqdır belə odlanmağım hər yanə bu gün.

Məni mədhuş qılır sözləri-siması vəli,
Həsrəti çeşmi xumar ilə yanır xanə bu gün.

Onu dil mülkünə şahənşəhi dövran bildim,
Bar ilaha qəmimi çatdır o sultanə bu gün.

Dərdi hicran necə gör saldı şərər canu dilə,
Yetirər şərbəti vəslin məni dərmanə bu gün.

Ey fələk, qılma cəfa dərdimi dildarə yetir,
Ki könül bəlkə çata vəsləti cananə bu gün.

Nasira yarın inanmır sənə haşa-haşa,
Ol səbəbdəndi ki sən gəlmisən əfqanə bu gün.

****

**Rəməl-6:**
**Fə′ilAtün / fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Bu müqəddəs eşqimi aləmə car eyləmişəm,
Görünür könlümü mən dərdə düçar eyləmişəm.

Sənin eşqinlə gəzib seyr edirəm dünyani,
Ürəyim şadlıq ararkən onu zar eyləmişəm.

Bağu - gülşən yaranıb naleyi bülbüllər üçün,
Mən də ah eyləməyi kəndimə yar eyləmişəm.

Məni məftun eləyib zülfi pərişan daim,
Sevgi amalımı mən böylə qumar eyləmişəm.

Sevginin şöleyi eşqi yanır əvvəlki kimi,
Ürəyi mən belə müstövcübi nar eyləmişəm.

Zənni qıldım ki bu dünyadə vəfa kəbəsisən,
Sənə həcc etmək ilə rəbbi kənar eyləmişəm.

Nasirin də həvəsi çeşmi xumarındı sənin,
Ol səbəbdən özümü məstü xumar eyləmişəm.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Sevgi tufanı həran sinəmdə cövlan eyləyir,
Dəmbədəm cövlanı ilə bağrımı qan eyləyir.

Atəşi hicran yaxır hər dəm bu miskin aşiqi,
Dərdimə ümmidi vəslindir ki, dərman eyləyir.

Bilmirəm canan neçün əfğanıma etmir nəzər,
Ahu əfqanım görərkən böylə giryan eyləyir?

Mən ki,  cananımdan özgə  canıma can tutmadım,
Bəs nədən cəbbar olub zülm ilə tüğyan eyləyir?

Həsrəti çeşmi xumarındır məni bimar edən,
Könlümü şəmi ruxundur zaru büryan eyləyir.

Lütf qıl, ey padişahim, bu gədayi kuyinə,
Mən sənin təsliminəm, şahim nə fərman eyləyir?

Nasirəm nasirliyə sən əmr edibsən daima,
Yarım istərsə min illik nəsri bir an eyləyir.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Dün xərabatə gedib yar ilə qıldım söhbət,
Ətəyindən yapışıb min kərə etdim işrət.

Dolu peymanə içib şərhə rəvan oldu könül,
Aşdı qəm dəftərini könlümə verdi zinət.

Dedim ey şuxi cəfakar nə lazımdı bu zülm?
Taleimlə bütün aşiqlərə oldum ibrət.

Talei çərxi dönər baxmasa məşuqinə yar,
Dağıdar aləmi ah ilə duayi xəlvət.

Dedi eşq əhlinə yanmaqdə səbəb xilqətdə,
Pakbaz aşiqə sir oldu ki yandım əlbət.

Çox səmənbər büt olub ərzi cəmal eylədi leyk,
Eşq saliklərinə afət olub ol afət.

Nasira aləmə bax qəlbi gözilə yoxsa,
Batacaq zülmətə bu nurla yaranmış xilqət.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Sevgi tufanı hər an sinəmdə cövlan eyləyir,
Dəmbədəm cövlanı ilə bağrımı qan eyləyir.

Atəşi hicran yaxır hər dəm bu miskin aşiqi,
Dərdimə ümmidi vəslindir ki, dərman eyləyir.

Bilmirəm canan neçün əfğanıma etmir nəzər,
Ahu əfqanım görərkən böylə giryan eyləyir?

Mən ki cananımdan özgə canıma can tutmadım,
Bəs nədən cəbbar olub zülm ilə tüğyan eyləyir?

Həsrəti çeşmi xumarındır məni bimar edən,
Könlümü şəmi ruxundur zaru büryan eyləyir.

Lütf qıl, ey padişahim, bu gədayi kuyinə,
Mən sənin təsliminəm, şahim nə fərman eyləyir?

Nasirəm nasirliyə sən əmr edibsən daima,
Yarım istərsə min illik nəsri bir an eyləyir.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— •— — / — • — — / — • — — / — •—**

Min könüldən gər birində olsa istedadi eşq,
Onda hər yerdən gələr aşiqlərə imdadi eşq.

Eşq ilə bidadə gəldim olmadı bir dad edən,
Gər ki bidad eyləsəm imdad edər bidadi eşq.

Yar ilə həmdəm olanda yoxdur əsla möhnətim,
Möhnətü ahü fəğanla söylənir tədadi eşq.

Mən şəhidi eşq yarəm talibəm cananıma,
Çünki hər an can səsilə dinlərəm fəryadi eşq.

Nasira Allahə şükr et ki, o canan ilə sən,
Etmisən şirin süxənlər gülşənində yadi eşq.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / •— — —**

Canımdan ayrılan canın, canından ayrılır bir can,
O canın gəlməyindən, canıma cana gəlir bir can.

Neçə aydır canım, cananını bir can kimi bəslər,
O canı gözləməkdən, canımın bağrın dəlir bir can.

Sevincim həddidən aşmış, qururum göylərə çatmış,
O cananın yolunda, intizar olmaq alır bir can.

Mənim cananımın, cananının vəslət sevincindən,
Kədərli günləri məndən alıb başdan salır bir can.

Gəl ey ceyran kimi cananıma can bəxş edən canım,
Sevinc amalına hər an, xəyalım tək dalır bir can.

O canın gəlməyin Nasir, Qəzənfər şərh edən dəmdə
Onun şadlıq pəyamından, xəyalımda qalır bir can.

****

**Rəməl-6:**
**Fə′ilAtün / fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Olmasaydın çata bilməzdi bu can hörmətinə,
Verdi rüsvalığım imkan belə bir şöhrətinə.

Bəs ki hər yerdə bu sevdalı qəmi şərh elədim,
Dedilər çox da əbəsdir bu könül söhbətinə.

Gizli eşqindir ucaldan məni dünyadə hər an,
Vəslinə yetmək üçündür dözərəm möhnətinə.

Kim səni ansa onun qəlbi məhəbbətlə dolar,
Çatdırar aşiqi eşqin bu təmiz nözhətinə.

Nasira bircə yarındır səni qəlbilə duyan,
Tək onun eşqi səbəb olsa olar izzətinə.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
**• — — — / • — — — / • — — — / • — — —**

Tapıbdır sevgilim həmdəm, məni əğyarə döndərmiş,
Mənə canan deyen indi özün bi'arə döndərmiş.

Düşünmüşdür ki, ayrılsa edər çarə dilü-canə,
Ki bilməz çarəyi dərdin necə biçarə döndərmiş.

Həyati cavidan ancaq olar dildar ilə hasil,
Bunu dərk etmiyən dilbər dilin divarə döndərmiş.

Edir tə'nə vurur zəxmi zəban ol yari biməslək,
Edib məhbəs diyarı eşqi bir pərgarə döndərmiş.

Tikansız güllərə hər kəs salar meylin vəli bilməz,
Özünü hər zaman ol gül güli-bixarə döndərmiş.

Ürək qan oldu, ey dilbər, tökər daim gözüm qan yaş,
Sənin zülmün gözümü dideyi xunbarə döndərmiş.

Tutar ahim odu məhşər günü ol səngdil yarı,
Bu dünyanı necə ol gül mənə məhşarə döndərmiş.

Nə hacət halımı yazmaq ki, qayətdən əsər yoxdur,
Bunu adət sanıb yarım elə təkrarə döndərmiş.

Fəğanı şər ilə yazdım ki, bilsin dilbərim hər an,
Bu Nasir həsrətin dayim yazıb əş'arə döndərmiş.

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Məni məcnun eləyən, tək sənə canan demişəm,
Könlümə şölə saçan bir məhi taban demişəm.

Gül camalındı qılan ruzi əzəldən məni şad,
O xumar gözlərini dərdimə dərman demişəm.

Aşiqi sadiqinəm gəl mənə divanə demə,
Bu cünun bais olubdur belə həzyan demişəm.

Bir mələksən görürəm eşqü məhəbbətdə səni,
Ey pərivəş bu səbəbdən sənə mən can demişəm.

Məni eşq atəşinə yanmağa məcbur elədin,
Məndə biçarə qalıb canıma həp yan demişəm.

Can mina dağıdı hər kəs kəsir öz qurbanın,
Nasirəm mən sənə bu canımı qurban demişəm.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Mən sənin aşiqinəm dərdimi bil, ay Savalan.
Qolların boynuma sal, həmdəmim ol, ay Savalan.

Qoy ürək sözlərini birdə səninlə danışım,
Səndə bir bax üzümə həm də ki, gül, ay Savalan.

Çoxlu dağlar görübən, dərdini pünhan edərək,
Sən təbib ol mənə həm dərdimi bul, ay Savalan.

Yol çəkir hər baxışım yollarını axtararaq,
Nola hərdən məni də bir yada sal, ay Savalan.

İncimişdir ürəyim gah da sızıldar könlüm
İncimiş birdə sınıq könlümü al, ay Savalan.

Bu qaranquş ki güneydən quzeyə elçi düşüb,
Bəxş elə öz ətəyindən ona gül, ay Savalan.

Nasirin nəğməsi öz saflığını səndən alıb,
Səndə bir mahnı olub nəğmədə qal, ay Savalan.

****

## Qəzənfərnamə

**Həzəc-2:**
**MəfA'İlün / məfA'İlün / fə'Ulün**
**• — — — / • — — — / • — —**

Muğamatda bir ümmandır Qəzənfər.
Öyrənməyə düz ünvandır Qəzənfər.

Kim istəsə sənətdə baş qaldıra,
Onun üçün tək gümandır Qəzənfər.

Tədrisində dostluğunda, yeganə,
Məhəbbətdə bir imandır Qəzənfər.

Nərimandan almiş muğam sirrini,
İndi başqa Nərimandır Qəzənfər.

Arif, Yaqub yolun davam etdirir,
Ənənəni qoruyandır Qəzənfər.

Millətimiz onunla fəxr eyləyir,
Arxasında dağ durandır Qəzənfər.

Onun üçün bölgələrin fərqi yox,
Hamısını bir duyandır Qəzənfər.

Bir arzum var canı daim sağ olsun,
Təravəti solmayandır Qəzənfər.

Muğamların sirrin ondan almışam,
Nasir üçün bir divandır Qəzənfər.

**Qoşmalar**

Oxu yuxularım göylərə qalxsın,
Səsinə baş qoyub yatım, Qəzənfər.
Uçub xəyallarda Arazdan aşsın,
Bakını Təbrizə qatım, Qəzənfər.

İlahidən almısan bu nəfəsi?
Xəstə könüllərə məlhəmli səsi.
Bir ağız de Qarabağ şikəstəsi,
Həsrəti qəlbimdən atım, Qəzənfər.

Elim-obam isinmədi istimə,
Kor olmadı düşmən mənim tüstümə.
Qopub gəlir dağlar hər an üstümə,
Mən bu dərdi kimə satım, Qəzənfər?

Tanrı hələ dərdimizi unudub,
Bizi atıb düşmənimizi tutub.
Nədən millətimiz dərdini udub ?
Qarabağa necə çatım, Qəzənfər ?

Yazan tərs yazıbdır alın yazısın,
Artırıbdır könlümüzün acısın,
İtirib bu yerdə qardaş bacısın,
Mən niyə başımı qatım Qəzənfər?

Nasir yazır könüldəki qəmini
Eşitdirir səsin zilu bəmini
Çox axtarır sənlə olan dəmini
Keçmiş günlərə kaş çatım Qəzənfər

****

Bu qəmin əlində sola bilmərik.
Bir başqa sevgiylə yana bilmərik.
Mən sənsiz sən mənsiz qala bilmərik,
Əlvida demirəm görüşəcəyik.

Gəldi bu ayrılıq dərd qada kimi,
Batdıq qəm gölündə bir ada kimi,
Son bir nəğmə kimi son nida kimi,
Əlvida demirəm görüşəcəyik.

Qalandım məhəbbət ocağına mən.
Nə deyim sevginin bu çağına mən.
Bu inad həsrətin acığına mən,
Əlvida demirəm görüşəcəyik

****

Gecə-gündüz interneti izlirəm,
Mənə yoldaş olub yaman facebook[1].
Hardan gəldi məhəbbəti, bilmirəm.
Mənə sirdaş olub güman facebook.

Kimsə ondan keçmişini silməyir,
Kimsə üçün gələcəkdir facebook.
Kim həyatda sözün deyə bilməyir,
Onun sözün deyəcəkdir facebook.

Keçmişlərdə dünya çox genişimiş,
Heç kəs bilməyirdi nədir facebook.
Yer kürəsi indi onda sığışmış,
Yer olmağa tərəf gedir facebook.

---

[1] "Facebook" sözü ingilis dilində yazılışdır. Bu söz Azərbaycan dilində "feysbuk" kimi oxunmalıdır.

Dolardı keçmişdə küçə uşağdan,
Küçələri boşaldıbdır facebook.
Bütün evlər sevinərdi qonağdan,
Gəl-getləri azaldıbdır facebook.

İş yerində həm dərsdə həm maşında,
Həm iş olub həm dərsimiz facebook.
Oturdub hər kəsi öz iş başında,
Mirasımız həm irsimiz facebook.

Nasir belə getsə səni yıxacaq,
Öz məcazi sevgisilə facebook.
Əl çək yoxsa yaman səni sıxacaq,
Yalan-palan bilqisilə facebook.

****

Heydərbaba tərk etmərəm yarı mən.
Ondan aldım hər dövləti varı mən.
Yar yolunda gözə allam narı mən.
Arif dedim mən Bakıya gələndə,
Tək Qəzənfər vardı burdan gedəndə.

Heydərbaba, yar dediyim, Qəzənfər,
Candan əziz can bildiyim, Qəzənfər.
Allah qoysa yaxşı olar hər sənə,
Tam borcumu ödəyərəm mən sənə...

Heydərbaba səfv elədim sözümdə,
Borcum bitməz Qəzənfərə gözümdə.

Borc nədir ki, ona qurban özümdə.
Bir arzum var Allah ona dəyməsin.
Həyat boyu onu işin əyməsin.

Heydərbaba Bakı mənim məbədim,
Heç vaxt gəlməz bu məbəddən bir bədim,
Buralarda əzəlləşdi əbədim.
Bu yeddi il döndü şirin növraga,
Verər bəhrə bu elə bu torpaga...

## SƏLİM NƏSİRLİ (1983)

Səlim Əbülfət oğlu Nəsirli (d. 01.04.1983, Laçın rayonunun Hoçaz kəndi) – xanəndə, şair. Xırdalan şəhər Musiqi məktəbini bitirmiş, 2000-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində solo oxuma, muğam ixtisasına qəbul olmuşdur. 2004-cü ildə Binəqədi rayonu Rəsulzadə qəsəbəsindəki musiqi məktəbində müəllim kimi fəaliyyətə başlamışdır. 2006-cı ildə Dərbənd Dram Teatrının dəvəti ilə Dərbənd şəhərində "Dərbənd Azərbaycan dram teatrında" bəstəkar kimi çalışmış, orada bir neçə tamaşanın bəstəkarı olmuşdur. 2007-ci ildə ali təhsilini bitirərək Bakıda Şövkət Ələkbərova adına uşaq musiqi məktəbində xanəndə müəllimi işləməyə başlamışdır. Hazırda həmin məktəbdə, həmçinin Xırdalan musiqi məktəbində dərs deyir. Qəzəl, təsnif və mahnıların müəllifidir. Qəzəlləri və təsnifləri xanəndələr tərəfindən ifa edilir.

****

**Həzəc-8::**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / • — — • / • — —**

Cananıma can bəxş edirəm can gedir əldən,
Can qeydinə qaldıqca da canan gedir əldən.

Can istəmirəm, candan əzizdir mənə canan,
Can verməsəm ol candan əziz can gedir əldən.

Vəslində ikən qədrini bil cananın, ey dil,
Mə’nalı keçir ömrünü hər an gedir əldən.

Kaş canı verib cananə mən vəslə yetəydim,
Yoxsa elə bu ömr nigaran gedir əldən.

Fürsətdi könül kim bu gün əzha günüdür bil,
Can getməsə bu eydidə qurban, gedir əldən.

Sərvət mala meyl eyləmə dünyadə, əbəsdir,
Bir gün olur axirda o viran, gedir əldən.

Şəhdi-ləbinin busəsi dərmandi Səlimçün,
Getsən ölərəm, getmə ki dərman gedir əldən.

****

**Həzəc-8::**
**Məf’Ulü / məfA’İlü / məfA’İlü / fə’Ulün**
**— — • / • — — • / • — — • / • — —**

Fikr eyləmə sən, daima aləm belə qalmaz,
Bir gün gedəcək qüssə ilə qəm, belə qalmaz.

Yaş ötmədədir, zövqü-cahani tələb eylə,
Bil ki, bir ömür bir dəfə, bir dəm, belə qalmaz.

Gənclik gülüdür ən gözəl ətri bu həyatın,
Əfsus ki solar, qəddin olar xəm, belə qalmaz.

Hər kim bu cahan içrə cəfa əhli olarsa,
Axırda görər nari-cəhənnəm belə qalmaz.

Hüsnünlə öyünmə, Səlimin dinlə sözün sən,
Dövran ki keçər, hüsndə adəm belə qalmaz.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— • — — / — • — — / — • — — / — • —**

Görmüşəm dildarımı rö'yadə üç gün, üç gecə,
Həmdəm olmuşduq əcəb səhradə üç gün, üç gecə.

Üç yüz il ömrüm uzandı sanki bu rö'yadəkən,
Olmuş idim dərddən azadə üç gün, üç gecə.

Üç gecə üç gündü ki, məstanəyəm fikrinlə mən,
Bu qədər məst eyləməz heç badə üç gün üç gecə.

Tövbə qıldım ki, tutam həqqin yolun sidq ilə mən,
Eylədim ancaq qərar təqvadə üç gün, üç gecə.

İzn versən başımı bir dəm qoyam dərgahinə
Sakin ollam cənnətü-mə'vadə üç gün, üç gecə.

Üç gecə var ki, dualər müstəcəbdir mütləqa,
Kaş bilərdin ki, nə var əhyadə üç gün, üç gecə.

Ey Səlim, bihudə vermə qədrini bil hər dəmin,
Ömr edərsən bu fəna dünyadə üç gün, üç gecə.

**Həzəc-8::**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / • — — • / • — —**

Gəl bəzmimizi şe'rü qəzəllə bəzə şair,
Çoxdandı könül təşnədi bir xoş sözə şair.

Fikr etmə ki çox da bizə biganədi bu xəlq,
Qiymət verilər axırı bir gün bizə, şair.

Şairlərin aləmdəki sərmayəsi qəmdir,
Qəm etmə çıxa göz yaşı qəmdən dizə, şair.

Hər hikməti əş'ardə zahir eləməkçün,
Hey qatdı həvəslə gecəni gündüzə şair.

Söz əhli olan yerdə elə hər sözə diqqət,
Boş söz demə ki, dinləyib ağzın büzə şair.

Yarın baxışından dəyişir halı, o üzdən
Hərdən acıdil hərdən isə baməzə şair.

Bir xeyli zamandır qaçıb ilham uzaq ondan,
Ey vay, deyirəm bəlkə gəlibdir gözə şair.

Şair o deyil qafiyəli söz yaza bilsin,
Sözdən gərək öz şe'rinə inci düzə şair.

Şairliyin aləmdə Səlim, müşkülü çoxdur,
Səbr ilə gərək hər nə olursa, dözə şair.

****

**Həzəc-8::**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / • — — • / • — —**

Ey dil, bu qədər tövbəni sındırmaq olarmı?
Əldən verib imanı da yandırmaq olarmı?

Dərk etsən əgər eylədiyin bunca günahı,
Gözdən süzülən yaşı dayandırmaq olarmı?

Vəqti-əcəlin tə'yin olunmuşsa əzəldən,
Xaliq verən ol hökmü yubandırmaq olarmı?

Ey ömrünü qəflətdə keçirdən dili-qafil,
Hay-küylə səni indi oyandırmaq olarmı?

Bu badə Səlim, badeyi-həqdir, içirəm mən,
İndi bunu bir cahilə qandırmaq olarmı?

****

**Müctəs-2:**
**MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**
**• — • — / • • — — / • — • — / • • —**

Əlin dəyib o üzdən gəlibdi dadə badə,
Gözün görübdü məxmur olub ziyadə badə.

Mey arizu edir ki ləbi-nigarə dəysin,
Dilər ki verməsin bu məqamı badə badə.

Mənə edərmi tə’sir məgər şərab, ey gül,
Ləbin xəyalə gəldi düşəndə yadə badə

Görüb bu qəmli halim hərayə kimsə yetməz
Qəmi kənarə tullar yetəndə dadə, badə

Əgər onu yaradan qadağan eyləyibsə,
İtaət eylə alma ələ, məbadə badə

Nolar ki eşqi meydən mənə verəydi saqi,
Dilər könül ki ömrü bir az uzadə badə.

Səlim yenə yığıbdı bu bəzmə əhli-eşqi,
Gər əhli-eşq yoxsa, verərmi yadə badə.

## HƏMİDRIZA RIZAYİ (1988)

Həmidrıza Rızayi Əli oğlu, 19 may 1988-ci il Zəncan şəhərində anadan olmuşdur. Uşaq yaşlarından atası onun klassik ədəbiyyata və milli musiqimizə maraqını görüb. O, hələ məktəbə getməmişdən əvvəl dahi şair Şəhriyarın "Heydər babaya salam" adlı şeirini atasının köməyilə əzbərləmişdir. Muğam musiqisini ana laylası kimi sevib dinləməyə böyük həvəsi olmuşdur. Muğamatı dinləyərkən sanki ürəyində bir mənəvi döyüntü yaranmışdır. O, uşaqlıqdan dahi xanəndələrin ifalarını zümzümə etməklə xanəndə olmaq arzusunu ürəyində daşımışdır.

Onun bu arzusu 2015-ci il həyata keçib və Azərbaycanın Milli Konservatoriyasında hazırlıq kursuna daxil olmuşdur. Muğam müəllimi, Əməkdar müəllim Qəzənfər Abbasovdan muğamatı öyrənməyə başlamışdır.

2016-ci il qəbul imtahanını uğurla başa vurub AMK-nin 1-ci kursuna daxil olmuş və ustadı Qəzənfər müəllimin sinifində təhsilinə davam etmişdir. Qəzənfər müəllim Həmidrızanı öz övladı kimi sevirdi və onun muğamata olan həvəsini və eşqini qiymətləndirib və daha dərindən ona muğamatın sirlərini başa salmaqda zəhmət çəkmişdir.

2019-2020-ci təhsil ilini Həmidrıza Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət universitetində, dəyərli xanəndə və müəllim Teyyub Aslanovun sinifində davam edib və bakalavır pilləsində başa vurmuşdur.

Təhsilini bitirərkən dərhal İrana qayıtmışdır və həm bir müəllim kimi və həm bir ifaçı kimi muğamatımızı təbliğ

etməkdədir. Təbrizdə keçirilən muğam musabiqəsində juri heyətində iştirak edir və öz yetişdirdiyi tələbələri həmin musabiqəyə yönəldir. Həmidrıza Rızayi Zəncan şəhərində ilk şəxsdir ki, milli musiqimizi akademik təhsilatı ilə yaymaq və təbliq etməkdədir.

Həmidrıza təhsil illərində öz müəllimlərinin məsləhətilə bir neçə dəfə səhnə almışdır. O, televiziya proqramlarında müəllimlərilə bir yerdə iştirak edərək müxtəlif ifalar nümayiş etdirmişdir. Bakıda keçirilən beynalxalq "World harmony" adlı festivalda 2-ci yerə layiq görünmüşdür.

Həmidrıza ifaçılıqla bərabər həm də şeirlər yazmağa başlamışdır. Onun şeirləi bu kitaba daxil edilmişdir.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— • — — / — • — — / — • — — / — • —**

Ləzzəti dünyayi batil, qeyrə həqdən yaxşıdır,
Kəc mizac insanə, acı zəhr, əsəldən yaxşıdır.

Uyma bu zülmətdə, min rəngü luabi fasidə,
Sadəlik dünyadə hər, rəngü riyadən yaxşıdır.

Simu zərlə bulmayıb, dünyadə insanlar kəmal,
Kim fəqir arif inan, nadan qənidən yaxşıdır.

Görmədim üftadəlikdən, başqa bir yüksək məqam,
Kim özün bizdən, aşaqı görsə bizdən yaxşıdır.

Ey Rizayi qıl təvəssül, həq yolun eylə dəvam,
Kim sirati müstəqim, hər rahi kəcdən yaxşıdır.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— • — — / — • — — / — • — — / — • —**

Ey edən ehya səsinlə, İsi tək bicanları,
Eyləyir bərpa sənin, mülki dili viranları.

Sən səsinlə, ey mualic, neynədin bimarinə?
Kim təbibilər hamısı, heyrandı var nöqsanları!

Baş tutub səs oldu rahi, getdi ərşi əzəmə,
Rəqs edib ərşi xudadə, hurilə qılmanları.

Bu səmavi nəğmə, əsrari nihan eylər bəyan,
Natiqi həqdir eşit, kim söyləyər burhanları.

Aləmi mənadə Alim, sotilə söylər əzan,
Sufilər rəqsə gəlib, var zikri ər-Rəhmanları.

Allahın lütfündən olmuş, bizlərə Alim əta,
Xalqın olmuş xadimi, var Rəbb ilən peymanları.

Soti rəbbani Rzayi, dil çəkir həq səmtinə,
Zibh edir meydanı eşq içrə, gələn qurbanları.
****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— • — — / — • — — / — • — — / — • —**

Gəzmə qafil salma hər əqyarə bari meylini,
Həqqi bul aşiqsən ər pozma qərari eşqini.

Cövri eşqə səbrilə dözmək gərəkdir bir ömür,
Əhli iman ol eşit həmdə nidayi qəlbini.

Əqli tədbirilə tapmazsan buna bir çarə kim,
Şərt odur aşiq edə əvvəlcə tərki əqlini.

Leyli-Leyli səsləyib Məcnun tək aşiqsən əyər,
Çöldə gəzmə, qəlbidə axtar məqami Leylini.

Göstərib Məcnun bizə aşiqlik ahvalatını,
Leyliçün ölmüş sübüt etmiş vəfayi əhdini.

Öpdü Məcnun it ayağın sordu bir şəx illətin,
Söylədi bu it gəzir hərdən diyari Leylini!

Aşiqü məşuq arasında əzəldən pərdə var,
Kim sədəf tək saxlayıb qəlbində gizli gəncini.

Gər bu pərdə düşsə aşkar olsa ol sirri nihan,
Yox edər pərdə civarində həm ani həm səni.

Ey Rizayi həqdədir əsari külli kayinat,
İstəsə ehsan edər insanə hami sirrini.

****

**Rəməl-6:**
**Fə′ilAtün / fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Ey səba kuyi nigarımda gəzirsən gecələr?
Bir xəbər ver gözümə heç yuxu girmir gecələr.

Neçə vaxdır ki, gedib qəlbimi həsrətdə qoyub,
Sormur əhvalımı, göz yaşımı görmür gecələr.

Bir tərəfdən qəmi qürbət, bu tərəfdən qəmi yar,
İki dərdə bir ürək, heç dözə bilmir gecələr?

Ya rəb əhvali pərişanıma bir çarə yetir,
Heç kim əhvalıma fəryadıma yetmir gecələr.

Kaş Rizayi sənin əfqanıvı ol məh eşidə!
Bəlkə bir rəhmə gələ göstərə rüyin gecələr.

****

**Rəməl-6:**
**Fə′ilAtün / fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Gətirib badi səba müjdə ki canan gəldi,
Şəhri eşqi dolanıb əldə qədəh can gəldi.

Nədi bu sirri nəhan indi olubdur aşkar?
Dili bimarima güya təzədən can gəldi?

Saqiya badə gətir cami meyi ləbriz et,
Bu gecə bəzmimizə saqəri irfan gəldi.

Mələkuti səsində şuri nəvani dinlə,
Bu Qəzənfərdi səmailə qəzəlxan gəldi.

Bakıdan təbrizə yol çəkdi muğamatilə,
Bu qərarilə demək vəhdətə ünvan gəldi.

Könlümün taqəti tab olmuşudu hicrindən,
Zölmətə son qoyub ol şəmsi fürüzan gəldi.

Ruh uçur göydə Rizayi qəfəsindən ayri,
Ki isarət qortarıb naciyi murğan gəldi.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Həsrəti vəsli o yarilə ömür sürməkdən,
Canə gəldim gözümün yaşını mən süzməkdən.

Nə qədər cəhd elədim eşqidə qövqa eləyim,
Sındırıb əzdi məni çərxi fələk döyməkdən.

Nə vəfa yaridə gördüm nə səfa qismətdə!
Ağ günə çıxmadım axır qara gün görməkdən.

Nə şikayət eləyim tanrıya əhvalımdan?
Ki iba eyləmişəm həq yoluna dönməkdən.

Pərtovi nuri həqiqət, səbəbi külli bəqa,
Doyurar aşiqini badeyi nab içməkdən.

Həqqə təslim olana həqq özü tərhim eləyir,
Əfv edir ruzi cəza nar içinə düşməkdən.

Ey Rizayi rəhi həqqi tutuban eylə dəvam,
Qorxun olmaz bu qərarilə sənin ölməkdən.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / • — — • / • — —**

Ey Şəh nədən oldu bu qədər nazə niyazın?
Yandırdı məni dəhridə bu suzu-güdazın.

Gah səcdəyə baş qoydum olum zairi küyin,
Gah məsti mey oldum elədim tərki nəmazın!

Uçdum çəməni eşqə tərəf seyr eləyim mən,
Yandırdı günəş şəhpərimi çoxdu fərazın.

İmanımı ölçürsən əyər əfv qələmin çək,
Hər ləhzə sənin əfvinə var məndə niyazım.

Ver tövbə üçün əbdi zəlilinə iradə,
Məndə oxuyum şövqilə ol eşqin avazın.

Rəhm eylə ki, yandırdı məni atəşi cəhlim,
Söndür bu odu qoy əsə çevrəmdə əyazın.

Cəhd eylə Rizayi olasan əhli bəsirət,
Aç gözlərini ta görəsən yarın ecazin.

****

**Rəməl-6:**
**Fə′ilAtün / fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Kimdə vardir görəsən bir belə ustadi gözəl,
Gözəl insan, üzü gül sinəsi sinadı gözəl.

Düz əməl sahibidir, həmdə xuda aşiqidir,
Nitqi məntiqlə olan hər sözü dəryadı gözəl.

Bir müəllimdi ki, eşqin yolun həmvar eləyir,
Öyrədir sirri müəmmanı, o mənadı gözəl.

Verib Allahı təala ona elmilə muğam,
Dərk edib rəmzini həm, vaqifu danadı gözəl.

De Qəzənfərdi Rizayi sənin ol ustadın,
Tut əlindən sən ucal, ərşi müəlladı gözəl.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— • — — / — • — — / — • — — / — • —**
Mənzili candan uzaq, halı pərişan olmuşam,
Zikri YARƏB-YARƏB ilə zaru giryan olmuşam.

Çareyi dərdim onun vəslində ancaq hasili,
Mane didari olur zəfim pəşiman olmuşam.

Çərxi gərdun olmadi müqrin mənim əyyamıma,
Çün əzəldən şəmi tək həsrətlə suzan olmuşam.

Gəh qara telli gözəllər mayili gəh qafili,
Gəh həqiqət talibi eşqində heyran olmuşam.

Ey Rizayi nazəninlər vəslidir təsir edib,
Qətrə idim qaynadım əlbəttə ümman olmuşam.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— • — — / — • — — / — • — — / — • —**

Tərki dünya etməyən müştaqi didar olmayır,
Bəzmi eşq içrə gedən əlbəttə əqyar olmayır.

Tərki ləzzət eylə, nəfsin atəşin söndür tamam,
Atəşi eşqə yanan suzan vəli zar olmayır.

Hikməti dünya bilib şərhi müəmma eyləmə,
Fanidir dünya onun bətnində əsrar olmayır.

Bu nəfəs yoqquş eniş yoldur dəmi qalxar düşər,
Ta nəfəs vardır həyatın rahı həmvar olmayır.

Var Rizayi sinədə dərdim qəmi hicranidən,
Mübtəlayi dərdi eşqəm böylə bimar olmayır.

****

**Rəməl-6:**
**Fə′ilAtün / fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Şəmi xamuşidim, eşqinlə füruzan oldum,
Tələbi vəsl elədim, həmrəhi xuban oldum.

Xubilər cümlə gəlib, sakini rizvan oldu,
Məni bəd halidə ol, cəmidə mehman oldum.

Mərifət əhli mənimlə, süxəni yar etdi,
Qəflətimdən utanıb, zaru pərişan oldum.

Didə nəmnaku, sinəm çaku, zəbanım qasir,
Cəhlilə ömrü sürüb, əqlidən üryan oldum.

Zairi küyin olub tövbə ilə oldum pak,
İltifatınla şəha, şadu xuraman oldum.

Ta inayət elədin, badeyi gülfamından,
Məstikən, vəcdə gəlib, məndə qəzəlxan oldum.

Elədim cam tələb, ta ki məanini anım,
Qətrə-qətrə içiban, doymadım ətşan oldum.

Ta əyan oldu mənə qətreyi bəhri əsrar,
Bu qədər cahü cələli, görüb heyran oldum.

Səcdeyi şükr Rizayi, qılıb ixlasilə de,
Varlığım canidi ya Rəb, sənə qurban oldum.

****

## MURAD KƏRİMLİ (2002)

Kərimli Murad Qabil oğlu 4 sentyabr 2002-ci ildə Neftçala rayonu Qaçaqkənd kəndində anadan olub. 2015-ci ildə Salyan rayon Qulu Əsgərov adına Uşaq İncəsənət məktəbinin xanəndə sinifinə və 2019-cu ildə Azərbaycan milli konservatoriyasının xanəndəlik fakültəsində Qəzənfər Abbasovun tələbəsi olub. 2023-cü ildə Milli Konservatoriyada magistratura pilləsinə qəbul olunub.

Murad 2015-ci ildən qəzəl və digər şeir formalarında şeirlər yazmağa başlamışdır.

Qəzəlləri ilk dəfə nəşr olunur.

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— • — — / — • — — / — • — — / — • —**

Sən qəmin çəkdikcə dünyanın, bu dünya qəm verir,
Çün Xuda aşiqlərə dərdi qəmi möhkəm verir.

Fikrini çəkdikcə dövrün üz verirsən nəfsinə,
Kim ki, nəfsin doydurur imanını əldən verir.

Tərk edib zöhdi-riyani tut güzər meyxanəni,
Çün o mey cami sənə məstanəlik hər dəm verir.

Kim bu dünyada çəkir məhşər günüyçün iztirab,
Ol kəsin halin görüb Haqq dərdinə məlhəm verir.

Çəkmə dəhrin fikrini çünki o fani dəhridir,
Çün Murad fani olan şey bəxtimizçün kəm verir.

**Rəməl-6:**
**Fə′ilAtün / fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Zulm elə eşqdə mənə tab eləyim cövründən,
Mənə bir zövq yetər salma kənar dövründən.

Düşməyir könlümə bir başqa nigarın şövqü,
Min şeir nəzm edərəm məsti gözün şövqündən.

Min əsər yazdılar aşiqlərin əfqanından,
Məndə Məcnunə misaləm dəlilər qövmindən.

Dola zənciri kimi zülfi siyahinə məni,
Ta ki azad eləmə muyilərin tövqündən.

Çün Murad cami meyi içsə xumar olmayacaq,
Zövq ilə məst ola rindanələrin zövqündən.

****

**Rəməl-6:**
**Fə′ilAtün / fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Mən vətən mülkün özümçün sanıram bağı behişt,
Bu gözəl torpağın hər bir çəməni, bağı behişt.

Cənnəti hurilərin şövqü ilə sevmişdim,
Sevirəm ölkəmizi çün mənə torpağı behişt.

Görməmiş bir belə gülzarı hələ bülbüllər,
Çəməni çayları hər bir meşəsi dağı behişt.

Demə dünyanı gəzib seyr elədim çox yerlər,
Bizə cənnət bağıdır hər dağı, yaylağı behişt.

Muradın ölkəsi var indi bahar vaxti kimi,
Bu Azərbaycanımın indi gözəl çağı behişt.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Surətin əksi mənə surəti canan kimidir,
Görməsəm surətini göz yaşım ümman kimidir.

Yoxdu rahətliyim ol yari gedib görməy üçün,
Vəslinə yetmir əlim bağrım əcəb qan kimidir.

Mur Süleymanə yetirmişsə necə pay mələx,
Canımi allam ələ şahıma qurban kimidir.

Üzünün nurunu bənzətmərəm əsla günəşə,
Saçının ətri behişt, gülləri reyhan kimidir.

Eyləmiş vəsli təmənna ki, Murad kama yetə,
İstər azadəliyi, xanəsi zindan kimidir.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— • — — / — • — — / — • — — / — • —**

Ney kimi ah eyləməkdən bezmişəm mən sübhəcən,
Qəmdən ikrah eyləməkdən bezmişəm mən sübhəcən.

Göydəki səyyarələrdən seyr edib ruxsarini,
Vəslin iştah eyləməkdən bezmişəm mən sübhəcən.

Nalə çəkdim ah əfqan eyləyən bülbül kimi,
Qəmli seygah eyləməkdən bezmişəm mən sübhəcən.

Çıxmışam fərhad kimi mən dağa hüsnün çəkmişəm,
Eşqi agah eyləməkdən bezmişəm mən sübhəcən.

Ey Murad, anlamağın yetməz nigara dərdini,
Dərdi izzah eyləməkdən bezmişəm mən sübhəcən.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— • — — / — • — — / — • — — / — • —**
Gəzdirib hər dəmki aləmdə rüxi cananə göz,
Ol səbəbdəndir ki, baxmaz bir gülü reyhanə göz.

Vəsli eşqinçün sızıldar dəmbədəm bu didələr,
Qorxuram axırda salsın mən fəqiri qanə göz.

Nəfsinə uymazsa insan adlanar kamil adam,
Nəfsini həbs eylə daim, sal dəxi imanə göz.

Rəbbim öz nurundan yaratdı xəlq edəndə Adəmi,
Nəqş edərkən hüsnünü bəxş eylədi insanə göz.

Damənin tut sən Murad əl üzmə əsli yaridən,
Olma qafil sən çalış vermə bir an şeytanə göz.

****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
• — — — / • — — — / • — — — / •— — —

Bu yollar aşiqi zari yoran yollardır, ey dilbər,
Bu yol mecnunlari bir bir soran yollardır, ey dilbər.

Menim bu qanlı yollarda, bir ayrı həmdəmim yoxdur,
Bu yol çox aşiqin canın alan yollardır, ey dilbər.

Bu yolda qar yağır hər gün, soyuqdur sən çalış getmə,
Bu yolda göz gözü görmür toran yollardır, ey dilbər.

Bu yolda şahların hökmü gəda hökmüylə bahəmdir,
Bu yol çün şahları taxtdan salan yollardır, ey dilbər.

Murada sən bu yollardan çalış çoxda gəlib getmə,
Bu yollar çünki insan azdıran yollardır, ey dilbər.
****

**Həzəc-1:**
**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
• — — — / • — — — / • — — — / •— — —

Bütün dünya mənim olsa qamim bitməz nədəndir bu,
Əzəldən qam turabıyla yoğrulmuş bir bədəndir bu.

Dolar hər dəm ürək qan ilə gözlərdən axar seylim,
Ki hər dəm qan yaşın israf edən ol didədəndir bu.

Məni heç qəm yıxarmı ey əcəb qafil yatan könlüm,
Məni qəmlər qılar əhya dili divanədəndir bu.

Dili sədparəmin hər parəsi dildarə ehsandır,
Bölün hər parəmi yüz parəyə əfqan edəndir bu.

Yanar şəm odlanar ətrafına döndükcə pərvanə,
Yaxar atəş neçün qaçmaz nihani eşqdəndir bu.

Gələn qalmaz, gedən gəlməz, Murad, sordun nədəndir bu?
Gələnlər tərk edib getmiş ki fani dəhridəndir bu.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
• • — — / • • — — / • • — — / • • —

Səri kuyində dolanmaq gülüm adətdi mənə,
Nə edim hər gecəm həsrət qəmi möhnətdi mənə.

Çırpınır sinəm arasında ürək bir quş tək,
Gözümün nuri yetiş hər gecə zillətdi mənə.

Xəlvəti ağlamağı mən yaman adət elədim,
Gözümün yaşı axır sel kimi nisbətdi mənə.

Nəfəsim hayqıraraq dağları yandırdı, gülüm,
Sənə çatmır nəfəsim bu nə qiyamətdi mənə.

Şad ikən vəslin ilə könlümü qəm yıxdı, gülüm,
Nə deyim hicrə ki, hər cür qəmi öyrətdi mənə.

Eşq bazarına çək gözlərimin yaşını sən,
Əvəzində səni görmək özü zinətdi mənə.

Şəm'ə pərvanə yanar hər gecə kim xəlvətcə,
Atəşi eşqinə yanmaq necə rahətdi mənə.

Muradın sinəsini dəldi o xəncər qaşlar,
Kipriyin oxundan ölməkdə şərəfətdi mənə.

****

**Kamil-1:**
**MütəfA'ilün / mütəfA'ilün / mütəfA'ilün / mütəfA'ilün**
**• • — • — / • • — • — / • • — • — / • • — • —**

Kədərdən gözüm tökər qanlı yaş, fələksə duymaz ahu zarimi,
Məni, ey fələk, nə halə saldın, füzun eylədin sən qübarimi.

Arami səbrim tarimar olub, nihan olan dərd aşikar olub,
Tamamı ömrüm ahu zar olub, götür, ey fələk, qaz məzarımı.

Gəlib könlümə məkan eylədin, cəfa ilə imtahan eylədin,
Səhi qəddimi kaman eylədin, talan eylədin ruzigarimi.

Ucalmış göyə fəğani ahim, tutuldu övci səmada mahim,
Solar bağdə güli giyahim, xəzan eylədin novbaharimi.

Murad dəhanin çəməndə daim ətir saçardı güli tər kimi,
Mənim qəlbimi tarimar edən, viran eyləmiş mişkibarimi.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— • — — / — • — — / — • — — / — • —**

Allahın nuri iki gözdür durub sərdən baxır,
Gərçi hərdəm görməyir, hərdən görür, hərdən baxır.

Biz yarandıq ruh kimi cism ilə tapdıq vəhdəti,
Çox yaranmaq gözləyənlər aləmi zərdən baxır.

Çoxları gəlmişdi, pul, ad san üçün ömr eylədi,
Bir zaman cövlan edənlər qarə mərmərdən baxır.

Bir zaman insan olanlar göylərə pərvaz edib,
Bəlkə bir quş tək bizə indi o göylərdən baxır.

Sən qəmin çəkmə bu dünyanın, Murad, səbr eylə, döz,
Hər zərərdən bir xeyir var, hər xeyir şərdən baxır.

****

**Müctəs-2:**
**MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**
**• — • — / • • — — / • — • — / • • —**

Fəraqi yar ilə hər dəm qəm olmuş əfvalım,
Könüldə yoxdu təvanım yaman keçir halım.

Ürək sözün deməmiş yarım ayrılıb getdi,
Könüldə qaldı o yarə yetişmək amalım,

Könül quşum dolanardı çəməndə bülbültək,
Cəfayi zəxm ile yarım kəsib pərü-balım.

Məni o həlqeyi zəncirinə əsir eləmiş,
Əsiri eşqi bəlayəm qolumda qandalım.

Zaman keçərmi qəm ilən Murad büküldü belin,
Ümid elə gülə bəlkə bu halı bədhalım.

****

**Müctəs-2:**
**MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**
**• — • —  / • • — — / • — • —  / • • —**

Cəmali yarı düşünməkdi şakərim gecələr,
Cəfayi hicrinə dözməkdi şakərim gecələr.

Zülali Kövsər üçün xizri zülmət içrə gəzər,
Ləbin zülalı olar Abi Kövsərim gecələr.

Fəraq oduyla yanar aşiqi ciyərsuzin
Düşəndə yadə o sərvi siminbərim geceler

Bəlayi eşq mənim başımı bəlayə salıb,
Füzun olar çoxalar bu bəlalərim geceler.

Muradın ömrü bütün ismi zikrin iylə keçib,
Tüluyi sübhəcən ismindir əzbərim gecələr.

****

**Rəməl-6:**
**Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Görüm ay tazə cavan ömrü firavan olasan,
Qusseyi qəhr kədərdən uzaq insan olasan.

Yetəsən kamə həmişə gözəl olsun bəxtin,
Gülşəni eşqidə bir sərvi xuraman olasan.

Gül danış eylə zərafət uzaq ol möhnətdən,
Öz yarınla bir ömür xürrəmi xəndan olasan.

Mülkü dünyadə səni bəxtəvər etsin yaradan,
Eşqi mülkündə səni sahibi sultan olasan.

Sən Murad ərz elə bu tazə cavanə qəzəli,
Sevə xəlqin səni şeirinlə qəzəlxan olasan.

****

**Rəməl-6:**
**Fə′ilAtün / fə′ilAtün / fə′ilAtün / fə′ilün**
**• • — — / • • — — / • • — — / • • —**

Ey Xuda eylə nökər həşrdə cananə məni,
Mu bə mu tellərinə eylə onun şanə məni.

Bir otaq bəxş elə kuyinnən onu seyr eləyim,
Vəslin istər ürəyim çatdır o sultanə məni.

Qəlbi sənduqidə şahı şuhəda eşqi yatıb,
Ləşkəri Şumrə baş əyməm çəkə meydana məni.

Kərbəla şahı Hüseyn ya Əlinin övladı,
Bənzədə, ey Həqq ki, qeyrətdə o mərdan(ə) məni.

Sən Murad səbr elə döz Əhli-beyt eşqi ilə,
Edə məşhur Xuda Şahi şəhidanə məni.

****

**Müzare-1:**
**Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**
**— — • / — • — • / • — — • / — • —**

Səfvən güvəndim əhdinə mən aşinalərin,
Olmaz vəfası əhdinə bildim gədalərin.

Çoxlar qaçıb kənarə çətin gündə görmüşük,
Dar gündə yetişdim karına bivəfalərin.

Cəhd eylədim ki, dosta edim mehri ülfəti,
Arxamca yamandan eşidirdim sədalərin.

Çox dəydi rəqibin oxu bir təsir etmədi.
Kəc baxmağı sinəmdə yarə salar aşinalərin,

Yarında rəhmi yoxdu zərər verdi könlümə,
Birdəm səfa gətirdi mənə verdi cəfalərin.

Kimdən ki, vəfa umdu Murad, çıxdı bivəfa,
Vardır şikayəti öz bəxtinə bəxti qaralərin.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— • — — / — • — — / — • — — / — • —**

Uyma Məcnun tək könül zülfü siyah leylalərə,
Çünki Məcnun Leyli eşqiylə düşüb səhralarə.

Vadiyi qəmdə bəla çəkmiş başı aşiqlərin,
Kim əsiri eşqdir dözsün gərək qovğalərə.

Yusif idi bir qulam ikən gəlib sultan olan,
Eşq idi zülmət quyudan qaldıran səmalərə.

Zərrədən küllə qovuşmaqda özü bir eşqdir,
Çün yağış da eşq ilən yağmaqdadir dəryalərə.

Eşq idi Fərhadə Şirin rəsmini nəqş etdirən,
Eşq idi həsrət qoyan vamiqləri əzralərə.

Eşqdən özgə nə varsa aləm içrə fanidir,
Eşq idi Fironu kim diz çökdürən Musalərə.

Eşq ilən cövlanə gəlmişdir təbi şeirin Murad,
Eşq ilən hökm eylə İsgəndər kimi mənalərə.

****

**Rəməl-2:**
**FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**
**— • — — / — • — — / — • — — / — • —**

İstədim Məcnun misalı üz tutum səhraya mən,
Neyniyim ki, mən yazıq heç qaçmağa səhrada yox.

Gülmədi bir ləhzə bu məcruh olan könlüm mənim,
Dəxi bir qəm çəkməyə bir dost nə həmrada yox.

Təşneyi suzi diləm, ey dustlər, bağrım yanır,
Qalmışam mən Kərbəladə madərim Zəhra da yox.

Sanma bu dünyada sonsuz ömr edərsən, ey ədu,
Hardadı Firon dəxi İsgəndərü Darada yox.

Sən Muradın şeirini dinlə eşit misraların,
Birdə duymazsan Murad yoxsa həmən misrada yox.

****

**Həzəc-8:**
**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
**— — • / • — — • / • — — • / • — —**

Ey çərxi fələk, sən yaman insanı sıxırsan,
Yox qəlbidə rəhmin məni-nalanı sıxırsan.

Hər xanəyə bir dərd verirsən nə yamansan,
Beytul həzən içrə gözü giryanı sıxırsan.

Qan ilə dolar qəlb, siyah didələrimdən,
Yox rəhmin o gözlərdən axan qanı sıxırsan.

Aşiqlərə rəhm eyləməz oldun oda yanmış,
Dağda Şirini, dəşti də Leylanı sıxırsan.

Hər gün Muradın qəlbi qəmə batsada qorxmaz,
Bir qətrə yağışla güya dəryanı sıxırsan.

****

## Qoşma

Torpağın altında qara qul kimi,
Torpağın üstündə nər gəzir insan.
Yığıb bu dünyanın varın dövlətin,
Ləl cəvahir yığıb, zər gəzir insan.

Dünya malı bu dünyada qalacaq,
Hər açılan qönçə, çiçək solacaq,
Qoca dünya boşalacaq, dolacaq,
Boşuna mülk salıb yer gəzir insan.

Zəhmət çəkib cahi-cəlal eyləmə,
Bu dövran sənindir xəyal eyləmə,
Pul itirsən ondan ötrü göynəmə,
Qəbrədək alnında tər gəzir insan.

Murad, mülkü dünya aqibət bərbad,
Cavanlar var məğrur qaməti şümşad,
Şeytanı dost tutar, haqqı bilər yad,
Xeyirdən gen qaçır şər gəzir insan.

## Kitaba daxil edlimiş əruz vəznindəki şeirlərin bəhr və qəliblərinin statistikası

Bu topluya 14 xanəndə-şairin əruz vəznində 7 bəhrdə, 18 qəlibdə 276 şeiri daxil edilib. Şeirlərin ən böyük hissəsi şübhəsiz ki, qəzəllərdir. Bununla yanaşı kitabda mürəbbe (dördlük) müxəmməs (beşlik), nəzirə, təxmis, məsnəvi kimi formalarda da şeirlər vardır. Aşağıdakı cədvəldə şeirlərin əruz vəznlərinin sayı göstərilmişdir.

Cədvəldən göründüyü kimi bu kitaba daxil edilmiş xanəndə-şairlərin əruzda şeirləri 7 bəhrdədir: Həzəc, Rəməl, Rəcəz, Müzare, Müctəs, Xəfif, Səri. Xanəndə-şairlər sayca ən çox şeirlərini Rəməl (141) və Həzəc (98) bəhrlərində yazmışlar. Rəməl bəhrində isə yüksək saylı şeiri Rəməl-6 (78) və Rəməl-2 (53) qəliblərində yazmışlar. Həzəc bəhrində isə ən çox şeirlər Həzəc-8 (50) və Həzəc-1 (38) qəliblərindədir. Müctəs-2-də 20, Müzare-1 qəlibində isə 14 şeir yazılmışdır.

Cədvəl: Kitabda istifadə edilmiş bəhr və qəliblərin sayı

| Bəhr N | Bəhr adı | Qəlib N | Qəlibin adı | Şeirlərin sayı | Bəhrdə şeirlərin sayı |
|---|---|---|---|---|---|
| 1 | Həzəc (Nəşəylə mahnı oxumaq) | 1 | **MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**<br>• — — — / • — — — / • — — — / •— — — | 38 | 98 |
| | | 2 | **MəfA'İlün / məfA'İlün / fə'Ulün**<br>• — — — / • — — — / • — — | 1 | |
| | | 6 | **MəfA'ilün / məfA'ilün / məfA'ilün / məfA'ilün**<br>• — • — / • — • — / • — • — / • — • — | 2 | |
| | | 8 | **Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**<br>— — • / • — — • / •— — • / •— — | 50 | |
| | | 9 | **Məf'Ulü / məfA'İlün / məf'Ulü / məfA'İlün**<br>— — •/ • — • — / — — • / • — • — | 3 | |
| | | 11 | **Məf'Ulü / məfA'ilün / fə'Ulün**<br>— — • / • — • — / •— — | 3 | |
| | | 16 | **FA'ilün / məfA'İlün / fA'ilün / məfA'İlün**<br>• — • / • — — — / • — • / • — — — | 1 | |
| 2 | Rəməl (Qaçan) | 1 | **FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilAtün**<br>— •— — / — •— — / — •— — / — •— — | 1 | 141 |
| | | 2 | **FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**<br>— •— — / — • — — / — • — — / — •— | 53 | |
| | | 5 | **Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilAtün**<br>• • — — / • • — — / • • — — / • • — — | 3 | |
| | | 6 | **Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**<br>• • — — / • • — — / • • — — / • • — | 78 | |
| | | 8 | **Fə'ilAtün / fə'ilAtün / fə'ilün**<br>• • — — / • • — — / • • — | 3 | |
| | | 11 | **Fə'ilAtü / fA'ilAtün / fə'ilAtü / fA'ilAtün**<br>• • — • / — • — — / • • — • / — • — — | 3 | |

| Bəhr N | Bəhr adı | Qəlib N | Qəlibin adı | Şeirlərin sayı | Bəhrdə şeirlərin sayı |
|---|---|---|---|---|---|
| 3 | **Rəcəz (Titrək)** | **3** | **Müftəilün / məfA'ilün / müftəilün / məfA'ilün**<br>**— • • — / • — • — / — • • — / • — • —** | **1** | **1** |
| 4 | **Müzare (Bənziyən)** | **1** | **Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**<br>**— — • / — • — • / • — — • / — • —** | **14** | **14** |
| 5 | **Müctəs (Qopmuş)** | **2** | **MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**<br>**• — • — / • • — — / • — • — / • • —** | **20** | **20** |
| 6 | **Xəfif** | **1** | **Fə'ilAtün / məfA'ilün / fə'ilün**<br>**• • — — / • — • — / • • —** | **1** | **1** |
| 7 | **Səri (Cəld)** | **1** | **Müftəilün / müftəilün / fA'ilün**<br>**— • • — / — • • — / — • —** | **1** | **1** |
| **Cəmi** | | | | | **276** |

# ƏDƏBİYYAT


1. Ağakərim Nafiz. Divan / tərt. ed. və naşiri T.İbrahimov; red. K.Cəfərzadə, H.Qaralar. Bakı: Elm və təhsil, 2017. – 630 s.

2. Ağakərim Nafiz. Ustadi-ə'zəm Mirzə Məhəmməd Həsən Fələkzadə Şirvani /Ağakərim Nafiz. Bakı: Nafta-Press, 2010. – 147 s.

3. Məşədi Məhəmməd Bülbül. Əsərləri / AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu; ön söz, tərt. ed. və tərc. ed. R.Kərimov. Bakı: Şuşa, 2008. – 213 s.

4. Firidun Şuşinski. Azərbaycan xalq musiqiçiləri / red. T. Əhmədov. Bakı: Yazıçı, 1985. - 477 s.

5. Gülhüseyn Kazımlı, Turan İbrahimov. Xanəndə Məşədi Qafar Qaryağdı / red. A.Nəcəfzadə, Bakı: "Azərbaycan Nəşriyyatı" MMC, 2023. – 160 s.

6. Məmmədəli Sail. Qiymətli olur söz həmişə kamil olanda / tərt. ed. S. Əliyeva. Bakı: Maarif, 1993. – 128 s.

7. Poetik məclislər: XIX əsr Azərbaycan ədəbi məclisləri nümayəndələrinin yaradıcılığından seçmələr / topl. və tərt. ed. N. Qarayev; red. H. Məmmədzadə. Bakı: Yazıçı, 1987. – 525 s.

8. Təzkireyi-Nafiz / tərt. ed. Ağakərim Nafiz; red. Rüstəm; naşiri və ön söz T.İbrahimov, Bakı: SkyE, 2023. - 522 s.

9. Zemfira Yusif qızı. Şərq musiqisinin peyğəmbəri. Bakı, "Şərq-Qərb", 2008. - 160 s.

## KİTABIN İÇİNDƏKİLƏR

**TƏRTİBÇİ-NAŞİRDƏN ÖN SÖZ (T.İbrahimov) .................. 8**
**REDAKTORDAN ÖN SÖZ (Ö.Bayram) ................................. 8**
**MİRZƏ MƏHƏMMƏDHƏSƏN (1850– 1917) ........................20**
Bu gün nə türfə gözəllər gəlib kəlisayə ..................................20
Açıldı həlqeyi-zülfi-nigardən mulər .......................................21
Heyhat, ola bu gərdişi viran, ölürəm mən ..............................22
Bir bülbül idim çəmənlər içrə ...............................................23
Pərvanə kibi yandı könül narə desünlər ................................30
Yoxdu bir şirinsüxən lə'li-şəkərbarın kimi ............................31
Bir xəbər ver, ey səba, sərvi-rəvanım handadur?....................31
Bu gün ol şahi-xubanım gözümdən çün nihan olmuş ...........32
Gəl, ey qoyan gözümi hər dəm intizar, ölürəm .....................33
Eşqin olubdu aşiqə bir can yaraşığı .......................................34
Bu rövşəndür yüzi dildarımın bir mahi-ənvərdür .................35
Nigara, zülfüvə tapşur üzündən bir kənar olsun ...................35
Dərdi verdi, nə üçün vermədi bəs dərmanın .........................36
Olurmu böylə Məcnun zülfi-Leyladən təmənnasız................37
Tabi-hüsn ilə bulmusan şöhrət ...............................................38
Gülüm, sənsiz gözüm görməz ................................................38
**AĞAKƏRİM SALİK (1849-1910) ............................................40**
Qaşın belimi bükdü, kəman eylədi, getdi ..............................40
Olur əşkim rəvan daim bu çeşmi-dərdnakimdən .................41
Hər dəm ki, xatirə o ləbi-lə'li-tər gəlir ....................................41
Dilbər cəfası aşiqinə çun müdamdır .....................................42
**MƏŞƏDİ MƏHƏMMƏD BÜLBÜL (1858 – 1918) .................44**
Niyə ya Rəb, belə mən aləm ara xar oldum ............................46
Gözüm nuri, gözümdən ayrılub bir dəm kənar olma............47
O sərvqaməti gördüm bu gün, xüram eylər ..........................48
Dedüm görəndə yüzin, dərdimi nigarə deyüm .....................48

Yox bu şəhr içrə sənə bir kəs, giriftar olmayan ......................49
Qoyma düşsün gülcəmalə gün təravətdən düşər ..................50
Neyləyim gər dərdi-eşqün canda tüğyan eyləsə ....................51
Atəşi-hicründə halimdən xəbərdar olmadun .........................52
Aldı aramımı naz ilə, nigarim keçdi .......................................53
Xətayə düşdim axırda bir ahuyi-xəta üstə ..............................54
Dolub, mehrünlə könlim, sənsiz aramü qərarim yox ............55
Ola gər navəki-müjgan ilə sədparə könül ...............................56
O gündən kim, gözəl nəqşin qəza nəqqaşı çəkmişlər ............57
**CABBAR QARYAĞDIOĞLU (1862 – 1944)............................58**
Saldı yarım üzünə zülfün, əcəb pürçəmi var ..........................61
Bağçada güllər.............................................................................62
Ay ana, bu yarım niyə gəlməz oldu? ........................................63
**HACIBABA HÜSEYNOV (1919– 1993)..................................65**
Hanı bir yarı-vəfadar ki bizə yar olsun ..................................66
Nə batıbsan yenə, ey dil, belə dərdü kədərə?..........................67
Ey dil, bu gözəl kimdir? Kim bu lətafətdə? .............................68
İstədim dəhridə bir cam tutum ...............................................69
Dəyirsən baxəbər, ey nazənin yarım, əgər məndən ...............69
Yoxu var edən o varlıq, yeri laməkandır, ey dil .....................70
Tapılarmı bir imansız, dana həzrəti-Xudanı ..........................71
Qəzələ, musiqiyə kim ki həvəskar deyil ................................71
Əgər olsaydı mənim siz təki bir dadrəsim .............................72
Tamaşa eylə, ey könlüm, bu aləm gör nə aləmdür ................73
Müjdə, ey dil, yenə də gəldi bahar əyyamı ............................74
Hər kimin ki eşqidə bir dilbəri rənası yox .............................75
Oldu könlüm yenə də qamətinin heyranı .............................76
Nigara zülfüvə tapşır üzündən bir kənar olsun .....................77
"Ləbin ki, ol sənəmin dərdə çarə yazmışlar" ........................81
Sanmiyun, əhvalımız eşq içrə nasaz olsa da ..........................82
Camalın istədim görəm, dedin ki, olmaz olmasın .................83

Dil mürğini seyd etmisən, ey gözləri şəhbaz ..........................84
Gərçi bu dəhrdə hicr ilə dili bərbadəm ..................................85
Hansı bir məşuqədir, öz yarına imdadı var ............................87
Eşq aləmi bir aşiq üçün sirri-nihandır ...................................88
Gözəlim, o tiri-qəmzən məni-mübtəlayə gəlsin .....................89
Hər kim ki ola gözəl sənətkar ................................................92
Bir gün gələcək, cismim olur xak ilə yeksan ...........................92
"Qarğa və bülbül" (təmsil) ......................................................93
**MƏMMƏDƏLİ SAİL (1919— 1983)........................................97**
Çalış ki, eylə müdara bu kəc zəmanə ilə ................................98
Bir dilbərin eşqiylə əcəb dərbədərəm mən ...........................100
Aylar illər ötüşür, cümlə bu xilqət qocalır ...........................101
Var qamətinin bənzəri Fərhadə, a dostum ...........................102
Aludəyəm ol dilbərə şirindil olanda ....................................102
Dünyada əyər yaxşılıq etsən, ucalarsan ...............................103
Gül bəsləməyən, baxçada gül qədrini bilməz .......................104
Musiqi sevməyi, əzm ilə qərar eyləyəsən .............................105
Ey gül, bu qədər işvə ilə nazə nə həcət .................................106
Ey dil, bu pərilər səni avarə edərlər .....................................107
Bu yer üzünün ziynəti, evladi bəşərdir .................................107
Ey gözəlliklə bütün aləmi heyran eləyən .............................108
Gər olmasa insan, dəxi sərvət nəyə lazım .............................109
Deməyin sirrimi ol yarə, öləndən sonra ...............................110
Məclisə badə dolandır sən, amandır, saqi ............................111
Ömr eyləsə şadlıqla bəşər, qəm dəxi olmaz .........................112
Mən aşiqəm, ey gül, rəhi meyxanə mənimdir .......................113
Pərvanə bir tərəfdə yanır, eşqə can verir .............................114
Gözəllərdə vəfa olmaz, götür əl sən bu mə'vadən ...............115
Qocalıq bükdü belim, yoxdur daha imdadim .......................116
Seyri gülşəndə mənim yox güzəranım sənsiz .......................117
Yarın səri-kuyi gecələr, mənzilin olsun ...............................117

Cevrini az et mənə, mən ki, sənə biganəyəm .......................118
Ol gülü rə'na ola həmdəm bizə ...........................................121
Dilbəra, sən könlümü şad etməliydin, etmədin ...................122
Diyari-dəhridə ol şəxsin ki, nəzakəti var .............................123
Vardır şikayətim fələyi kəcmədaridən .................................124
Görcəy ol xurşidi ruyin, könlüm hər dəm şad olar ..............125
Firqətindən, ey fələk, könlüm evi viranədir .........................126
Gəl bir gecəlik ol dəxi sən həmdəmim, ay qız ......................127
Saqiya, mey ver içim, gəldi bahar əyyamı ...........................128
Cahanda könlümüzün rəhnüması musiqidir .......................129
Saqiya, mey ver içim, məsti xumar etsin məni .....................130
Rəhm elə, ey nazənin, qoyma məni zar ağlayım ..................131
Deyirlər ehtibar olmaz bu mürvətsiz gözəllərdə .................132
Ey, mənim ömrüm boyu könlüm evin bərbad edən ............133
Zahid, bizə ver şadlığı, qoy qəm sənin olsun .......................134
Eşqin ancaq ləzzətin bulmaq olur hicranidə ........................135
Bu dari fənadən, kimisi şah idi getdi ....................................136
Ey fələk, bu gərdişindən biz gərək dad eyləyək ..................137
Bu baği-çəmənzaridə, bir qönçələbim var ............................138
Şadəm mənə yar, sən kimi bir şux sənəm olsa .....................138
Məsəl vardır xəlayiqdə, deyirlər söz arasında .....................139
Nigara, küsmə məndən, əfv elə, bəlkə günahım var ...........140
Bir çarə gəlin, aşiqi-nalanə edin siz .......................................141
Guşi qıl, sən bircə an, ey ağ olan ustadına ............................142
Ey gül, o keçən dəmləri dayim anıram mən .........................142
Bir zamanlar bəxtəvərliklə ucalmış, ey könül ......................143
Fələk qoyub necə həsrətdə vəsli-yarə məni ..........................144
Belə xoş günlər üçün borcluyam hər an, Vətənə ..................145
Dəhridə bir kəs mənimtək, heç pərişan olmasın ..................146
Vəslinlə məni şad elə, ey nazlı nigarım ................................147
O dilbər ki, durar sübhi səhər, zülfə vurar şanə ..................147

Sadə insan olanın, qəlbi dəxi sadə qalar ..............................148
Dəmbədəm meylim mənim dayim meyi-səhbadədir ..........149
Bu yazıq könlüm həmişə qəmi möhnətdə olur ....................150
Candan artıq sevmişəm mən, can alan bir dilbəri ................151
Nigara, gözlərin şəhla, dilin şəkkər, ləbin güldür ................152
Bir şəxsə ki, aləmdə bəla gəlsə səmadən ..............................153
Nədəndir aşiqə qismət cahanda zillət olur ..........................154
Yenə də cismi xuramanımı gördüm bu gecə ........................155
Dinc otur ....................................................................................157
**ƏLİBABA MƏMMƏDOV (1930-2022)..................................159**
Saqiya gör nə gözəldir yığılıb hamı bu gün ..........................160
Cananıma can bəxş edirəm can gedir əldən. .........................161
**AĞAKƏRİM NAFİZ (1948)....................................................163**
II Saqinamə ...............................................................................163
III Saqinamə – Şirvan xanəndələrinin vəsfi ..........................165
Düşübdür daminə könlüm o zülfü piçü tabasa ...................170
Dilbəra, bir etmədin yari-dilaralıq, mana ............................171
Gülşəni-hüsnün əzəldən bir güli-xəndan dutub ..................172
Mən unutdum o keçən dəmləri, gəl sən də unut .................172
İstərəm könlüm kimi gülzarə dönsün kainat .......................173
Yüz Leylatül-əsra ola, göylüm səni istər ...............................174
Əfkari-xəyali-dəhənin məzhərimdədür ................................175
Ləbi-lə‘lin nüzul etdikdə könlümdə bəqa artır ....................176
Dil fikri-surətinlə dönüb kimya olur ....................................177
Ləbi-lə‘lün, ey pərivəş, şüəra betər yazıblar..........................177
Şirin ləbin piyaleyi-candur mizacimə .................................179
Səməndərlər kimi yandım, vücudim oldi xakəstər ..............180
Genə qəlbim səfaləndi, həmin cövri-cəfadəndür .................181
Kişilər ərdəmini hövsələsindən biliriz .................................182
Məni dildən dilə saldın genə də olmadı bəs?........................183
Sineyi-sənduqəmin inci dəhanın açmışam ..........................184

Xəyal eylə cahan içrə müqəddər tale'in vardur ....................185
Görməsəm rüxsarini əl çəkmərəm meyxanədən ..................186
Hüsnün ziyasıni görübən ərzü asiman ................................187
Döndi aləm cənnətə hüsnü xəyalin görcəyin .......................188
Tə'neyi-duni-rəqibə hədəf olmaqdansa ................................189
Gir gülüstani-İrəm bağinə, ey aşiq olan ................................190
Saçın vəsfi-diraz olsa o zülfi-piçtab ayri ...............................191
Ümidi-vəslin ilə üzdü intizar məni ........................................192
Rəva bilsən nə dəm cana, verim cani, ağam cani .................193
Şami-qəmində fövt elədim çox zamanlari ............................194
Yox təşnəyə bir qətrə su abi-Fəratdən ..................................195
Dağıdır badi-səba dildə əza pərdəsini ..................................196
Sünbüli-zülfü yuyub, hər nigar açar-bağlar ..........................196
Gəlib bəzmi-əzayə naz ilə, ol simtən sərxoş .........................197
Turan, ey çeşmimim nuri, sənə bizdən dua olsun! ...............198
Yardən kim, aşiqə çövri-çəfa hərdən gəlir ............................199
Çıxır əflakə bu ahim şərəri axşamlar ....................................200
Yar qətlimçün genə e'dam ilə tədbirlənib .............................201
Təmaşagahi-aləm, gülşəni-seyri-təmaşadur .........................202
Gəl, ey siminbədən saqi, gətir cami-kəramətdən .................202
Vəsf edərsəmsə çəməndə o güli-xəndani ..............................204
Kim edərsə bizimlə şuri-hənək ..............................................204
Ayineyi-dildə o səfa olmadığından .......................................205
Yanağın dairəsi türfə lətafət kimidür ...................................206
Seyrə çıxmış gülyavağlar, ol gözi məxmurilən ....................206
Qəsideyi-əlif-be I .....................................................................207
Qəsideyi-əlif-be II ....................................................................209
Əgər sən olmayasan dəhrdə Leyla kim olar? ........................210
Aram sərinsə ol yari-gülüzarım ilə .......................................213
Gələndə şur ilə gülşəndə adun, ey bülbül ............................214
Şəhri-cünun bəyan olur, qöftə-bə-qöftə, hay-ba-hay ...........216

**HACI AQİL MƏLIKOV (1952)** ........................................**218**
Ümidün üzmə könül, məclisə ol yar gələr ........................219
Könlüm açılır məclisi-meyxanələr içrə ..............................220
Sən bir gülə bax, bülbüli- şeydanı bəyənməz .....................221
Gördüm üzünü bağçada çün lalə misali ...............................222
Gəl ey gülzari-hüsn içrə gülü-xəndan olan dilbər ...............222
Artırma hicr əzabını, ey dilruba mənə .................................223
Gəldi elə bir dövran, söz düşdü təravətdən .........................224
Kim ki, öz qəlbini atəşdə kəbab eyləməyib ..........................225
Düzmü söylərlər ki, sən bir nazlı canan olmusan ................226
Bu dünyayə gələnlər şad gəlib, naşad getmişlər ..................227
Qəm çəkmə, ey könül, xəbər ol yardən gələr .......................228
Yandım o şəm'i -ruyinə, pərvanə incidi ...............................229
Gəl, ey gözümün nuru, zövq əhli, xiridar ol ........................230
**YAŞAR CAHİD (1957-2020)** ...................................................**232**
Aləmlərə məşhur eləyən insanı əməldir ..............................232
Olmasaydı Əli, din içrə səfa olmaz idi .................................234
Zəhranı sevən kəs gözü naməhrəmə baxmaz ......................235
Gəl gedək Kərbübəlayə, qoşulaq ahu-nəvayə.......................240
Könlümün mülkünə ağacı, başımın tacı, ata.........................241
Lə İləhə İləllah deyən dillər var olsun ..................................241
**ƏLİ NƏCƏFZADƏ TƏNHA (1956)** .........................................**243**
Tanrı öz qüdrəti ilə, yaradıb dünyanı ..................................243
Xəm qılıb qəddimi, dərdi qəmi həmxanələrin .....................244
Nədən aşiqə verirsən, bu qədər dərdi-səri ...........................245
Viranə könlümə yox kimsə yetə imdadə .............................246
Mərizi eşq olanın, dərdinə dərman olmaz ............................247
Bəsləyək, ey dil, Xaliqi Sübhanə məhəbbət. ..........................248
Fələyin qəsdi nədir, ey könül, ədavət edər ...........................248
Əzəldən vurğunuyam, sərvi boylu cananın .........................250
Cəfayi cövri yaridən, bixaniman olmuşam ..........................250

Yandı canım, pərvanətək şəm oduna bilmədin ....................251
Kaş oleydi hamının, zövqilə səhmanı dürüst .......................252
Baqi gözəllikdə məst olan aşiq ...........................................252
**QƏZƏNFƏR ABBASOV (1962)............................................254**
Hər gecəm nalələr ilə keçir, ey nazlı sənəm ..........................255
Ey gül səni gör bir necə canlar sorağ eylər ..........................256
Çox heyif qoydu məni getdi nigarım bu gecə ......................256
Canıma canı ilə can verən insan anadır ...............................257
Mahi dövrana baxıb könlümü qan eyləmişəm .....................258
Gəldim təbrik edim mən bu gün sizi ..................................260
Heydər baba ildirimlar çaxdı gəl. .........................................260
Bilmirəm necədir sevdiyim gözəl .........................................262
**NASİR ƏTAPUR (1976).........................................................263**
Fəxr eyləyirəm, nazlı nigarım sən olubsan ...........................265
Atəşi hicranına, ey gül, necə tab eyləyim?............................265
Yarıdan ayrı düşən candan, bu gün can ayrılır ....................266
Bar ilaha sən yetir candan əziz dildarımı .............................267
Səninlə yar olan dəmdən, bu könlüm mərhəmin tapmış ....268
Sirrimi yarə dedim döndü dilim qanə bu gün .....................269
Bu müqəddəs eşqimi mən aləmə car eyləmişəm .................270
Dün xərabatə gedib yar ilə qıldım söhbət .............................272
Sevgi tufanı hər an sinəmdə cövlan eyləyir ..........................273
Min könüldən gər birində olsa istedadi eşq .........................274
Canımdan ayrılan canın, canından ayrılır bir can ................274
Olmasaydın çata bilməzdi bu can hörmətinə .......................275
Tapıbdır sevgilim həmdəm, məni əğyarə döndərmiş .........276
Məni məcnun eləyən, tək sənə canan demişəm ...................277
Mən sənin aşiqinəm dərdimi bil, ay Savalan.........................277
Qəzənfərnamə .........................................................................278
Muğamatda bir ümmandır Qəzənfər....................................278
Oxu yuxularım göylərə qalxsın ............................................279

Bu qəmin əlində sola bilmərik.............................................280
Gecə-gündüz interneti izlirəm ............................................281
Heydərbaba tərk etmərəm yarı mən...................................282
**SƏLİM NƏSİRLİ (1983) .........................................................284**
Cananıma can bəxş edirəm can gedir əldən ........................284
Can qeydinə qaldıqca da canan gedir əldən.........................284
Fikr eyləmə sən, daima aləm belə qalmaz ...........................285
Bir gün gedəcək qüssə ilə qəm, belə qalmaz. .......................285
Görmüşəm dildarımı rö'yadə üç gün, üç gecə ....................286
Həmdəm olmuşduq əcəb səhradə üç gün, üç gecə..............286
Gəl bəzmimizi şe'rü qəzəllə bəzə şair .................................287
Çoxdandı könül təşnədi bir xoş sözə şair. ............................287
Ey dil, bu qədər tövbəni sındırmaq olarmı?.........................288
Əldən verib imanı da yandırmaq olarmı? ............................288
Əlin dəyib o üzdən gəlibdi dadə badə ................................288
Gözün görübdü məxmur olub ziyadə badə. .........................288
**HƏMİDRIZA RIZAYİ (1988)...............................................290**
Ləzzəti dünyayi batil, qeyrə həqdən yaxşıdır .....................291
Gəzmə qafil salma hər əqyarə bari meylini .........................293
Ey səba kuyi nigarımda gəzirsən gecələr?............................294
Gətirib badi səba müjdə ki canan gəldi ...............................294
Həsrəti vəsli o yarilə ömür sürməkdən ...............................295
Ey Şəh nədən oldu bu qədər nazə niyazın?..........................296
Kimdə vardir görəsən bir belə ustadi gözəl ........................297
Mənzili candan uzaq, halı pərişan olmuşam .......................298
Tərki dünya etməyən müştaqi didar olmayır .....................298
Şəmi xamuşidim, eşqinlə füruzan oldum ............................299
**MURAD KƏRİMLİ (2002)....................................................301**
Sən qəmin çəkdikcə dünyanın, bu dünya qəm verir ..........301
Zulm elə eşqdə mənə tab eləyim cövründən .......................302
Mən vətən mülkün özümçün sanıram bağı behişt ..............302

Surətin əksi mənə surəti canan kimidir ................................303
Ney kimi ah eyləməkdən bezmişəm mən sübhəcən ............304
Gəzdirib hər dəmki aləmdə rüxi canana göz .......................304
Bu yollar aşiqi zari yoran yollardır, ey dilbər .......................305
Bütün dünya mənim olsa qamim bitməz nədəndir bu ........306
Səri kuyində dolanmaq gülüm adətdi mənə ........................306
Kədərdən gözüm tökər qanlı yaş, fələksə duymaz ahu zarimi ...................................................................................307
Allahın nuri iki gözdür durub sərdən baxır .........................308
Fəraqi yar ilə hər dəm qəm olmuş əfvalım ...........................309
Cəmali yarı düşünməkdi şakərim gecələr ............................310
Ey Xuda eylə nökər həşrdə canana məni .............................311
Səfvən güvəndim əhdinə mən aşinalərin .............................312
Uyma Məcnun tək könül zülfü siyah leylalərə ....................312
İstədim Məcnun misalı üz tutum səhraya mən ....................313
Ey çərxi fələk, sən yaman insanı sıxırsan ..............................314
Torpağın altında qara qul kimi ............................................315
**Kitaba daxil edlimiş əruz vəznindəki şeirlərin bəhr və qəlib-lərinin statistikası** ....................................................................316
**ƏDƏBİYYAT** ....................................................................319

# XANƏNDƏLƏRİN ŞEİRLƏRİ

Bakı – 2026

Yığılmağa verilmiş: 15.01.2026
Çapa imzalanmış: 01.04.2026
Şərti çap vərəqi 20.75
Tirajı: 200


XANƏNDƏLƏRİN
ŞEİRLƏRİ